# “Türk dünyası gənc tədqiqatçılar dərnəyi”nın Araşdırmaları

№ 3(3)
2019

BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ

№3(3) 2019

# “Türk dünyası gənc tədqiqatçılar dərnəyi”nin Araşdırmaları

**Bakı Dövlət Universiteti və Tarix fakültəsinin 100 illik yubileyinə həsr edilir**

# 3

**Bakı - 2019**

*Tarix fakültəsi Elmi Şurasının 30 may 2019-cu il tarixli qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №6).*

*Redaksiya heyəti:*
*(əlifba sirası ilə)*

| | |
|---|---|
| t.ü.f.d. Arzu MƏMMƏDOVA | - Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası |
| t.ü.f.d. Aynur HÜSEYNOVA | - Qafqaz tarixi kafedrası |
| t.ü.f.d. Aynur MƏMMƏDOVA | - Slavyan ölkələri tarixi kafedrası |
| t.ü.f.d. Bəymirzə ŞABİYEV | - Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası |
| t.ü.f.d. Elvira LƏTİFOVA | - Qədim dünya və orta əsrlər tarixi kafedrası |
| t.ü.f.d. Kəmalə NƏCƏFOVA | - Azərbaycan tarixi (hümanitar fakültələr üzrə) kafedrası |
| t.ü.f.d.Kərəm MƏMMƏDOV | - Arxeologiya və Etnoqrafiya kafedrası |
| t.ü.f.d. Qismət DAVUDOV | - Asiya və Afrika ölkələri tarixi kafedrası |
| t.ü.f.d. Rövşən HƏTƏMOV | - Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası |
| t.ü.f.d. Sevinc QASIMOVA | - Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrası |
| t.ü.f.d. Sevinc RUİNTƏN | - Türk xalqları tarixi kafedrası |
| t.ü.f.d. Səidə QULİYEVA | - Dünya azərbaycanlıları tarixi ETL |

*Ingilis dilində məqalələr üzrə məsul*

| | |
|---|---|
| Cavid ƏLİSGƏNDƏRLİ | - Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyi |

© Türk Dünyası Gənc Tədqiqatçılar
Dərnəyinin Araşdırmaları, 2017

## Redaksiyadan

Bakı Dövlət Universiteti "Türk xalqları tarixi" kafedrasının 25 illik yubileyi münasibətilə 2017-ci ildən nəşrinə başlanmış "Araşdırmalar" kafedranın nəzdində fəaliyyət göstərən "Türk dünyası gənc tədqiqatçılar" dərnəyinin jurnalı olaraq təsis edilmişdir. İldə 1 sayının nəşr olunması, kafedranın və fakültə Elmi Şurasının qərarları ilə çapa məsləhət görülməsinə qərar verilib. Jurnalda yalnız tələbə məqalələrinin nəşri nəzərdə tutulur. Məqalələr 4 dildə qəbul edilir: Azərbaycan, türk, rus və ingilis dillərində. Jurnalda Türk dünyasının gənc tədqiqatçılarının tarix üzrə araşdırmaları ilə bərabər, həm də ümumilikdə gənc tarixçi tələbələrin Türk dünyası ilə bağlı araşdırmaları dərc edilir.

**2019-cu il tarixli 3-cü sayımız tələbəsi/əməkdaşı olduğumuz Bakı Dövlət Universiteti və Tarix fakültəsinin 100 illik yubileyinə həsr edilir.**

*"Cümhuriyyətimizin əvəzsiz yadigarı, 2019-cu ildə 100 illik yubileyini qeyd etdiyimiz zəngin elm və tədris ənənələrinə malik Universitetimiz onu yaradanların, həmçinin fəaliyyət göstərdiyi dönəmdə rastlaşdığı heç bir çətinliyə baxmayaraq, onu yaşatmağı bacaranların adına layiq tədris və elm ocağı olaraq qalmaqdadır. Universitetimizin bundan sonra da fəxr ediləcək tədris və elm mərkəzi olaraq qalması isə bu gün Universitetdə çalışan və təhsil alan hər kəsdən, yəni hər birimizdən asılıdır. Bu vəzifənin öhdəsindən gəlmək üçün hər birimizin, hazırda qeyd etməkdə olduğumuz 100 yaşımıza uyğun müdriklik nümayiş etdirməsinin kifayət olacağını hesab edirik".*

*Professor Əsməd Muxtarova*
*Türk xalqları tarixi kafedrasının müdiri*

*Türk dünyası*
*Gənc tədqiqatçılar dərnəyi*

## MÜNDƏRİCAT

*BDU ilə Şərqi Slavyan ölkələri arasında ictimai-mədəni əlaqələr* -
Sevinc İBADOVA (Bakı Dövlət Universiteti) ................................. 5
*İpek yolu – Kültür yolu* -
Xəyalə HÜSEYNOVA (Bakı Dövlət Universiteti) ……........…....... 17
*Timur devletinin özbeklerle ilişkileri* -
Nasiba MİRZAYEVA (Erciyez Üniversitesi, Türkiye) .................. 28
*Yelizaveta Tüdora qarşı sui-qəsd planları və təşkilatlanmanın iç üzü* – Türkan İSMAYILOVA (Bakı Dövlət Universiteti) ................ 39
*Türkiyə türklərinin milli mübarizəsinin təşkilatlanma dövrü* –
Təranə BABAZADƏ (Bakı Dövlət Universiteti) .............................. 48
*Türkiyə-Avropa İttifaqı münasibətlərində "Kipr Məsələsi"*-
Fatimə CARULLAZADƏ (Bakı Dövlət Universiteti) ..................... 59
*"İttihad və Tərəqqi" Cəmiyyəti: yaranması, ideologiyası və fəaliyyəti* – Lalə ƏSGƏROVA (Bakı Dövlət Universiteti) …..…..................... 71
*Sovyet dönemine kadar kazak tarihine bakış* -
Fatma Betül AYDEMİR (Bakü Devlet Üniversitesi) ....................... 79
*Azərbaycanın sovetləşməsi dövründə N.Nərimanovun dinə münasibəti* - Ləman ALAGÖZLÜ (Bakı Dövlət Universiteti) .......... 89
*SSRİ dövründə Azərbaycan tarixşünaslığında Mərkəzi Asiya və türk tarixi ilə bağlı araşdırmaların təhlili* -
Oğuz Kağan BAYRAKDAR (Bakı Dövlət Universiteti) ................. 99
*Türkiyə Cümhuriyyəti - Almaniya münasibətləri tarixinə baxış* -
Həyat QARAYEVA (Bakı Dövlət Universiteti) .............................. 111
*1993-2003-cü illərdə Azərbaycanın sosial-iqtisadi inkişafında Heydər Əliyevin rolu* –
Nigar ABBASOVA (Bakı Dövlət Universiteti) ................................ 123
*Çinin "Bir kəmər, Bir yol" layihəsi* –
Polad RZAZADƏ (Bakı Dövlət Universiteti) .................................. 133
*The ideological atmosphere in the emergence of Ottoman state* -
Gular BAYRAMLI (Baku State University) ..................................... 144
*Azerbaijan after 2014 - partial diversification of the economy* -
Arnold BARAŃSKI (University of Warsaw) ................................... 155
*The place of cuisine in the national cultures/ Azerbaijani: traditions and modernity* -
Katarzyna KWIATKOWSKA (University of Warsaw) ……….......... 166

**Sevinc İBADOVA**
***Slavyan ölkələri tarixi ixtisası üzrə magistrant,***
***Bakı Dövlət Universiteti, Tarix fakültəsi***
**E-mail: sevincibadova.212@mail.ru**

# BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ ŞƏRQİ SLAVYAN ÖLKƏLƏRİ ARASINDA İCTİMAİ-MƏDƏNİ ƏLAQƏLƏR (XX əsrin sonu -XXI əsrin əvvəllərində)

*Elmi rəhbər*:
t.ü.f.d.Aynur MƏMMƏDOVA
Bakı Dövlət Universiteti

*Açar sözlər*: Bakı Dövlət Universiteti, beynəlxalq əlaqələr, ictimai-mədəni əlaqələr, Rusiya, Ukrayna, Belarus
*Ключевые слова:* Бакинский Государственный Университет, международные связи, общественно-культурные связи, Россия, Украина, Белоруссия
*Key words:* Baku State University, international relations, socio-cultural relations, Russia, Ukraine, Belarus

*Məqalədə Bakı Dövlət Universiteti ilə Şərqi slavyan ölkələri arasında ictimai-mədəni əlaqələrin əsas istiqamətləri, sözügedən dövlətlərin təhsil ocaqları ilə qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın yaradılması, ikitərəfli əməkdaşlığa dair sazişlər və qarşılıqlı əlaqələrin real nəticələri əksini tapmışdır. Məqalədə, həmçinin ictimai-mədəni əlaqələrin güclənməsi istiqamətində universitetdaxili təşkilatların fəaliyyəti də nəzərdən keçirilmiş, ümumən, ölkələrarası əlaqələrin inkişafı istiqamətində BDU-nun həyata keçirdiyi tədbirlər təhlil edilmişdir.*

Bakı Dövlət Universitetinin fəaliyyətində akademik əlaqələr qədər, təhsilin bir parçası olaraq dəyərləndirilən ictimai-mədəni əlaqələr də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan BDU milli-mənəvi dəyərləri unutmadan qlobal innovasiyalara hakim, ictimai əlaqələri güclü, ölkəyə, cəmiyyətə, ümumən insanlığa faydalı vətəndaşların formalaşması kimi strategiyaya, sosial-mədəni sahədə fəaliyyət mexanizminə malik ali təhsil müəssisəsidir.

Beynəlxalq elm və təhsil arenasında özünəməxsus yer tutan BDU dünyanın bir çox nüfuzlu universitetləri, o cümlədən Şərqi slavyan ölkələri universitetləri ilə sıx əlaqələr yaratmışdır. Bu əlaqələrin genişlənməsində BDU xarici ölkələrin ali məktəbləri ilə ikitərəfli əməkdaşlığa, müxtəlif elm-təhsil qurumları ilə birgə layihələrin həyata keçirilməsinə, universitetlərin beynəlxalq assosiasiyalarında təmsil olunmağa, xarici ölkələrin Azərbaycandakı səfirlik və nümayəndəlikləri ilə əməkdaşlığa, Azərbaycan dili və ədəbiyyatının dünya birliyində təbliği və yayılmasına xüsusi əhəmiyyət verir.

BDU Rusiyanın M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (12 fevral 2000), Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutu, Sankt-Peterburq Dövlət Universiteti, Rusiya Dövlət Humanitar Universiteti (18 may 2007), Rusiya Elmlər Akademiyasının A.Arbuzov ad.Üzvi və Fiziki Kimya Elmi Mərkəzi, Həştərxan Dövlət Universiteti (12 fevral 2007), Stravropol Dövlət Universiteti (28 aprel 2010); Ukraynanın T.Şevçenko adına Ukrayna Milli Universiteti (23 mart 2000), Donetsk Dövlət Universiteti (24 mart 2000), Heydər Əliyev ad. Sosial Elmlər İnstitutu, Dnepropetrovsk Milli Universiteti, İ.Franko ad.Lvov Milli Universiteti, Vinniski Dövlət Texniki Universiteti (07 oktyabr 2008); Belarusun Belarus Dövlət Universiteti (23 mart 2000) və digər ali təhsil ocaqları ilə ikitərəfli əməkdaşlıq müqavilələri əsasında əməkdaşlıq edir (8, s.87). İmzalan sazişlər isə ali təhsil sahəsində, həmçinin ictimai-mədəni sahədə əməkdaşlığın qurulması və inkişafi üçün zəruri siyasi-hüquqi baza olmuşdur.

2008-ci ilin oktyabr ayında BDU-da «Rus Dünyası» fondunun maliyyə dəstəyi ilə Rus Mərkəzi yaradılmışdır (9). Mərkəz rus dili və ədəbiyyatı, Rusiya tarixi, mədəniyyəti sahəsində müasir kitablar, internet resursları və texniki avadınlıqlar ilə təchiz edilmişdir (1, s.3). Rus Mərkəzinin açılışında Rusiya Federasiyasının səfiri V.İstratov, «Rus Dünyası» fondunun idarə heyətinin icraçı direktoru V.Nikonov da iştirak etmişdir. V.Nikonov açılışda nəzərə çarpdırdı ki, Rus Mərkəzinin gələcək planlarında sərgi, seminar, yaradıcılıq gecələrinin keçirilməsi, rus dili kurslarının təşkili, həmçinin ali məktəblərdə rus dilini tədris edən müəllimlərin ixtisaslarının artırılması nəzərdə tutulur

(8, s.87). Qeyd edək ki, Rus Mərkəzinin məqsədi rus dili və mədəniyyətini təbliğ etmək, xaricdə rus dilinin tədris olunması proqramlarını dəstəkləmək, mədəniyyətlərarası dialoqun inkişafı və xalqlararası qarşılıqlı anlaşmanın güclənməsi istiqamətində müxtəlif fəaliyyətlərə imza atmaqdır. Müasir metodiki baza ilə təchiz olunan Rus Mərkəzində nüfuzlu elm adamlarının, tələbələrin iştirakı ilə tədbirlər, görüşlər, elmi-praktik konfranslar keçirilir, hər tədris ili təşkil olunan kurslarda universitet tələbələrinin, həmçinin əcnəbi gənclərin rus dilini öyrənməsi təmin edilir.

Beynəlxalq əlaqələrin inkişafı istiqamətində BDU Slavyan ölkələrinin Azərbaycandakı səfirlik və nümayəndəlikləri ilə əməkdaşlıq edir, səfirliklər universitet ilə öz ali təhsil müəssisələri arasında ikitərəfli əlaqələrin qurulmasında əlaqələndirici və istiqamətləndirici funksiya daşıyır. Bu baxımdan ictimai-siyasi xadimlərin, elm nümayəndələrinin BDU-ya səfəri artıq ənənəyə çevrilmişdir. Universitetin qonaqları sırasında professor Mixayıl Serafimoviç Meyer, Rusiyanın xarici işlər naziri Sergey Lavrov, Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Yevgeni Sidorov, Ukrayna səfiri Aleksandr Mişenko və s. ictimai-siyasi xadimlər, elm nümayəndələri də vardır.

2007-ci ilin 22 mayında BDU-da Rusiyanın xarici işlər naziri Sergey Lavrovun, 2009-cu ilin 15 sentyabrında Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxinin, 2015-ci ilin 16 oktyabrında Rusiya Federasiyasının İstintaq Komitəsinin sədri, ədliyyə general-polkovniki, Rusiyanın «Əməkdar hüquqşünası», professor Aleksandr Bastrıkinin tələbə və müəllimlərə görüşü keçirilmişdir. Sergey Lavrovun da bildirdiyi kimi, təkcə siyasi, iqtisadi əlaqələr deyil, həm də hümanitar sahədə münasibətlər Rusiya-Azərbaycan əlaqələrini möhkəmləndirir. 28 oktyabr 2011-ci ildə Ukrayna səfiri Aleksandr Mişenko BDU-nun qonağı olmuşdur. Ölkəsinin ali məktəbləri haqqında danışan Aleksandr Mişenko Ukrayna universitetləri ilə BDU arasında bir çox sahələr üzrə əməkdaşlıqda maraqlı olduqlarını vurğulamışdır (3, s.354).

2010-cu ilin 17 aprelində Rusiyalı tarixçi-türkoloq, Moskva Dövlət Universitetinin nəzdində Asiya və Afrika ölkələri İnstitutunun direktoru, professor Mixayıl Serafimoviç Meyer BDU-nun qonağı olmuşdur. Professor Mixayıl Serafimoviç Meyer bildirmişdir ki, təmsil etdiyi İnstitutda Azərbaycan dili tədris olunur, Azərbaycan dili kabinetinin açılması üçün isə hazırlıq işləri gedir. Sevindirici haldır ki, İnstitutda "MDB ölkələri üçün Azərbaycan dərsliyi"nin hazırlanması, müasir Azərbaycan ədəbiyyatı sahəsində kitabxana fondunun yaradılması da diqqət mərkəzində saxlanılmışdır. Qonaq bildirmişdir ki, Azərbaycan dilində təcrübəni formalaşdırmaq üçün bu sahəni yaxşı bilən mütəxəssislərə ehtiyac vardır və bunun üçün BDU-nun potensialından yararlanmaq istəyir. Görüş universitetlərarası münasibətlərə növbəti töhfə olmuşdur. Sonda universitetlərarası ikili diplomların verilməsi haqqında razılığa gəlinmişdir.

22 iyul 2011-ci ildə Rusiya Gənclər İctimai Palatasının nümayəndə heyəti BDU-da olmuşdur. Rusiyanın müxtəlif universitetlərinin tələbələri, ictimai-siyasi təşkilatların və dövlət qurumları üzvlərinin daxil olduğu nümayəndə heyəti ilə görüş zamanı iki ölkə universitetləri arasında əlaqələrin intensivləşdirilməsi, əməkdaşlığın genişləndirilməsi və digər məsələlər müzakirə edilmişdir (3, s.342).

2014-cü il sentyabrda Bakıda keçirilən "TEFİ-Sodrujestvo" IV Beynəlxalq Televiziya Festivalı çərçivəsində ölkəmizə gələn tanınmış rusiyalı jurnalistlər, "Rusiyalı Televiziya Akademiyası"nın üzvləri Svetlana Sorokino, Kiril Nabutov, Leonid Mleçin, Kira Poruşutinskaya və Rusiya Televiziya Akademiyası"nın Baş direktoru Eteriya Leviyeva BDU-da olmuşdur (3, s.511). Universitetin Jurnalistika fakültəsinin tələbələri ilə görüş zamanı qonaqlar jurnalist peşəsinin aktual problemləri haqqında çıxış etmiş, gələcək həmkarlarının suallarını cavablandırmışdır. Görüş qəzet, jurnal və digər nəşr olunan kütləvi informasiya vasitələrinin gələcəyi, sosial şəbəkələrin jurnalistikaya təsiri və s. mövzusunda maraqlı müzakirələrlə yadda qalmışdır.

27 aprel 2015-ci ildə Rusiya Federasiyası Tümen Dövlət Universitetinin Ekologiya və Təbii Sərvətlərdən Səmərəli İstifadə Elmi-Tədqiqat İnstitutunun direktoru, Rusiya Federasiyasının əməkdar

ekoloqu, professor A.B.Soromotin Ekologiya və torpaqşünaslıq fakültəsində olmuşdur. Fakültə rəhbərliyi ilə işgüzar və maraqlı görüşlər keçirən alim gələcək əməkdaşlığın vacibliyini xüsusi qeyd etmiş, qarşılıqlı anlaşma memorandumu və müqavilənin bağlanmasına ehtiyac duyulduğu bildirmişdir (11).

7 dekabr 2015-ci ildə Rusiya Təhsil Akademiyasının, Sankt-Peterburq Dövlət Universitetinin, eyni zamanda Rus dili və ədəbiyyatı Müəllimlərinin Beynəxalq Assosiasiyasının prezidenti, filologiya elmləri doktoru, professor Lyudmila Verbitskayanın başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində Bakı Dövlət Universitetində olmuşdur. Görüş Bakı Dövlət Universitetinin Rus Mərkəzində filologiya fakültəsinin professor-müəllim heyətinin iştirakı ilə davam etmişdir (13).

İctimai-siyasi, elm xadimlərinin BDU-ya səfəri yalnız bu və ya digər rəsmi səfərlərlə məhdudlaşmamış, habelə, universitetdaxili elmi konfranslarda, tədbirlərdə fəal iştirakı ilə diqqəti cəlb etmişdir. Bu isə öz növbəsində ikitərəfli əlaqələrin səmərəli nəticəsi kimi qiymətləndirilə bilər. 2008-ci ilin aprelində BDU-da keçirilən, Azərbaycan ədəbiyyatı və elminin inkişafına əvəzsiz töhfələr vermiş böyük ədib və alim, ictimai xadim, professor Mir Cəlal Paşayevin 100 illik yubileyinə həsr olunmuş elmi konfransda Rusiya, Ukrayna və digər ölkələrdən olan alimlərin də iştirakı fikrimizin təsdiqinə bir nümunədir. Tədbirin iştirakçısı olan Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Yevgeni Sidorov Mir Cəlal Paşayevin 100 illik yubileyinin YUNESKO tərəfindən keçirilməsi münasibətilə Azərbaycan xalqını təbrik etmişdir (3, s.212).

11 dekabr 2010-cu ildə BDU-da keçirilən Ulu öndər Heydər Əliyevin anım mərasimi çərçivəsində Rusiyanın ölkəmizdəki səfiri Vladimir Dmitriyeviç Doroxin universitetin qonağı olmuşdur. Mərasimdə çıxış edən səfir, Heydər Əliyev haqqında danışaraq onun fenomenal şəxsiyyət olduğunu diqqətə çatdırmışdır (3, s.294).

24 fevral 2012-ci ildə professor İlham Rəhimovun Moskvada çap olunmuş "Cinayətkarlıq və cəza" kitabının BDU-da keçirilən təqdimat mərasimində Rusiya İstintaq Komitəsinin sədri Aleksandr

Bastrıkin, Rusiya Federasiyası Dövlət Dumasının Komitə sədri Vladimir Pligin çıxış edərək kitabın əhəmiyyətindən bəhs etmişdir. Təqdimat mərasimində, həmçinin Rusiyanın Baş Prokurorluq nəzdində Hüquq İnstitutunun direktor müavini Aleksey Salnikov, general-leytenant Mozyakov Vitali Vladimiroviç, general-leytenant İqor Sobolevski, tanınmış vəkil Viktor Xmarin də iştirak etmişdir (3, s.380).

25 noyabr 2013-cü ildə isə "Cinayətin və cəzanın fəlsəfəsi" kitabının təqdimat mərasimi keçirilmişdir. Rusiya İstintaq Komitəsinin sədri Aleksey İvanoviç Aleksandrov, Rusiya Pedoqoji, Sosial Elmlər Akademiyasının akademiki, professor Qolik Yuriy Vladimiroviç, Kriminologiya Klubunun direktoru, professor Dmitri Anatoliyeviç Şestakov, Omsk Universitetinin Cinayət hüququ və kriminalistika kafedrasının professoru Tatyana Viktorovna Neponyaşaya da tədbirdə iştirak etmişdir (3, s.468).

2015-ci 16-25 mart tarixlərində Müstəqil Dövlətlər Birliyinin İqtisad Məhkəməsinin (MDB İS) sədri Lyudmila Kamenovanın MDB İS-in fəaliyyəti ilə bağlı online konfransı BDU-nun Hüquq fakültəsinin tələbələri, hüquq fənləri üzrə müəllimlər, bütün maraqlanan şəxslərin bu sahədə ətraflı məlumata yiyələnmələri baxımından mühüm əhəmiyyət kəsb etmişdir. MDB İS-in internet-portalında (http://sudsng.org/conference/) distant "sual-cavab" şəklində keçirilən konfrans öz səmərəli nəticəsilə yadda qalmışdır (14).

Qeyd edək ki, universitet əməkdaşlarının, tələbələrinin bu qəbildən olan konfransların, tədbirlərin elanı ilə tanış edilməsində, habelə universitetin daxili və xarici fəaliyyətinə dair xəbərlərin xarici ölkə universitetlərinə ötürülməsində BDU mətbuatının xüsusi rolu vardır. BDU-nun mətbuat əməkdaşlığının uğurlu nəticəsidir ki, artıq universitet xəbərlərinə təkcə yerli mediada deyil, Rusiya, Ukrayna, Belarusiya, Qazaxıstan və s. ölkələrin mətbuatında da rast gəlmək mümkündür (7, s.133).

İkitərəfli əməkdaşlıqda BDU sözü gedən ölkələrdən nümayəndələrin qəbulu ilə kifayətlənməmiş, eyni zamanda bu ölkələrdə keçirilən tədbirlərdə təmsil olunmuşdur. Belə ki, 2011-ci ilin noyabrında Moskva Dövlət Universitetinin təsisçisi M.V.Lomonosovun 300 illik

yubileyinə həsr olunmuş tədbirdə BDU-nun rektoru da iştirak etmişdir (3, 361).

26 noyabr 2015-ci ildə BDU-nun nümayəndə heyətinin iştirakı ilə universitetin yaradıcılarından biri və ilk rektoru, professor Vasili İvanoviç Razumovskinin Yessentuki şəhərində (Rusiya Federasiyası, Stavropol vilayəti) xatirə barelyefinin açılış mərasimində iştirak etmişdir.

Qeyd edək ki, bir müddət öncə Yesentukidəki Tarix-diyarşünaslıq muzeyində professor V.İ.Razumovski ilə bağlı çoxsaylı arxiv sənədlərinin olması, məzarının bu şəhərdə olması nəzərə alınaraq BDU tərəfindən bu istiqamətdə jurnalist araşdırmasının aparılması barədə təşəbbüs qaldırmışdır. Bundan sonra Lent.az saytının redaktoru Səbuhi Məmmədli Yessentukiyə ezam edilmiş və apardığı araşdırma nəticəsində V.İ.Razumovskinin Bakı Dövlət Universitetinin yaranması, həmin dönəmdə gördüyü işlər və sonrakı fəaliyyəti ilə bağlı xeyli arxiv materialları aşkarlanmışdır (10).

Universitetdə rəsmi tədbirlərlə yanaşı, bilavasitə şərqi slavyan mədəniyyətilə bağlı tədbirlər də təşkil edilmişdir. Tələbələrin bu qəbildən olan tədbirlərdə fəallığı diqqət çəkən məqamlardandır. Belə tədbirlərdən biri də 19 mart 2015-ci ildə BDU-nun Filologiya fakültəsində Humanitar fakültələr üzrə rus dili kafedrasının müəllimləri tərəfindən keçirilən Novruz bayramına həsr olunmuş "Rus poeziyası gecəsi"dir. Tədbirdə universitetin 8 fakültəsinin 35 tələbəsinin ifasında görkəmli rus şairlərinin şeirləri səsləndirilmişdi. Onların arasında Çin və Türkiyədən gəlmiş tələbələr də vardır (12).

BDU-nun Şərqi slavyan ölkələri ilə ictimai-mədəni əlaqələrinin inkişafında BDU Həmkarlar Komitəsinin, BDU Tələbə Gənclər Təşkilatının da xüsusi rolu vardır. Beynəlxalq əlaqələrə önəm verən BDU HİK 1993-cü ildən Avroasiya Universitetləri Həmkarlar İttifaqları Assosiasiyasının üzvüdür. Məlum olduğu kimi, 2009-cu ildə həmin assosiasiyanın 22-ci qurultayı BDU-da yüksək səviyyədə qeyd edilmişdir. Qurultay çərçivəsində Lomonosov adına Moskva Dövlət Universiteti və Kiyev Milli Universitetləri, həmçinin Rusiyanın digər universitetləri ilə müqavilələr imzalanmışdır ki, bu müqavilələr çər-

çivəsində həmin universitetlərin istirahət mərkəzlərinə BDU əməkdaşlarının güzəştli şərtlərlə göndərilməsi təmin edilmişdir (7, s.124). Bundan əlavə, Moskvaya, Sank-Peterburqa, Kiyevə və digər şəhərlərə ezamiyyətə göndərilən əməkdaşlarımızın həmin universitetlərin qonaq evlərində güzəştli şərtlərlə yerləşdirilməsi təmin olunur. BDU THİK 2009-cu ildə MDB üzrə fəaliyyət göstərən bütün tələbə təşkilatları arasında ilin ən aktiv üç təşkilatından biri seçilmişdir (7, s.126).

26 oktyabr 2011-ci ildə Dağıstan Muxtar Respublikasının paytaxtı Mahaçqala şəhərində Avrasiya Universitetləri Həmkarlar İttifaqları Assosiasiyasının XXIV qurultayı keçirilmişdi. Qurultayda BDU-nun Həmkarlar İttifaqları Komitəsinin sədri, dosent Fikrət Şiriyev iştirak etmişdir (3, s.354).

Universitetin Tələbə Gənclər Təşkilatı 2005-ci ilin iyunun 3-də yaradılmışdır. Təşkilatın strukturlarından birini də Beynəlxalq əlaqələr departamenti təşkil edir. Beynəlxalq əlaqələr departementi beynəlxalq əməkdaşlığın qurulmasında, xarici universitetlərin tələbə təşkilatları ilə ikitərəfli münasibətlərin yaranmasında, razılaşmaların bağlanmasında, universitet tələbələrinin beynəlxalq tədbirlərdə, konfranslarda iştirak etməsinə yardımçı olur və bu sahənin daha da genişlənməsi üçün tədbirlər həyata keçirir (16). Son illərdə beynəlxalq əlaqələrini daha da genişləndirən BDU Tələbə Gənclər Təşkilatı M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin və T.Şevçenko adına Kiyev Milli Universitetinin Gənclər Təşkilatı ilə əməkdaşlıq haqqında memorandum imzalamış, təşkilatın fəalları Rusiya, Ukrayna və s. ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə iştirak etmişdir.

Qeyd edək ki, universitet tələbələri yalnız təşkilat daxili fəaliyyətlərdə deyil, həmçinin digər fəaliyyətlərdə də ölkələrarası əlaqələrin qorunub saxlanmasında fəallıq nümayiş etdirmişdir. Bu fəallıq 2015-ci ilin iyununda keçirilmiş “Bakı 2015” yay olimpiya oyunlarında daha aydın nəzərə çarpmışdır. BDU tələbələrinin I Avropa oyunlarında könüllü qismində uğurlu fəaliyyətləri həmin ölkələrin rəsmi şəxslərinin də diqqətindən yayınmamış, hətta universitetə təmsil etdikləri qurum adından minnətdarlıqlarını ifadə edən məktub

göndərmişdirlər. 3 oktyabr 2015-ci ildə Ukrayna Milli Olimpiya Komitəsinin prezidenti Sergey Bubkanın BDU-ya göndərdiyi minnətdarlıq məktubu da məhz bu qəbildəndir. O, Bakıda keçirilmiş I Avropa Oyunlarından bəhs edərək qeyd edir ki, bu oyunlar zamanı BDU-nu təmsil edən könüllülər sayəsində Ukrayna nümayəndə heyəti Azərbaycanla, onun mədəniyyəti, adət-ənənələləri ilə tanış olmuş, könüllülər sayəsində Ukrayna idmançıları, məşqçiləri, mütəxəssisləri mehmanxanaya yerləşdirilməkdən tutmuş ekskursiya və idman arenalarında belə onların qayğısı ilə əhatə olunmuşdur (15).

Yuxarıda şərh olunan məsələlərdən də aydın olduğu kimi, Azərbaycan və Şərqi Slavyan ölkələri arasında mədəni əlaqələrin inkişafında ali təhsil müəssisələri arasındakı əməkdaşlıq mühüm faktorlardan biridir. Bu mənada ölkələrarası əlaqələrin inkişafında BDU-nun da öz payı vardır. Şərqi slavyan ölkələri ilə ictimai-mədəni əlaqələrin təhlili bir daha sübut edir ki, dövlətçiliyin etibarlı sosial dayağı statusunu qazanan BDU ilk elm və təhsil məbədi olaraq milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərən mərkəz olmaqla yanaşı, hər zaman dövlət siyasətini dəstəkləyərək bütün sahələrdə, o cümlədən beynəlxalq əlaqələrin yaxşılaşması və genişlənməsi istiqamətində yerinə yetirməli olan missiyanı şərəflə icra etmişdir.

## ƏDƏBİYYAT:

1. “Azərbaycan” qəzeti, 2009, 27 oktyabr, s.3.
2. Bağırova S. Azərbaycanın ali məktəblərinin Rusiya və Ukrayna ali təhsil müəssisələri ilə beynəlxalq əməkdaşlığı // Tarix və onun problemləri, №1 2011, s.146-152.
3. Bakı Dövlət Universiteti 15 il mətbuat aynasında. Bakı, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2004, 536 s.
4. “Бакинский рабочий” газета, 1997, 25 марта.
5. Byong-Sun K. A proposal for the development of Baku State University of Azerbaijan (Report to the Director General of United Nations Educational, Scientific and Cultural Organization). 31 December 1995, 49 s.

6. Məhərrəmov A.M. Bakı Dövlət Universiteti 90. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2009, 689 s.
7. Məhərrəmov A.M. Bakı Dövlət Universiteti 95. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2014, 576 s.
8. Məmmədov H.N. Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin inkişafında ali məktəblərarası əməkdaşlığın rolu (BDU-nun timsalında) // Bakı Universitetinin Xəbərləri, №4 2009, s.85-91.
9. Bakı Dövlət Universitetində Rus Mərkəzi açılmışdır / AzərTAC, Azərbaycan Dövlət İnformasiya Agentliyi, 28.11.2008. (Online). Mənbə:
https://azertag.az/xeber/BAKI_DOVLAT_UNIVERSITETINDA_RUS_MARKAZI_ACHILMISDIR-425613 [Baxılıb: 5.04.2019]
10. BDU Yessentukidə ilk rektorunun barelyefini açacaq / Bakı Dövlət Universitetinin rəsmi internet səhifəsi, 21.11.2015. (Online). Mənbə:
http://bsu.edu.az/az/news/bdu_yessentukid_ilk_rektorunun_barelyefini_aacaq [Baxılıb: 5.04.2019].
11. Rusiya Federasiyasının əməkdar ekoloqu BDU-da olub / Bakı Dövlət Universitetinin rəsmi internet səhifəsi, 27.04.2015. (Online). Mənbə:
http://bsu.edu.az/az/news/rusiya_federasiyasnn_mkdar_ekoloqu_bduda_olub [Baxılıb: 5.04.2019].
12. "Rus poeziyası gecəsi" adlı tədbir keçirilib / Bakı Dövlət Universitetinin rəsmi internet səhifəsi, 19.03.2015. (Online). Mənbə: http://bsu.edu.az/az/news/rus_poeziyas_gecsi_adl_tdbir_keirilib [Baxılıb: 5.04.2019].
13. Rusiya Təhsil Akademiyasının prezidenti Lyudmila Verbitskaya BDU-da olub / Bakı Dövlət Universitetinin rəsmi internet səhifəsi, 07.12.2015. (Online). Mənbə:
http://bsu.edu.az/az/news/rusiya_thsil_akademiyasnn_prezidenti_lyudmila_verbitskaya_bduda_olub [Baxılıb: 5.04.2019].
14. Tələbə və müəllimlər MDB İqtisadi Məhkəməsinin sədri ilə dialoqda iştirak edə bilərlər / Bakı Dövlət Universitetinin rəsmi internet səhifəsi, 12.12.2015. (Online). Mənbə:

http://bsu.edu.az/az/news/tlb_v_mllimlr_mdb_qtisadi_mhkmsinin_sdri_il_dialoqda_itirak_ed_bilrlr [Baxılıb: 5.04.2019].
15. Ukrayna Olimpiya Komitəsinin prezidenti akademik Abel Məhərrəmova minnətdarlığını bildirib / Bakı Dövlət Universitetinin rəsmi internet səhifəsi, 13.10.2015. (Online). Mənbə: http://bsu.edu.az/az/news/ukrayna_olimpiya_komitsinin_prezidenti_akademik_abel_mhrrmova_minntdarln_bildirib [Baxılıb: 5.04.2019].
16. Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının rəsmi web səhifəsi - http://syo.bsu.edu.az/ [Baxılıb: 5.04.2019].

**Севиндж ИБАДОВА**
***Магистрант Исторического факультета***
***Бакинского Государственного Университета***
***по специальности История славянских стран***

# ОБЩЕСТВЕННО-КУЛЬТУРНЫЕ СВЯЗИ МЕЖДУ БАКИНСКИМ ГОСУДАРСТВЕННЫМ УНИВЕРСИТЕТОМ И ВОСТОЧНО – СЛАВЯНСКИМИ СТРАНАМИ (конец XX - начало XXI вв.)

В статье рассматриваются основные направления общественно-культурных связей Бакинского Государственного Университета с восточно-славянскими странами, создание взаимного сотрудничества с учебными заведениями России, Украины и Белоруссии в областях представляющий интерес, двухстороннее соглашение о сотрудничестве и реальные результаты взаимных связей. Также в статье анализируется усиление действий внутренних университетских организаций в направлении общественно-культурных связей и основное влияние на развитие отношений между странами это проведение в жизнь мероприятий Бакинского Государственного Университета.

**Sevinj IBADOVA**
***Master student of the Faculty of History of Baku State University, specialty History of Slavic countries***

## SOCIO-CULTURAL RELATIONS BETWEEN BAKU STATE UNIVERSITY AND EASTERN SLAVIAN COUNTRIES (the end of XX century - the begining of XXI century)

The article deals with a number of issues such as main directions of socio-cultural relations between Baku State University and Eastern Slavic countries, building cooperation with educational institutions of those countries in the spheres of mutual interest, bilateral treaties and real effects of mutual relations, etc. The article also reviews the activities of interuniversity organizations in strengthening socio-cultural relations, in general the activities of BSU in developing the relations between the countries.

**Khayala HÜSEYNOVA**
***"Türk dünyası tarihi" ihtisası üzre yüksek lisans öğrenci,***
***Bakü Devlet Üniversitesi, Tarih fakültesi***
**E-mail: xeyalehuseyn@outlook.com**

# İPEK YOLU - KÜLTÜR YOLU

*Elmi rəhbər*:
İsmayıl MƏMMƏDOV
Bakı Dövlət Universitetinin professoru

*Açar sözlər*: İpek yolu, kültür, din, eski türk inancları, maniheizm, budizm, göktürkler, uyğurlar, takvim, mimarlık
*Ключевые слова*: Шелковый путь, культура, религия, древне-тюркские верования, манихеизм, буддизм, гёктюрки, уйгуры, календарь, архитектура
*Keywords*: Silk Road, Culture, Religion, The old turkic beliefs, Manichaeism, Buddhism, Göktürks, Uighurs, Calendar, Architecture

Çinde başlayıb Avrupaya kadar uzanan bu büyük yol XIX.yy' da İpek yolu adını alsa da, aslında yanlış bir kalıp olduğu cok bellidir. Ipek yolunda sadace ipek satılmıyordur, ipek yolu aynı zamanda bir kültür taşıma yoludu. Özelikle dinler için paha bicilmez yol olan ipek yolu, tarih boyunca din missionerlerine en buyuk avantajı sağlamışdır. Ipek yolunda kültüre türkler acisindan bakacağız.

*Buddizim*, m.ö.VI.yy'da Hindistanda doğmuş uzak doğuda "büyümüs" olan bu din türkler arasında da pek yaygındı (13, s.97), özelikle uygurlar arasında, ilk başlarda göktürklerce kabulu görulse de, türklerin yaşam tarzına ters olmasiyla halk içinde büyük tepki toplayan bu din devletin yıkılma nedenlerinden biri haline geldi (22, s.44). Buddzimin yasakları – et yeme, savaşma – Göktürklerin hayat şeklidir. Halk tarafından tepki gören buddizim Topa kağan (572-581) ve cevresiyle sınırlı kaldı (18, s.76). Ama uzerinden yıllar gecince Bilge kağan (716-734) milletini daha rahat olan şehir hayatına gecirmek, surlarla cevrili bir şehir yaptırma, buddizmin kabulu düşünü gerceklеştirmeye kalkınca Büyük Bilge Tonyukuk türklerin bu kadar az insanla buyuk Çine karşı koya bilmesini tek sebebi şehirde yaşamama-

ları, göcebe olamalarıdır - diye ikna etmişdir. Tonyukuka göre buddizm insanları alçakgönüllü ve yumuşak yapiyordu ki, bu türklerin yaşamına, geleneğine pek de uygun degildi (3, s.369).

Göktürklerde pek de kabul olmayan bu din tam tersi uygurlar arasında yayıldı ve resmin din statusunu aldı. Tabi türk toresine ters olan bazı kurallar vardır, ancak uygurlar bunu kendi yaşam tarzlarına uygulayarak, buddizm tarihinde "ilk ve tek et yeyen" topluluk oldular (11, s.197), aynı zamanda eski türk inancından da vaz gecmediler[1].

Kültürel açıdan uygurları yeni bir boyuta taşııyan Buddizm, savaş acısından onları köreltdi. Buddizimn uygur kültürundeki etkisini fresklerden izleye biliyoruz. En buyuk budda tapınakları Turfanda – Pei-T'eng tapınağı ve Beşbalıkda-Bin buda mağaralarıdır (21, s.65-69).

*Maniheizm*. Manihezm İranda yaranmış semavi dinlere karşı olan ama aynı zamanda onların karışımından yaranmış, bir dinden ziyade harekat gibiydi, daha sonraları bir din kadar yaygınlaşdı. Irandan çine kadar ipek yolu ile yaygınlaşan bu dini ilk kez ve son kez sadace uygurlarda resmi din statu haline gelmişdir (17, s.84).

762'de Çindeki iç savaşı yatirmak için uygurlardan yardım isteyen imperatorun ricası üzerine Uygur kağanı Bögü (Bugu) "Lao Yang" seferi sırasında tanıştığı 4 buddist rahibi Balasaguna getirdi. Rahiblerin de etkisiyle bugu kağan hayvansal gıdalar yemeğı yasaklayan, savaşçılık duygusunu zayıflatan bu dini kabul etdi (5, s.204). Buddizim gibi bu dinde uygurlar acısından kulturel anlamda yükseliş oldu.

Manihezimin kabulu Bilge kağanın buddizm hayalı ile benzerlik teşkil ediyordu, yanı Bugu kağan da milletini şehir hayatına gecirerek, daha rahat bir hayat yaşamasını istiyordu. Diğer bir neden ise Sogdlu tuccarlardan faydalanmakdı. Fakat maniheizmin kabulunde siyası nedenler - Çin etkisi-olasılığıda vardır. ancak kağanın ve ya halkının bu dine ilgisinin olmaması ve ya secenek olarak kabul etmesi söylenemez (8, s.443-444). Maniheizmin gökle ilgisi sebebinden uygurlar bu dine bir yakınlık hiss ediyordu (18, s.76), böylece Bugu

[1] *Yer tanriya kurban sunar, kötü ruhları kovmak için altın ve gümüş kablarda su serpmeyi gelenek haline getirmişler.*

kagan bu dini kendi milletine kabul etdiren tek hükumdar olma özelleyine sahib oldu. Hükümdarın dini halkın dini oldu.

Ama tabi buddizimde oldugu gibi manihezm de uygurlar kendine uyarladı. Manihezmin yanı sıra türkler kendi rituellerini yapmaya devam etdiler[2]. Nitekim maniheizm uygurlar arasında hükümranlığı buddzimin etkisiyle kayb oldu. 10.yy'da bu din Turfan bölgesinde uygurlar arasında tamamen silinmış, buddizm bölgeye hakim olmuşdur (8, s.450-451).

*Yahudilik*. Tektanrılı ve kitablı bir din olmasına rağmen teblığı vazife yapmayan bu din, yayılmaya pek de musait deyildi. Hazarlara ulaşması, güneyden, Kafkaslardan gelmışdir. Hazarlar bu dini kabul etmesine dair pek çok ihtimal vardır: bizans zulmunden kaçan yahudiler hazarlar sığınmış ve onların etkisiyle Hazar kağanı bu dini benimsemişdir; her 3 kitabi din adamlarını etrafına Toplayan Bulan han 3unu de konuşturmuş kalbine en cok yatan yahudilik oldugundan onu kabul etmişdir. Bu ihtimallerin yanı sıra bir de siyasi nedenlerden dolayı da kabul edildiyi yönunde düşünceler var. Nitekim dönemin iki büyük devleti Bizans hristianlığı, arablar islamı himaye edince, hangi dini kabul ederse onun etkisi ve egemenliğini kabul etmiş olacak diye 3 cu alternativ din olarak yahudliyi secdiyi düşünülür (2, s.34-35). Ancak akdes nimet kurata göre arabların etksiyle 737 de islamı kabul etmiş olan hazarlar cok uzun suremeden 740 da tekrar "eski dinlerine" (yahudiliğe) geri dönmüşler (6, s.39). Sonuc olarak hazarlar yahudiliği kabul etmiş ilk ve tek türk devletidir. Yayılma tebliği olmamasına rağmen ipek yolunun etkisine yahudilikde kapılmış oldu.

---

[2]*Ötükene karşı duyulan saygı. Bu kutsal yer icin farklı kelime kullanılıyordu; Cakıl taşlarının gucu. Bu taşlarla yagmur yagdıra, havayı soğuta biliyorlardı; Savaşa gitmeden önce kehanteleri dinlemek; Uygur sarayının gün gectikce luks sekil alması, kağanların bundan rahatsızlık duymaması; Dini yasağa rağmen savaşa giderler; Et yerler ama buna ragmen mani dini kabulunden sonra savaş sırasında erzak miktarında tahılın miktarının artdığını göre biliyoruz. Çinli seyyah Vanğ Yen-de 980'de Turfan bölgesi Uygurlarını ziyaret ettiği zaman şunu kaydediyor: "Bütün fakirler et yer".*

*Hristianlık*. Ipek yolunda en cok ticaret yapanlar hristinlar olsa da türkler acisindan pek de buyuk etkisi olmamışdır. En cok hristian missionerlerin caba gösterdiyi bu yolda başarılı olamadılar (7, s.7). Fakat nasturi missionerleri karluk, kirgiz, uygur, nayman, kreit topluluklarına nüfüz etmeyi başardılar. Ortodoksluk ise Peçenek, Uz ve kipcaklarca yayılma gösterdi (21, s 44-45).

Türk nufusunun coğunluk meydana getiridigi yerlerde bir menfi tesiri olmasa da, azınlık halinde olan türkler tamamen hristianlaşarak kendi benliklerini kayb etmişler. 1000 tarihiinde resmi sekilde hristian olan Macarlar, 864 de Ortodokslugu kabul eden Bulgarlar türklükleri (12, s.303).

*Müsülmanlık*. Islam dini arab yarımadasında yaranmış ve Talas savaşı ile orta asyada etkinleşmeye başladı. Bununla da Orta Asyanın hızla islamlaşması ve türklesmesi basladı (13, s.155). Islmadakı cihan hakimiyyeti mefkursi türklerin Kizilelması ile benzerlik teşkil ediyordu. Aynı zamanda ahlakı açıdan da benzerlik teskil eden bu din türkler arasında yaygınlaşmağa başladı. Orta Asya X.yy'da, Turfan ve etrafı ise XV.yy'dan sonra tamamen islamlaşdı diye biliriz. İpek yolu sayesinde islam dinin daha uzak diyarlara daha hızlı sekilde yayılması ve en önemlisi türklerin bu dini kazanması islamiyyet acıdan buyuk kazanc sağlarken, İpek yolu ticaretinin gelişmeside islamın bu yola katkısını sağladı. Çine kadar ulaşan bu dinin Çindeki temsilcileri 10 mln yakın bir kitleyi teşkil eden Hui musulanlarıdır (1, s.430-433).

*Şehir*. Türkler göçer evli bir hayat yaşadıklarından surlara cevrili bir sehir anlayışı olamamışdır. Göktürk kitablerinde şehire eş değer anlam balık ifadesi kullanılmışdır (10, s.1). Türkler ilk ana yurdu ilk başkenti kutlu Ötükenin bir kutsal ruh varlığı bulunduguna inanıldığı malumdur. Göktürk yazıtlarında da Ötükenin kutsallılığından, türkler icin mutluluk kaynağının ordan gecmesinden sık-sık bahs ediliyor. Moğolistanda yerleşen bu şehirden ziyade ölkede cok sayıda göktürk izleri vardır. Baştan başa anıtlaral dolu olan ölkenin en değerli abideleri şübhesiz bilge tonyukuk kültigin yazitidir. Göktürk anıtları ve uygur dönemine aid "İrk bitik" dili ve alfabesi runik işaretleri denilen Göktürkceydi. 38 isaretedn ibaret olan bu muazzam alfabe tesadufen uretil-

miş ya da o anit icin uretilmiş alfabe deyil. Önemli grameri ve yazım kuralları olan bu alfabe ne zamandan itibaren kullanılıdğı bilinmese de karahanlı dönemine yanı isalmin yaygınlaşmsıa kadar kullanılmışdır. Bizans kayanaklarında iskit alfabesi olarak zikri gecen alfabeyle yabancılarla mektublaşmışlar[3] (14, s.62).

Doğu Türkistan sehirleri ipek yolu acısından cok degerli kavşak noktalarını teşkil ediyorlardı. Hem ticari hem siyasi hem savunma acisindan cok muhum cografi konuma sahib olan Dogu Turkistan sehirleri coğu zaman duşman talanına ugramaktan kaçınamıyorlardı. Bu şehirlerden Turfan, Beşbalık, Karaşar gibi bir cok şehirler önem taşıyordu. Beşbalık şehri ipek yolunun önemli şehri idi. Özellikle erken dönemlerde Hunlar burada kurdukları askeri üslerle hem Doğu Türkistan'ı, hem de daha batısını kontrol ediyorlardı. Şehir için Türkler ve Çinliler arasında uzun suren savaşlarda bir digerine ustun gelerek egemenlik kurmaya calışıyordu. Daha sonra bu savaşa katılan Tibet Pei-t`eng haric butun doğu turkistan ipek yolu kontrolunu ellerine aldılar. Devamlı olarak bölgede sorun cıkaran tibetliler yuzunden tüccarlar daha uygun yol bulamaya calısarak, daha bahalı yol olsa da uygur başkentinden Cangana kecid yapıyorlardı.

840.yılında Ötüken bolgeni Kırgızlara "emanet" eden uygurlar bölgeni terk ederek guneye Turfana cekildiler. Şehir Türklerce Beşbalik, Çinlilerce Pei-Teng, Çungarlarda Urmuci, mancu zamanında Ti-hua diye adlandı. Fakat, 1954'den Urmci adını tekrar aldı (21, s.66-69).

Beşbalık gibi Turfan şehride stratejik bakımdan cok avantajlı bölgede yerleşiyor. Çinden Avrupaya giden kervanların ilk konaklama yerlerinden biri olmasından dolayı, "garp illerinin kapısı" adlanıyordu (4, s.186). Iki nehrn arasından olsa da sehrin kuraklık problemi oluyor. Batı Han hanedanlığı döneminde "Ch`ü-shih olarak gecmektedir. Ipek yolunun en önemli vahası olmasından hunlarla çinliler arasında savaş

[3] *567 yılında soqdlu elçilerle Göktürkler Bizans sarayına ittifak anlaşmasına gitdiler. Kağanın yolladığı "iskit harfleriyle" yazılı mektubu tercumana okutdular.*

nedenlerinden biri olmuşdur (21, s.60). Ötükeni kırgızlara devr eden uygurlar 840'dan sonra yoğun bir şekilde Turfan bölgesinde göç etdiler. Kendi devletlerini yartdılar (4, s.187). 14.yy'dan itibaren şehir kaynaklarda "Turfan"[4] olarak gecmeye başlar.

Ipek yolunun en önemli kavşaklarından biri de Özbekistan şehirleridir. Genel olarak Timurlular döneminde yıldız parlamışdır. Tabi bu tum şehirler icin gecerli degildir. Örnegin Buhara gibi şehirler Timur zamanında dikkatdan kenar kalmışdır. Defalrca yıkılmasına rağmen aynı yerde aynı şekilde yeniden yapılandırılmışdır (4, s.306). Ona şöhret kazandıran şehrin ilim yuvası olması, burda cok sayıda alimin bulunmasıdı. Cengiz hanın batı seferiyle ilk harabe sehir olan Buhara Timurun semerkendi baş kent yapmasiyla degerini fazlasıyla kayb etdi. Özbek hanları döneminde tekrar eski saygınlığına kovuşdu (19, s.363-367).

Timurun taclandırdığı şehir - Semerkand m.ö.535'da persler tarafından kurulmuş, miladi VI.yy'da türk yabgularının idaresine gecmiş, 712 arab işgalı ve 1220'de moğollar tarafından yıkılan şehir Timurla kalkınarak neinki Orta Asyanın, dönemin en buyuk ve ihtişamlı şehri haline dönüşüyor (16, s.481-484). Semrakantın altın çağında büyük mimarı yapılardan: registan meydanı[5], Gur emir[6], Uluqbey resedhanası[7], Şah'ı Zinde Camisi, İsmail Buharî Külliyesi, Çolpan Ata

*[4] Iki ihtimal var: moğolca "zengin ve bereketli yer", türkcede "sulu yer" anlamı verdiyi versayılıyor.*

*[5] 3 tarafı büyük medresyle tanimlanan bu meydan bir üniversite yerleşkesi olarak tanimlana bilir. Burada ilk evveler medrese, hangah, Mirza hamamları ve Mescidi Mukatta ile oluşan bir kuliyye insa ettirmişdir. Fakat bu yapılar gunumuze ulaşmadı. Özbekler döneminde yapılan yenilemeler günümüze ulasmışdır. Ulugbey medresesi ile karsi karsiya yapılamasının nedeni kendi iktidarlarını Timurla kiyaslamak olmuşdur. Ulugbey (1417-1420), Tillia Kari (1646-1659), Şir-Dor (1619-1636).*

*[6] Hangah medrese ve türbe ile meydana gelen kulliyadır. Medrese ve hangah M.S.Mirza tarafindan yaptırılmıs. Türbe velihat Muhammad Sultan Mirza icin yapılmışdır. 1405 de Emir Timur buraya gömulmuş, onun adiyla Gur Emir, Gur Mir adlanmağa başladı. Daha sonra aile mensublarida buraya gömulmusdur.*

*[7] 1420-21 de yapılmış mateamtikci ve gök bilimci olan alim dönemi en büyük ilim adam Muhammed Taragay tarafından yapılmışdır. Kisa dönem ha-*

Türbesi, Bibi Hatun Medresesi, Uluğ Bey Medresesi, Şirdar Medresesi'ydive diger yapılar onu dönemin muze sehrine dönuşturmuştur (20, s.149).

Göcebe hayat yaşayan türkler doğayla birlikte yaşaamayı, ona saygıyı, onu dinlemeyi öyrenmişler. Gökyüzünde yıldızlar yer yüzünde hayvanlarla iletisim halinde olmuşlar. Ve tabiki de dinlerinden dolayı da tabiata ve göke saygıları ve korkuları vardır. Bir uygur efsanesine dayanarak yaratıldığ farz edilen türk takvimi 12 hayvanlı ve yıllı bir dönguye dayanıyor. Yılı 4 bölmüş: kış yaz yay güz demişler. Aylar birinc, ikinci, diye adlanmış, yıl 365 gun 5 küsur olarak kesinlesmisdir. Yıl başlangıcını ise 22 mart almışlar (15, s.72, 75). Tabi bu takvim bilmin yükselişine uygur kağanlığın yukselis dönemine denk geliyordur. Daha öncleri bilmin olmadığı zamanlarda insanlar hayatlarını yıllık rutine göre tayin etmişlerdir. Özelikle baharın gelişinin özel anlam yuklenmiş yıl başlanğıcı sayılmışdır. Doğu Türkistandan Balkanlara kadar Türklerin yaşadığı her yerde kutlanan bu bayram – Nevruz farklı isimler ve rituellerle yapılsa da genel olarak aynı anlamı taşımış, baharın gelişi kutlanmışdır.

1394'de Azerbaycanın Sultaniyye şehrinde dünyaya göz açan Uluğbey yaptığı ilmi deneyimleri ile türk ve dunya bilimine büyük katkılar sağladı (23, s.127-129). Uluğbeyin matamatik ve astanomiye yaptığı katkıları ve Semerkand gördüğü işleri öğrenmemizdeki en büyük kaynaklardan biri Giyaseddin Cemşid el-Kaşının babasına yazdığı mektublardır. Onun mektublarından öğrendiğimiz kadarıyla Uluğbey zamanında Semerkandda 10 binde fazla öğrenci eğitim alıyor ve Hükumdar maddi konularda da buyuk bağışlar yapıyordur.

Uluğbeyin Semerkandda Batlamyusun (m.s.2.yy) rasathanesi tipinde bir yapı inşa etmek istemesine el-Kaşı Mağara rasthanesinin (1259) daha moderin olması gerekcesiyle ikna etdirmiş ve aynı yapıda Semerkandda da bir rasathane insa edilmişdir. Rasathaneler 17.yy`a

*kimiyyeti sirasında daha öncesi prenslik döneminde de ilime deger veren, alimleri himaye eden biri olarak ve türk ilmine katkılarından dolayı Türk tarihi acisindan cok buyuk bir yere sahibdir. Onun günes yılı hesablamaları modern cihaz olcumlerinden 1 dakikalik yanılmayla hesablanmışdır.*

kadar uzay gözlem ussu niteliği taşımışıdır. Inşa etdirdiği rasathanede Gün-gece eşitliği (ekinoks) çemberi, İkili çember (gündönümü çemberi), Fahrî sekstant[8], Azimut (ufuk açısı) ve yüksekliği ölçen alet, Sinüs ve ters sinüsü belirleyen alet, Küçük halkalı küre gibi astronomik aletler bulunuyordu. 1447'de hukumdar olan Uluğbey 1449'da oğlu tarafından Mekke ziyareti sırasında öldürülmüşdür, onun ölümüyle rastahanede yıkılmışdır. Yapmış olduğu ilimi çalışmaların toplusu "Zic-i Uluğbey" eseri ondan sonrakı dönemin aranan kitablarından olmuş ve bir cok batı dillerine tercume edilmişdir (9, s.76-81).

Eski türk inancı Türklerin hayat tarzı ve yaşam bicimi ile bire bir uyuşurken sonradan kabul etdikleri dinler onların gelenek göreneklerine tamamen ters olmuşdur. Her dinden bir ortak nokta bulub onu benimsemeye çalışan türkler kendi kimliklerini zaman zaman kayb etmişler o dinle butunlesme derdinde olmuşlar. Genel olarak baktığımızda geldiğim kanatca, Türklerin baska dinleri kabulu Türkleri öz kültüründen uzaklastırmış, başkalaştırmışdır. Iyi tarafından bakıldığından ise yeni bir medeniyyet yaranmış oluyor.

Şehirler acisindan bakıldığında ise İpek yolu şehirelrin önemini artırmış mimari acidan gelişmesine ayni zamanda farklı kültürlerin etkileşimine neden olmuşdur. Batıda olmayan bir sey doğuya ulaşmış aynı zamanda da doğu kültürü batıya ulaşmışdır. Şehirlerin inşasında farklı bölgelerden sevk edilmiş mimarlar sanat incileri yaratmışlar.

Sonuc olarak İpek yolunda ticaretin özgürlügü nasil ki, huzurlu ve güvenli yollardan geciyorsa kültür ve biliminde yükselmesi icin güvenli ortam ve devlet himayesinin önemini ortaya koyar.

[8] *Bu alet meridyen doğrultusunda yerleştirilmiş ve yaklaşık 60 derecelik tuğladan yapılmış olan bir yaydı. Bu yayın çapı 40 metre civarında idi. O döneme kadar bu kadar büyük bir gözlem aleti yapılmamıştır. Bu alet yardımıyla Güneş, Ay, gezegen ve yıldızların yükseklikleri ölçülebildiği gibi önemli astronomi sabitleri de büyük duyarlılıkla ölçülebiliyordu. Bu sabitler arasında yıllık presesyon, tutulma düzleminin eğilimi ve dönencel yıl uzunluğu da bulunuyordu.*

KAYNAKÇA:

1. Ahmet Şimşek. Ipek Yolu Dinleri, A.Taşağıl. *"Ipek Yolu*", İstanbul, 2015, s.525.
2. Ahmet Hikmet Eroğlu. Ipek Yolu Coğrafyasında Egemenlik Mücadelesinde Sosyo-Kültürel Araç Olarak Din. *"Yükselen Ipek Yolu"*. 3 cilt. 2016, Türk Yurdu Yayınları, s.1152.
3. Ahmet Taşağıl. Göktürkler. Ankara,TTK, 2014, s.473.
4. Ahmet Taşağıl. Gökbörünun Izinde. İstanbul, Kronik yayın evi, 2017, s.336.
5. Ahmet Taşağıl. Kök Tengrinin Çoçukları. İstanbul, Bilge Kültür Sanat, 2015, s.368.
6. Akdes Nimet Kurat. Türk Kavimleri Ve Devletleri. Ankara, TTK, 1972, s.511.
7. Aykut Kar. Ipek Yolunun Türk Dunyasına Etkisi // *Yeditepe Üniversitesi Tarih Bölümü Araştırma Dergisi,* cilt 1, sayı 2, Haziran 2017, s.3-8.
8. Denis Sinor. Erken Iç Asya Tarihi. İstanbul, Iletişim Yayınları, 2000, s.664.
9. Emine Sonnur Özcan. Astronom-Hükümdar Uluğ Bey Ve Bilim Şehri Semerkand // *Bilim ve Teknik*, Nisan 2017, s.80-87.
10.Farük Sumer. Eski Türklerde Şehirçilik. Ankara, TTK, 1993, s.95.
11. Ibrahim Kafesoğlu. Türk Milli Kültürü. İstanbul, Ötüken Neşriyat, 2017, s.454.
12. Jean Poul Roux. Türklerin Tarihi Pasifikden Akdenize. İstanbul, Kabalci Yayin Evi, 2015, s.598.
13. L.Ligeti. Bilinmeyen Iç Asya. Ankara, TTK, 1986, s.361.
14. Nergis Biray. 12 hayvanlı Türk Takvimi - Zaman ve İnsana Hükmetmek // Türkiyyat Araştırmalar Enstitüsü Dergisi, 2009, Erzurum, sayı 39, s.671-683.
15. Osman Aydınlı. Semerkand / *Islam ansklopedisi*, 2009, 36 cilt.
16. Osman Turan. Türk Cihan Hakimiyyeti Mefkuresi Tarihi. İstanbul, Ötüken, 2009, s.560.

17. Özkan İzgi. Orta Asya Türk Tarihi Araştırmaları. Ankara, TTK, 2017, s.433.
18. Ramazan Şeşen. Buhara / *Islam ansklopedisi*, VI cilt, 1992.
19. Seda Yilmaz Vurgun. Buhara Emirliğinin İki Önemli Şehri: Buhara ve Semerkand // *Türk Tarihi Araştırmaları Dergisi*, 1 Sayı. Güz. 2016, s.138-157.
20. Tilla Deniz Baykuzu. Turfandan Kaşgara Ipek Yolu Üzerindeki Vaha Şehirleri. A.Taşağıl -*"Ipek Yolu"*. İstanbul, Pelikan, 2015, s.59-84.
21. Üçler Bulduk. Ipek yolunda kültürel etkileşim: 6-10 yüzyıllarda ticaret, siyaset ve din. Fahri Atasoy, *"İpek Yolunda Türk Kültür Mirası"*. Ankara, Türk yurdu yayınları, 2014, s.40-45.
22. Yavuz Unat. Uluğbey / *Islam ansklopedisi*, 42 cilt. 2012.

**Хаяла ГУСЕЙНОВА**
***Магистрант по специальности «История тюркского мира» Бакинского Государственного Университета***

## ШЕЛКОВАЯ ДОРОГА - ДОРОГА КУЛЬТУРЫ

Культура шелкого пути охватывает широкий круг предметов поскольку имеет широкий спектр географически регионов. В этой статье мы говорим о турках в целом и позволяем тюркской культуре коснуться шелкового пути. Шелковый путь ускорил процесс культурного обмена, внеся большой вклад в процесс распространения многих религий. Хотя распространение буддизма среди тюрков является менее болезненным, но временем оно было отклонено. Как среди других народов, так и среди тюрков также были распространены христианство и ислам.

**Khayala HUSEYNOVA**
***Master student on the specialty "History of Turkic World", Baku State University***

## SILK ROAD - ROAD OF CULTURE

Silk road is home to different cultures in the regions. In this articlr, silk road, the areas where the Turks live and the influence of

the silk road on the Turkısh culture will be discussed. The silk road has allowed many religions to spread rapidly to a wide geography. Buddhism and mania are not much spread among Turks. Only the Uygurs accepted these religions. Gokturks have stood against these religions. One of the reasons why the heavens do not accept these religions is Tonyukuk. Christianity and ıslamısm expand through the silk road. On the route along the silk road, new cities were built and these cities became architecturally prosperous and became the largest cities of the Middle Ages. The regions of the silk road became the center of education by means of Turkısh khans.

**Nasiba MİRZAYEVA**
***Erciyes Üniversitesi, Türkiye,***
***Sosyal Bilimler Enstitüsü, yüksek lisans öğrencisi***
**E-mail: nasiba.mirza.77@gmail.com**

# TİMUR DEVLETİNİN ÖZBEKLERLE İLİŞKİLERİ

*Danışman*:
Dr. Erhan YOSKA
Erciyes Üniversitesi, öğr.üyesi

*Anahtar kelimeler:* Timur devleti, Özbekler, Maveraünnehir, göçler, çöküş
*Ключевые слова:* Государство Тимуридов, узбеки, Мавераннахр, переселение, распад
*Key words:* Timurid state, Uzbeks, Maverannahr, resettlement, decline

***"Özbek" adının kökeni.*** Orta Asya'da isim vermek kutsal bir görev olarak kabul edildiğinden ismin gizemli ve ilahi anlamı ile isim verilenin geleceği bağlanmaktadır. Bu gelenek ayrı ayrı kabilelere ad verilmesi zamanı da görülebilir. Müslümanların isim verme geleneğine özel bir ilgi göstermeleri gerçekti çünkü eski geleneklere göre, isim insanın geleceğini tanımlar. Orta Asya'da, "Исми жисмига монанд" ("İsmi jismiga monand" - Onun ismi geleceğini belirler) atasözü isim verme geleneği ile ilgilidir ve söylediğimizi doğrular [5, s.31]. Orta Asya'da yaşayan halkların geleneklerine göre, kabilelerin tek bir isim altında birleşmesi güçlü bir birliğin örneği olarak görülüyordu. Bu nedenle, bölge tarihinde isimleri olmayan kabilelerin hiçbir rolü yoktu, zamanla unutuluyor ve hiç kimse tarafından hesaba alınmıyorlardı. Kabilenin adı ve yaşadığı yer, bölgenin yerli nüfusu arasındaki yeri ve politik yaşamdaki rolünü gösteriyordu.

Özbeklerin güçlü birliği, Orta Asya'nın kuzeybatısında on dördüncü yüzyılda oluşmaya başladı. Özbek tarihçisi M.Ermatov'a göre, Özbek ismi Türk kabilelerinden olan uzlardan kaynaklanmaktadır [6, s.25]. Geleneksel olarak, Özbek halkının 92 Türk kabilesinin birleşmesi sonucu oluştuğu bilinmektedir. Bu konuda bir efsane bile var-

dır. Efsaneye göre, 92 kişi Hz.Muhammed'in kafirlere karşı savaşmasına yardım etmek için Medine'ye gidiyor ve burada İslam'ı kabul ediyorlar.

Bazı araştırmacılara göre, Özbek adı, çeşitli kabileleri birleştirmiş "kendi kendinin hakimi" anlamını veren "öz" ve "bey" kelimelerinden türemiştir. 12.yüzyılda ilk kez Özbek ismi, Usama-ibn Munkiz'in "İbretler kitabı"nda Selçuklu döneminde, Musul hakimi Özbek`in adını anıyor [7, s.134]. F.Reşideddin de Eldeniz devletinin son hükümdarı Özbek (1210-1225) hakkında bilgi vermektedir. Bundan başka Harezmşah Celaleddinin Afganistan'daki askeri komutanlarından birinin adının Cahan Pehlivan Özbek Tai olduğu bilinmektedir.

Özbek olarak bilinen birliğin, Altın Orda'da hizmet eden Türk askerlerden oluştuğu tarihte bellidir. Bu askerler 1312-1341 yıllarında Batu Han'ın torunu Özbek Hanı Giyaseddin Özbek Han'ın ordusunda görev yapmışlar. Özbek Han döneminde, Özbeklerden (Uzbekan) ilk kez bahs edildiği görülmektedir. XIV.yüzyıl tarihçisi ve coğrafyacısı Hamdullah Kazvini, 1335-36 yıllarında Azerbaycan'a yaptığı ziyaretten söz ederken Özbek'in askerlerini hatırlatıyor. Kazvini burada Altın Ordu`yu "Memleketi-Uzbeki" yani Özbek devleti gibi adlandırıyor. Özbek Han`ın Altın Ordu'nun güçlü bir hakimi olmasından ziyade, Cengiz Han'ın neslinden gelmesi ona ün kazandırmıştı. Onun ikametgahı, Saray-Berke yakınlarındaki Volga sahilinde inşa edilmiş ve kabilesi, nehir kıyısının her iki tarafına yerleşmişti. Onunla gelen kabile bu bölgede yaşamaya başladığında, zamanla Özbek Han`ın ismini taşımaya başlamıştı. Bu dönemin Fars kaynaklarında Özbekler özel bir kabile olarak anılmış, Altın Ordu ise Ulusi Özbek olarak adlandırılmıştır. Ayrıca, Timur'un iktidara gelmesiyle birlikte Kazakistan'ın kuzey bölgelerinde başka bir Özbek kabilesi oluşmaya başlamıştı. Bu yüzden Özbek topluluğunun 1360'larda bir Türk kabilesi olarak kurulduğu söylenebilir. Özbek Han'ın ölümünden sonra, kabilesinin bir kısmı Sibirya yönünde Tobol kıyılarına gitmiş ve Şeybani Han`ın zamanından itibaren orada bulunan diğer Türk kabileleri ile birleşmişlerdi.

Bu birliğin başkenti sonraki zamanlarda Tümen olarak adlandırılan Çimga Tur şehri olmuştur. O zamandan itibaren Batı Sibirya, Kıpçak Çölleri, Volgaboyu araziler Arap ve Fars tarihçileri tarafından "Özbek toprakları" olarak adlandırılmaya başlamıştı. Lakin bu adlandırılma Özbek Han`ın adı olduğu için değil, tam bir birliğin adı olduğu için böyle isimlendirilmişti. XIV. yüzyılın 80'lerinden itibaren demografik durum değişmeye başladı. Bu dönemde Maveraünnehir zamanla Türk yurduna dönüşmeye başladı. Bahs edilen yıllarda Çağatay Moğolları Timur devletinin hakimiyetini kabul edip Müslüman Türk kimliğini benimsemişlerdi. 1380-90 yıllarında moğolların baskınına maruz kalan Özbekler Maveraünnehir`e göç etmeye başladılar ve onların Timur Han`a olan itaati o bölgede demografik durumun tamamen değişmesine neden oldu. Artık Ali Şir Nevai XV.yüzyılda yazmış olduğu eserlerinde Özbeklerden Maveraünnehir`de yaşayan ayrı bir etnik grup olarak bahs etmiştir.

Sibirya'nın kuzeybatısındaki Özbekler kendisini Ebu`l-Hayr Han'ın taabesi olarak kabul ediyorlardı. O, 1428-1468 yılları arasında Özbek kabilelerini birleştirmişti. Ebu`l Hayr Han'ın ölümünden sonra Özbek toplumu çökmeye ve 3 yere bölünmeye başladı: Sibirya Özbekleri, Şeybani Özbekleri ve Kazak Özbekleri. Araştırmacılara göre, Özbeklerin bir ulus olarak oluşumu iki ana aşamadan geçiyor:

1. Timur dönemi (XIV-XV.yüzyıllar) - Maveraünnehir Türklerinin ayrı bir etnomedeni, dil ve politik birlik olarak ayrılması;

2. Şeybani ve Astrahan dönemi (XVI-XVIII. yüzıllar) - Özbek Hanlığı'nın günümüzdeki şeklini alması [8].

***Timur`un ölümünden sonraki durum, Şahruh Han ve Uluğ bey dönemi.*** Siyasi ilişkilerinden önce Timurlar ve Özbekler arasında gerçekleşen evlilik diplomasisine bakmak önemlidir. Örneğin, Emir Timur zamanında Özbek Han`ın torunlarından Süyün Bey hanımla Timurun en büyük oğlu olan Cihangir Mirza evlenmişti. Uluğ Bey'in ilk hanımı Özbek Han'ın soyundan gelen Muhammed Sultani'nin kızıydı. Bu nedenle Uluğ Bey'in, babası Şahruh Han ve erkek kardeşlerinden farklı olarak "Gurkan" ünvanını taşıdığı düşünülüyor. Ebu

Said'in tahta çıkmasına yardım eden Ebu`l-Hayr Han yurduna döndüğünde Uluğ Bey'in kızı ile evlenmişti.

Timur Han'ın ölümünden sonra taht mücadelesi devleti zayıflatmıştı. Bu dönemde Özbekler, Aral Gölü'nün ve Seyhun Nehrinin kuzey kesimine dağınık şekilde yerleşmişlerdi. Onun ölümünden sonra Özbeklerin işgal ettikleri Harezmi Şah Melik, Deşti-Kıpçak`ta Altın Orda hanları arasında cereyan eden karışıklıklar nedeni ile 1413 yılının başlarında yeniden ele geçirdiklerinde Horasan ve Maverennehr hakimi Şahruh tüm dikkatini batıya çevirmişti [1, s.56]. O zaman Şapurgan ve Andhoy`u yöneten Uluğ Bey babasının iktidarı sırasında hiçbir yürüşte yer almamaktadır. Bu zaman hem Özbeklerle, hem de moğollarla olan sınır bölgesinin Uluğ Mirza'nın elinde olması belli zorluklar yaratacaktı. Çünkü ara sıra fırsat bulan Özbekler, bu sınırlardan Maveraünnehir'a akın ediyorlardı. Uluğ bey defalarca bu akışı engellemeye çalışsa da bunu başaramadı. Maveraünnehir`de barış geçerli bir süre elde edildikten sonra asıl mesele Timur'un ölümünden sonra özbekler tarafından ele geçirilen Harezmi yeniden Timurlulara geri kazandırmaktı. Bu işle Uluğ bey`in atabeyi Şah Melik ilgilenmişti. 1413'te Şahruh Han ile İskender arasında savaş başladı. Uluğ bey savaşla ilgili Fergana hakimi Mirza Ahmet ile konuşmak için onu Semarkant`a davet etse de o bu teklifi reddetmişti. Bunun yerine Mirza Ahmet`in oğlunun Semarkant`a gönderilmesi (rehin olarak) kararlaştırıldı, lakin bu da olmamıştı. Bu sebepten dolayı Uluğ bey Fergana`ya sefere çıkmış, Mirza Ahmet ise ordusu ve kulelerini bırakıp kaçmıştı. Aynı yıl Uluğ bey Sır Derya yakınlarına gitti ve bir süre orada kaldı. Bu zaman Harezmden Altın Ordu`daki olaylar hakkında haber geldiği için o geri dönmek zorunda kalmıştı. Buradan da bu seferin aslında Özbeklere karşı düzenlendiği anlaşılıyor. 1417-1418'de Uluğ bey Hocent etrafındaki Çirçik boyunda kışı geçirmişti. Onun burada savaşa hazırlandığı düşünülse de, Özbek ulusundan Edige`nin elçisi İbrahim Uluğ bey`in huzuruna gelmişti [4, s.79]. Neticede Uluğ bey Özbek şehzadelerinden birkaçını özgür bırakmış ve Semarkant`a geri dönmüştü.

Mayıs 1419'da, Urus Han'ın torunu Barak, Deşti-Kıpçak`ta iktidarı ele geçirmek için Uluğ Bey`den yardım istedi. Uluğ bey de yardım etmek amacıyla Samarkant'ı terk etti ve yolun yarısında Barak'ın zafer kazandığı haberi gelince geri dönmek zorunda kaldı. Uluğ bey, yardım isteyen Barak'tan bir tehlike beklemiyordu. Fakat bir süre sonra Barak, Cengiz Han'ın soyundan gelen Cuci neslinden olduğunu öne sürerek zamanında Timur hakimiyetine katılmış Sır Derya çevresindeki Suğnak bölgesinin hukuken babasından ona miras kaldığını iddia etmişti. Uluğ bey ona karşı bir söz söylemese de kendisi ona karşı bir ordu hazırladı ve babasını bu konuda uyardı. Şahruh Han'ın ilk başta kararsız olmasına rağmen, Semerkant`a oğlu Mirza Cukin'in yardımıyla asker gönderdi. 1427'de Çağatay'ların güçleri Özbeklerden daha fazla olsa da yenilgiye uğradılar. Bu noktada Özbekler yalnız zaferle yetinmemiş aynı zamanda Semerkant'ı da yağmalamışlardı. Bu olaydan sonra Maveraünnehir bölgesinde karışıklık çıkmış hatta Semerkant halkı, yenilginin haberini duyarak Timur askerlerine şehrin kapılarını açmak bile istememişlerdi. Ancak bu konu şehrin tanınmış ve saygın söz sahibi din adamları tarafından çözülmüştür. Uluğ bey Özbeklerle savaş halindeyken, babası Şahruh Han Meşhet şehrini ziyaret etmiş, lakin Herat'taki Ulu Camii'de suikast girişiminde bıçaklanarak yaralanmıştı. Bu nedenle Özbeklerle yapılan savaşlarla yakından ilgilenemiyor ve oğluna yardım etmek için sadece para ve asker gönderebiliyordu. Uluğ bey, babasının Horasan`dan gönderdiği yardımcı kuvvetlerle Sır Derya nehrini geçip Özbeklerden öcünü almak istese de Özbekler artık çoktan uzaklaşmış, bu sebeple de yeniden geri dönmek mecburiyetinde kalmıştı. Böyle bir durumda Şahruh Han da Herat`tan Semarkant`a yola çıkmıştı. Şahruh Semarkant`a yetişir yetişmez mağlup olmuş ordunun dağılmasını emreder, Maveraünnehir`deki tüm beyleri suçlu olarak cezalandırır. Oğlu Uluğ bey`i ise bir süre devlet işlerinden uzaklaştırıyor. Ancak bir süre sonra devlet meselelerindeki durum istikrara kavuştuğunda oğlu Uluğ bey`i yeniden idareye geri döndürüyor [1, s.67]. Uluğ bey`in Özbeklerle mücadelesindeki başarısızlığından sonra Maveraünnehir ile Deşti-Kıpçak arasındakı ilişki hakkında çok az bilgi vardır. Uluğ

bey`in Özbeklere olan yenilgisi onun sonrakı 20 yıllık hakimiyetini de etkiliyor. Artık o, hiçbir yürüşe katılmıyor ve orduları gittikleri seferlerde yeniliyordu.

Maveraünnehir`deki durum bir süre sonra yeniden karışmaya başladı. 1429'da Uluğ bey, babası Şahruh Han`a Barak'ın Sultan Mahmud Oğlan adında bir adam tarafından öldürüldüğü haberini verdi. Barak ülkesini Timurlular zamanında genişletmeye çalışmadı, sadece yürüş yaparak yağmalıyordu. İşte bu yüzden Sağanak Uluğ bey tarafından kontrol altında tutulabilmiş ancak Ebu`l-Hayr tarafından ele geçirilmişti. Ebu`l-Hayr 1428'de Sibirya'da han ilan edildi. Kısa bir süre sonra o diğer kabileleri etrafında toplayarak Sığnak, Arkuk, Suzak ve Özkent şehirlerini ele geçirdi. Özbekler Ebu`l-Hayr Han'ın yönetiminin ilk yıllarında Timurlar sınırlarına yakın olsalar bile kendilerini işgal etmemişlerdi, sadece zaman zaman kültür şehirlerine akın ediyorlardı. Bu sırada Deşti-Kıpçak'ta güçlü bir devlet yoktu ve buradaki süreçler Uluğ bey tarafından dikkatle izleniyordu. Şahruh Azerbaycan'a yaptığı seferden geri döndüğünde, Harezm'in Özbekler tarafından yağmalanması haberini duydu [2, s.146-147]. 1430-31 yıllarında Ürgenç şehri dahil, Harezm'in kuzey kısmını geçici olarak ele geçirmeyi başarmışdı. İklimin etkisinden dolayı Ebu`l-Hayr Han uzun süre burada kalamamıştı. Şahruh`un orduları onu takip etseler de yetişemeyip ülkelerine geri dönmüşler. Bu olaydan sonra Şahruh büyük oğlu Baysungur`u 1431'de Mazandaran'da kışlanmasından sonra bu bölgeye yollamıştı [1, s.75]. Ebu'l-Hayr'ın ordularından ayrılan ve "Kazak" olarak adlandırılan kabileler, zaman zaman Timur devletine saldırıyorlardı. Dört yıl önce gerçekleşen olaylar Özbekleri cesaretlendirmişti. Hazar denizinin sahilleri, Harezm ve Sır Derya gibi kültürel bölgeler çoktan göçebe kabilelerin yıkıcı akınlarına maruz kalmıştı. Özbeklerin bir kısmı Çu Nehri boyunca, diğer kısmı Astrakan'a saldırdığından Şahruh bu bölgelere beyleri ve mirzaları göndermek zorunda kalıyordu.

XV.yüzyılın 40'lı yıllarında Özbekler Sır Derya nehri boyunca görünmeye başladılar. Şahruh Han'ın vefatına kadar Sağanak, Suzak ve Özkent Ebu`l-Hayr hanın belirlediği valiler tarafından yönetiliyor-

du. Şahruh'un ölümünden sonra Uluğ bey dedesi Timur gibi Semerkant'ta yaşamayı tercih etti. Horasan'da kalmayı öyle de mümkün görmeyen Uluğ bey 1448 yılında Özbeklerin Semerkant etrafına gelip enkaz yaptığını duyarak Herat şehrine henüz babasının zamanında getirilen esnafları ve değerli eşyaları toplayıp, oğlu Abdüllatifi burada koyarak Maveraünnehir`e doğru uzaklaşmaya başladı. Uluğ bey kışı Buhara`da geçirip buradan babasının cenazesini Semarkant`e göndererek dedesinin türbesinde defn ettirdi. Uluğ bey yönetiminin son zamanlarında moğollar ve Özbekler Maveraünnehir`e akın etseler de hiç bir hücuma maaruz kalmamışlardı.

***Abdüllatif dönemi.*** Abdüllatif babasının ölümünden sonra kardeşi Abdulaziz'i öldürtmüş ve onun bütün otoritesi Maverennehr'a yerleşmişti. Hatta onun zamanında Deşti-Kıpçak`dakı Özbekler bile Maveraünnehir`e her yıl yaptıkları saldırılarını bile tekrarlaya bilmediler. Abdüllatif din ile yakından ilgili olmasına rağmen, halk ve askerlere karşı acımasızdı. Bu nedenle, hakimiyetde uzun süre kalamamış ve sui kastçılar tarafından öldürülmüştü.

***Abdullah ve Ebu Said zamanı.*** Abdüllatif'in ölümünden sonra, sui kastçılar Şahruh kolundan İbrahim Sultanın oğlu Abdullahı hapsten alıp iktidara getirdiler. Abdullah'ın Abdüllatif'in ölümünden sonra iktidara gelmesi, Ulu Bey'in çağının dönüşü oldu. Öte yandan, Abdüllatif'in ölümü duyular duyulmaz şehir hakimi Ebu Saidi hapsden özgür bıraktı. Lakin Ebu Said Semerkant'a yürümüş ama yenilmişti. Bundan sonra Türkistan (Yesi) şehrini işgal etti. Abdullah şehri kurtarmak için oranı kuşattı. Ancak, Ebu Said hile kullandı ve Özbek kıyafetleri giymiş adamları yalan haber yayarak Deşti-Kıpçak`tan Özbek hanının yardım için geldiğini söylediler. Bu hiyle işe yarıyor ve Abdullah'ın ordusu kaçarak Semarkant`e yol alıyor. Abdullah yenidən ordu toplayıp savaşmaya hazırlanıyor. Bu kez, Ebu Said, Özbek hükümdarı Ebu`l-Hayr`dan yardım istiyor. Bununla da Özbek hanı için Semerkant'ı ele geçirme fırstaı ortaya çıkmıştı. Uluğ bey'in saltanatının son döneminde, Özbekler Semerkant'a kadar olan bölgeyi yağmalaya biliyorladısa, artık bu dönemde Seyhun nehrini geçemiyorlardı. Hayrunnisa Alan eserinde Özbeklerin her yıl sadece 5 fersa-

ha kadar yaklaşdıklarını gösteriyor [3, s.232]. 1451 yılının Haziran ayında Abdullah ile Ebu`l-Hayr ve Ebu Said'in birleşmiş kuvvetleri bir araya geldi. Büyük bir ordu olmasına rağmen, Abdullah yenildi ve öldürüldü. Ebu Said tahta çıkarıldı. Onun ilk işi, iktidara geldiğinde Abdullatif'in katillerini öldürmek oldu. Ebu`l-Hayr, Uluğ bey'in kızını alarak yurduna döner. Ebu Said (1451-1469) hükümdarlığı sırasında Teymurlar batı topraklarını kaybetmeye başladılar. Emir Timur zamanında Maveraünnehir'e göç eden Özbeklerin akışı, Ebu Said döneminde daha da genişledi. Devlet yönetiminde ve orduda Özbeklerin siyasi otoritesini artması üstünlüğe yol açıyordu. Bu zaman, Ebu Said'in batıya doğru ilerlemesi başarısızlıkla neticelendi. Tarihi kaynaklarda Özbeklerin Harezm etrafında Timurlularla savaşı sırasında Ebu`l-Hatr`ın kardeşi Seyyid Yeke`nin yakalanarak tutuklandığı bilinmektedir. Bir süre sonra, Ebu Said onun Herat`dan getirilmesini emretmiş, Seyyid Yeke`yi karşılayarak ona hesiyeler taktim etmiş ve ordularının birine komutan göndermişti. Kaynaklarda Ebu Said`in onu Özbek tahtına hazırlanması gibi fikirler geçse de bunun asıl nedenleri gösterilmiyor. Fakat ihtimal ediliyor ki, Ebu Said bununla Özbekleri kendi iç işlerine meşgul olmalarını istemiş, bir süreliyine tehlikeden ülkesini korumaya çalışmıştır. Lakin Ebu Said`in vefatı ve saltanatının oğullarına kalması ile devlet artık direnç gücünü kaybetmişti.

***Hüseyin Baykara ve Badiezzaman dönemi, Teymuri devletinin sonu.*** H.Bayqara (1469-1506) ilk yıllarında hiçbir iddiada olmasa da, Merv çevresinin hakimi olan Mirza Sencer'in kızı Bike Sultan Beyüm ile evlenmiş sonraları Merv`in kontrolünü ele geçirmeye çalışsa da buna muvaffak olamamıştı. 1468 yılında o Ebu Said`in ordularını yenerek Hive ve etrafını ele geçirmeye muvaffak olmuştu. Aynı yılda zamanında Ebu Sai`in tahta çıkmasına yardımcı olmuş Özbek hanı Ebu`l-Hayr`dan yarım istedi. Lakin bu zaman Ebu`l-Hayr vefat etmiş, Özbekler arasında karışıklık hüküm sürdüğünden hiç bir yardım umudu kalmamıştı. Ebu`l-Hayr`ın ölümünden sonra Yunus han tarafından onun oğlu Şah Budak öldürülmüş, Özbekler mağlup edilerek dağıtılmıştılar. Bundan sonra Özbekler yalnız Şah Budak`ın oğlu Muhammed Şeybani`nin etrafında toplanmışlar. Hüseyn Bayka-

ra ani deyişiklikler sebebi ile Özbeklerin yardımına ihtiyaç duymadan Horasanı ele geçiriyor. Hüseyn Baykara kendi adamları ve Özbeklerden Şadıbey`in yardımı ile Amu Derya`nın Özboy bölgesinde küçük bir yeri ele geçiriyor. Lakin kısa bir süre sonra Şadıbey`den uzaklaşmış ve diğer Özbek kuvvetleri ile Mazanderanı alıyor. 1469 yılında Herata hakim olan Ebu Said Akkoyunlu Uzun Hasan'a yenilince Heratı tutmaya muvaffak olur. Neticede, 1469 yılında Maveraünnehir`e giderek adına hutbe okutuyor [1, s.105].

Bundan sonra Herat`ı kuzey Özbekleri-şeybanilerden korumak için Amu Darya nehri boyunca kulelerini güçlendiriyor. 1499 yıında Hüseyin Baykara`nın oğlu Bediüzzaman`ın babasının yerine geçmek istemesi ile Herat kuşatılıyor ve bununla da devletin otoritesi sarsılmaya başlıyor. Ara savaşları fırsat bilen Özbekler isyan çıkarıyorlar. Karışıklıklar sebebi ile isyanı önlemek mümkün olmuyor. 1500. Yıllarda Hüseyin Baykara oğullarının ona karşı eylemlerini engellemeye çalışıyordu. O, oğlu Muhammed Hüseyn`e karşı Astrabad`a yürüş ediyor. Fakat bu zaman Herat şehri Muhammed Şeybani tarafından ele geçirilerek hakimi öldürülüyor. Muhammed Şeybani bir süre şehri Babür`e bırakmak mecburiyetinde kalsa da, 1501 yılında tamamile ele geçirmeye muvaffak oluyor. 1503. yılın başlarında Şeybani han Amu Derya`nı geçerek Belh şehrini kuşatıyor. Bediüzzaman uzun zamandır rekabetde olduğu babaşı ile barışa hazırlanırken, kardeşi Babür Seri-Pul yakınlarında Özbek hanına yeniliyor [1, s.103]. Artık tamamen Maveraünnehir`e hakim olan Şeybani hana karşı savaşan Baykara hiç bir başarı kazanamadan yaşlılığı sebebinden Baba İlah adlı yerde 1506. yılında vefat ediyor. Bundan sonra hakimiyet başına oğlu Bediüzzaman geçiyor ve kardeşi Babürle beraber babasının yarım kalmış yürüşünü devam etmek isteseler de 1507 yılının 19 mayısında Bagdis yakınlığında mağlup oluyorlar [3, s.232]. Muhammed Şeybani Herata giriyor. Bununla da Timurlu devleti çöküyor. Timur sülalesinden Babür bu savaşda zafer kazanamadığı için önce Afganistan`a, sonra Hindistana gidiyor ve orada Büyük Moğol devletinin esasını koyuyor.

Göçeri Özbeklerin eline geçen o devrin medeniyyet merkezleri Babür`ün hatıratlarında söylendiği gibi "dünya görmemiş köy"e dönüyor.

"Timur devletinin Özbeklerle ilişkileri" adlı yaptığımız çalışmada göründüğü gibi, Özbeklerin Maveraünnehir`e tehdit gibi gelişimi daha Timur zamanında başlamıştı. Timur devleti kendi yükselişinden çöküşüne olan geçiti Timurun ölümünden itibaren almıştır. Taht uğruna savaşlar devlet idaresinde aksatmalara yol açarak göç kabilelerinin gelişmesi içi münbit ortamı yaratmıştır. Bu ortamda devlet idaresine kadar gelmeyi başaran özbekler gitdikce güçlenmiş ve devrin kudretli devletini yıkarak kendi devletlerini kurmaya muvaffak olmuşlardı. Bu gelişmeyi tarihin taraf değiştirmesi gibi de adlandıra biliriz. Zamanında moğolları yenen Timurlar, şimdi yüz yıl sonra viran edilmişlerdi.

KAYNAKLAR:

1. İsmail Aka. *Timur ve devleti.* Ankara: Türk Tarih Kurumu, 1991, 172 s.
2. İsmail Aka. *Mirza Şahruh ve zamanı.* Ankara: Türk Tarih Kurumu, 1994, 260 s.
3. Hayrunnisa Alan. *Bozkırdan cennet bahçesine Timurlular (1360-1506).* Ankara: Ötüken, 2007, 340 s.
4. Wilhelm Barthold. *Uluğ beg ve zamanı* (Çeviren Prof. Dr. İsmail Aka). Ankara: Türk Tarih Kurumu, 1997, 236 s.
5. Edward A. Allworth. *The modern Uzbeks: from the fourteenth century to the present*. Hoover Institution Press Publication, 1990, 424 s.
6. Эрматов М., *Этногенез и формирование предков узбекского народа*. Ташкент: Узбекистан, 1968, 199 s.
7. Усама ибн Мункыз. *Книга назидания*. Пер.Ю.И. Крачковского. М. Изд-во восточной литературы, 1958, 332 s.
8. Мингбаев Н., Норбоев Ш. *Старые проблемы новой узбекской историографии* / www.centrasia.ru/newsA.php?st=1456152120

№3(3) 2019

**Насиба МИРЗАЕВА**
***Магистрант Института Общественных Наук Университета Эрджиес, Турция***

# ОТНОШЕНИЯ ГОСУДАРСТВА ТИМУРИДОВ С УЗБЕКАМИ

Становление узбеков как народа и формирование государственных традиций в Центральной Азии имеют давнюю историю. Узбеки создали свое государство, уничтожив самое могущественное государство эпохи. За это время сражения Тимуридов и узбеков за Мавераннахр имеет особое значение. В статье будет обсуждаться история развития этих отношений.

**Nasiba MIRZAYEVA**
***Master degree İnstitute of Social Sciences of Erciyes University, Turkey***

# RELATIONS BETWEEN THE STATE OF TIMURIDS AND UZBEKS

The formation of Uzbeks as a people and the formation of state traditions in Central Asia have a long history. The Uzbeks created their own state, destroying the most powerful state of the era. During this time, the battles of the Timurid and Uzbeks for Maverannahr have a special meaning. The article will discuss the history of the development of these relations.

---

**Türkan İSMAYILOVA**
***SABAH Qrupu,***
***Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi,***
***Bakı Dövlət Universiteti***
**E-mail: ismayilzade_turkan@mail.ru**

# YELİZAVETA TÜDORA QARŞI SUİ-QƏSD PLANLARI VƏ TƏŞKİLATLANMANIN İÇ ÜZÜ

*Elmi rəhbər*:
Sayad MEHTİZADƏ
Bakı Dövlət Universitetinin tarix üzrə fəlsəfə doktoru

*Açar sözlər*: Babinqton qəsdi, sui-qəsd, Uolsingemin casus şəbəkəsi, Ridolfi, Trockmorton, Parri, Stafford, Lopez
*Ключевые слова*: Заговор Бабингтона, конспирация, Шпионская сеть Уолсингема, Рилдолф, Трокмортон, Паррн, Стаффорд, Лопес
*Keywords*: Babington Plot, conspiracy, Walsingham's Espionage network, Ridolfi, Throckmorton, Parry, Stafford, Lopez

*Giriş*. XVI əsrin ikinci yarısı - 1570-80-ci illərdə I Yelizavetaya qarşı təşkil edilmiş sui-qəsdlər tarixçilərin maraq dairəsində xüsusi yer tutur. Bu haqda araşdırmalar aparılsa da, bəzi sui-qəsdlərin gedişatında müəyyən tarixçilər arasında fikir ayrılıqları mövcuddur. Həmin dövr üçün məşhur olan casus şəbəkəsinin daxilindəki gizlilik hal-hazırda bəzi məqamların hələ də şübhəli qalmasının əsas səbəbidir. Lakin onu demək olar ki, bütün sui-qəsd planlarının məqsədi eyni idi: kraliçanı taxtdan endirmək, yerinə Şotlandiyalı Mariya Stüartı hakimiyyətə gətirmək.

1568-ci ildə Şotlandiyada baş verən hadisələrdən sonra Mariyanın İngiltərəyə qaçması nəticəsində Yelizaveta onu qəbul etmiş və nəzarət altında saxlamışdı. Uilyam Sesil (*dövlət katibi, Berli baronu – İ.T.*) tez bir zamanda anlamışdı ki, Mariyanı nə qədər yaxından təqib etsə də, onunla bağlı gələcəkdə baş verə biləcək sui-qəsd planları haqda məlumat almaq üçün casus təşkilatına ehtiyacı var və bilirdi ki, bu təşkilatı idarə edə biləcək yeganə şəxs Frensis Uolsingem

ola bilərdi (*Uolsingemi işə qəbul edən şəxs Sesil olsa da, sonradan təşkilatda fikir ayrılığı səbəbindən onlar əks qütbləri təmsil edirdilər – İ.T.*). Uolsingemin dövründə Oksford və Kembric Universitetlərindən də təşkilata agentlər qoşulmuş və onların sayı 50-ni ötüb keçmişdi. Hökumət tərəfindən kifayət qədər maddi yardım edilmədiyi zamanlarda o özü agentlərə ödəniş edirdi. Agentlərin lazimi bacarıqlara yiyələnməsi üçün casus məktəbi yaradılmışdı. Məxfi məlumatlar əldə etmək və səyahətlərlə yanaşı, onlar ismarıcların deşifrə edilməsini bacarırdılar. Kraliça Uolsingemə çox inanırdı. Yelizveta onu “Ruh” adlandırırdı. Çünki Uolsingem hər yerdə idi. O, təkcə Londonda deyil, xarici ölkələrdə baş verən hadisələrdən də xəbərdar idi (2).

Yelizavetaya qarşı təşkil olunmuş ilk sui-qəsd planlarından biri 1572-ci ildə Rildolfi sui-qəsdi olmuşdur. Robert di Ridolfi Londonda işləyirdi. O, ispan qoşunlarının Şərqi İngiltərəni işğal etməsilə, burada katolik üsyanı başlatmağı və Şotlandiya kraliçası Mariyanı xilas edərək ölkənin nüfuzlu zadəganlarından biri - Norfolk dükü Tomas Hovardla evləndirməyi planlayan Florensiyalı bankir idi. Ridolfi tez-tez Roma və Madridə gedir, II Filipp və Papa V Piydən dəstək alırdı. Uolsingemin agentləri Ridolfinin köməkçilərini tutaraq məktubları ələ keçirmiş və sui-qəsdin üstü açılmışdı (1, s.107).

Tarixçi Robert Xatçinson “Yelizavetanın casuslar təşkilatının başçısı Frensis Uolsingem və Gizli müharibə” əsərində (“*Elizabeth's Spymaster: Francis Walsingham and the Secret War”)* belə bir fikir irəli sürür ki, bəlkə də Ridolfinin əsas məqsədi Norfolkun edam olunması idi. Bu isə Ridolfinin ikili casus, yaxud da provokator agent olması ehtimalında baş verə bilərdi. Lakin bu fikir dəqiq fakta əsaslanmır (3, s.41). Sui-qəsdin aşkar edilməsindən sonra yalnız Norfolk dükünün edam olunması, Ridolfinin xaricə qaçması yuxardakı fikri inandırıcı edir. 1570-80-ci illərdə çoxlu sayda sui-qəsdi aradan qaldıran casus şəbəkəsi bu qədər zəif idimi ki, bu sui-qəsddə əsas rol oynamış Ridolfinin xaricə qaçamasının qarşısını ala bilməsin? Düşünürük ki, yox! Bunun səbəbi casus şəbəkəsinin Uolsingemin başlıca məqsədi əsas təhlükənin - Mariyanın aradan qaldırılması idi. Ona

görə hər sui-qəsd Uolsingemi öz məqsədini gerçəkləşdirməyə bir addım daha yaxınlaşdırırdı.

Uzun müddətdən sonra, 1583-cü ildə yeni bir sui-qəsd – Trokmorton planı həyata keçirilmək məqsədilə hazırlanmışdı. Bu sui-qəsd də birincidən fərqli olmayaraq, eyni məqsədi güdürdü və tez bir zamanda üstü açılmışdı. Lakin burada Mariyanın iştirakı ilə əlaqədar əsaslı dəlil tapılmamış, bu isə Mariyanı digər sui-qəsd - Babinqton planını hazırlamasına həvəsləndirmişdi. Plan həyata keçirilmədən öncə, gözlənilmədən 1585-ci ilin fevralında Parri sui-qəsdi baş verir.

1577-ci ildən Uilyam Parri Sesilə könüllü xidmət edən casus idi. Lakin katoliklər arasında ikili casusluğu hadisələrin onun xeyrinə dəyişməsinə səbəb olur (*İkili casus olmaq o dövr üçün çox təhlükəli idi və şübhəli fəaliyyətlər demək idi – İ.T.).* Katoliklərin lehinə göstərdiyi fəaliyyətlərə baxmayaraq, Yelizavetaya qarşı qurduğu plan yalnız şöhrət qazanmaq xarakteri daşıyırdı. Parrinin casus şəbəkəsində uzunmüddətli fəaliyyəti də onun günahkar olmasını şübhəli edir. Parri 3 dəfə işgəncə gördükdən sonra planı etiraf edir (*Bu isə işgəncə metodunun bəzən düzgün və ədalətli olmadığını göstərirdi – İ.T.).* Uolsingem özü də qeyd edirdi ki, Parri Fransadan qayıtdığı dövrdə heç kəslə belə bir plan haqda danışmamışdı. Bəzi fikirlərə görə bu kimi sui-qəsd görünümlü planların casus agentliyin özləri tərəfindən Yelizavetanın gözündə önəm qazanması üçün hazırlanırdı (4, s.182). Lakin hər halda Parrinin günahkar olub-olmaması dəqiqləşdirilmədən edam edilməsi casus şəbəkəsinin qüsurlarını göstərirdi.

Ridolfi və Trokmorton sui-qəsdləri Yelizavetaya qarşı təşkil olunan katolik planlar idi. Babinqton sui-qəsdi isə katolik planı olmaqla yanaşı, hökumətin yaratdığı təxribat idi (6).

Mariyanı hər yerdə təqib edən Uolsingemin ikili casusları var idi. 1585-ci ildə bunlara yenisi əlavə olundu - katolik Gilbert Gifford (*Gifford əvvəllər Mariyanın tərəfdarı olsa da, sonradan casus şəbəkəsinə qoşulmuşdu – İ.T.).* Mariyanın tərəfdarları olan Tomas Morqan və səfir Mendoza Gifforda inanmadıqları üçün məktubları şifrələyirdilər. Məktublar dəriyə sarılaraq pivə çəlləyinin tıxacı içərisində təhlükəsiz formada göndərilirdi. Mariya tərəfdarları ilə əlaqə saxlamaq üçün yeni

yol tapdığına görə, yeni sui-qəsd planları hazırlana bilərdi. Tərəflər katolik olan Antoni Babinqtonun planını qəbul edirlər (*Babinqton ilk başda Yelizavetanın öldürülməsinin tərəfdarı deyildi – İ.T.*). Uolsingem Gifford sayəsində bütün yazışmalardan xəbərdar olur. Bacarıqlı şifrə qırıcısı Tomas Filippes tərəfindən məktublar deşifrə edilir [5]. Bu şifrələrin açılması həmin dövr üçün yüksək texnolji araşdırma və şifrə analiz etmək bacarığı tələb edirdi. Bristol Universitetinin professoru Nigel Smartın düşüncəsinə görə, onun araşdırmaları II Dünya müharibəsində aparlımış şifrə analazinə bərabər tutula bilərdi.

Uolsingem Babinqtonu həbs edə bilərdi, ama bir-neçə sui-qəsdçinin edamı onu maraqlandırmırdı. O, Mariyanın planı təsdiqləyəcəyi bir məktub daha gözləyirdi. Uolsingem uzun müddət idi ki, Mariyanın edamını gözləyirdi, amma Yelizavetanın istəkli olmaması onun qarşısında maneə idi (7). Lakin tezliklə Uolsingemin istəyi gerçəkləşir.

Uolsingem məktublaşmanın davam etməsinə icazə verir, çünki o, Yelizavetanın taxtdan endirilməsi planına daha kimlərin daxil olduğunu aşkar etmək istəyirdi. Nəhayət, 1586-cı il iyulun 17-də Mariya Antoni Babinqtona məktub yazır (5). (*Bu məktub, əlbəttə ki, artıq casus şəbəkəsinin əlindən keçmişdi – İ.T.)* Tomas Filippes kriptanalist olmaqla yanaşı, həm də yazı xəttini yaxşı təqlid edirdi. O, məktubu deşifrə etdikdən sonra ismarıca əlavə mətin daxil edir. Mətndə digər plan iştirakçılarının adını ona bildirilməsi qeyd olunur (*Bu fakt Filippesin əvvəlki məktublara da müdaxilə etməsini şübhə altında qoyur – İ.T.).* Məktuba cavab olaraq, Babinqton Mariyaya altı şəxsdən ibarət olan bir qrupun Yelizavetanı öldürməyi planladığını yazır. Babinqton Uolsingemin sui-qəsddən xəbərdar olduğunu anladıqdan sonra qaçıb gizlənir (5).

Babinqtonun tapılması üçün dövrün rəssamı Robert Pike tərəfindən çəkilən rəsmlər “Axtarılır” yazısı ilə ictimai yerlərdə qoyulur. Həmin rəsmlərin çəkilməsi ilə bağlı digər iddialar isə rəsmlərin sui-qəsdçilərin özü tərəfindən gələcəkdəki şöhrətlərinə görə sifariş edilmişdi, çünki onlar sui-qəsdin həyata keçəcəyinə inanırdılar. Başqa bir iddiada isə Pikenin onları yalnız tutulduqdan sonra rəsmlərini çəkə biləcəyini deyilir (9, s.65-67).

Uolsingem məhkəmə prosesi zamanı xəstəliyinə görə xaricə getmişdi. Amma böyük ehtimalla o, məhkəmə zamanı ölkədə olmaq istəməmişdi, çünki planda iştirakına görə günahlandırılmasından qorxurdu (4, s.193).

Altı sui-qəsdçi saatlarla ağır işgəncələrə məruz qalmışdılar. İşgəncələr o qədər vəhşicəsinə aparılırdı idi ki, onlar London əhalisinə pis təsir etmişdi. Digər 7 nəfər də səhəri gün eyni işgəncələrə məruz qalaraq edam olunur (8).

Babinqton planı Mariya Stüartın qanuni cinayəti üçün bəhanə olsa da, Yelizaveta yenə də tərəddüd edirdi (8). O, 1587-ci ilə qədər nəzarət altında saxlansa da, Yelizaveta öz verdiyi qanuna qarşı çıxa bilməzdi. 1587-ci ilin fevralında Mariya edam olunur. Edamdan sonra 6 ay müddətində Mariyanın cəsədi Foteringe qalasında mumiyalanaraq saxlanılır. Nəhayət, 1587-ci il avqustın 1-də dəfn edilir. Gecikməyə nəyin səbəb olduğu bilinmir. Ehtimal olunur ki, "Yelizavetanın qəzəbi (*o edam hökmünü nə qədər gecikdirməyə çalışsa da, öz höküməti tərəfindən manipulasiya edilərək edamı təsdiq etmişdi, yəni bu qəzəb onun özünə qarşı idi - İ.T*) 6 ay davam etmiş və bundan sonra dəfn olunmasına icazə vermişdi" (10). Bu plan bəlkə də kraliça üçün ən təhlükəli sui-qəsd idi. Baxmayaraq ki, Sesil Mariyanın edamı ilə razı deyildi. Məhz burada olan fikir ayrılığı, yəni Sesilin dövlətin, Uolsingemin isə dövlətdən daha çox kraliçanın təhlükəsizliyini fikirləşməsi casus şəbəkəsi daxilində ixtilaf yaradan əsas səbəb idi (4, s.313-317).

Lakin Mariyanın ölümü Yelizavetanın hökuməti tərəfindən qəbul edilsə də, sonradan katoliklər və oğlu Kral Ceyms tərəfindən ağır tənqid edilir (4, s.199). Hətta Ceymsin hakimiyyəti dövründə uzun müddət Yelizavetanın qazandığı bütün nailiyyətlər heçə sayılmışdı.

1587-ci ildə Stafford sui-qəsd planı isə Uolsingemin saxta planlarından biri idi. Planın məqsədi 1586-cı il sui-qəsdindən sonra Yelizavetanı Mariyanın ölüm əmrini imzalatmasını razı salmaq idi. Bununla yanaşı, Parri sui-qəsdindən sonra Yelizavetanın artıq bu haqda qərar verməsi haqda fikirlər olsa da, dəqiq bir fakta əsaslanmır. Digər tərəfdən bu plan sayəsində səfir Şatonöfün bu planla əlaqəsi olmasını əsas göstərərək o, həbs edilir və Mariyanın xilas olması üçün cəhdlər, yəni

İspaniyadan kömək alınmasının qarşısı alınır. Gerçək bu idi ki, Babinqton kimi planlanmış sui-qəsddən sonra heç bir qrup belə qısa müddətə plan qura bilməzdi (3, s.49). Bu sui-qəsd göstərirdi ki, casus agentliyi yeri gəldikdə öz məqsədlərinə uyğun saxta planlar hazırlayırdı. Digər tərəfdən bu, agentliyə olan inamı azaldır və digər sui-qəsdlərlə də əlaqəsi olması barədə şübhələr yaradırdı.

1594-cü ildə Roderiqo Lopez planı öz dövrü üçün sui-qəsd kimi qəbul edilsə də, bəzi müasir tarixçilər Lopezin casus şəbəkəsinin mürəkkəb quruluşu, gizlilik və qüsurları ucbatından qurban getdiyini düşünürlər. Lopez sarayda işləyən yəhudi həkim idi, təəssüf ki, sonralar o, İngiltərə-İspanya arasında casus şəbəkəsi tərəfindən əlaqələrə cəlb edilir. Uolsingemin ölümü və casuslarının bu plandan xəbərsiz olması Lopezin həbs olunmasına və edam edilməsinə gətirib çıxarır. Bu, sui-qəsd deyildi - casus agentliyi tərəfindən yaradılmışdı. Ama bu dəfə bilərəkdən deyil, yanlışlıqla (3, s.54). Bu kimi yanlışlıqlar casus agentliyinin yüksək səviyyədə gizli fəaliyyəti ilə əlaqədar idi. Əlbəttə ki, gizlilik casusların ən vacib silahıdır. Lakin bəzi planlanmamış təbii hadisələr, məsələn, Uolsingemin ölümü gizlilik silahının özlərinə tərəf çevrilməsinə səbəb olurdu.

*Nəticə.* Sui-qəsd planlarını araşdırdıqca belə nəticəyə gəlmək olar ki, ümumilikdə casus şəbəkəsinin qüsurlarını hesaba almasaq, bu şəbəkənin öz dövrü üçün gördüyü işlər əvəzsiz olmuşdur. XVI əsrdə sui-qəsdlər digər ölkələrdə də baş verirdi və sui-qəsdlərdən qaçmaq qeyri-mümkün idi. Məsələn, Oranlı Vilhelm 1582-ci ildə ona qarşı təşkil olunan sui-qəsddən xilas olsa da, 1584-cü il sui-qəsdində öldürülmüşdü. Yaxud da Fransa kralı III Henrinin 1589-cu il, IV Henrinin 1610-cu ildə sui-qəsdində qurban getməsi buna nümunə göstərilə bilər. Halbuki yuxarda göstərilən 5 sui-qəsddən Yelizavetaya heç bir zərər dəyməmişdi. Dövr üçün hələ də müyyən müəmmalı məqamlar qalsa da (məsələn, sui-qəsdlərə casus şəbəkələrinin nə dərəcədə müdaxilə etməsi), agentliyin yeganə məqsədi dövlətin və kraliçanın təhlükəsizliyi idi. Casus agentliyinin digər əhəmiyyəti ondan ibarət idi ki, o, müasir dövrdə İngiltərədəki MI6 və Amerikadakı CİA kimi kəşfiyyat təşkilatlarının yaranmasında böyük rol oynamışdır.

ӘDӘBİYYAT:

1.Joe Levy.Tercüman: Perran Fügen Özülkü. Gizli Tarih. İstanbul, İthaki Yayınları, 2007, 274 s.
2. Walsingham Francis / Encyclopedia.com. (Online). Mənbə: https://www.encyclopedia.com/humanities/news-wires-white-papers-and-books/walsingham-francis [Baxılıb: 3.04.2019]
3. Michaela Macková. The Elizabethan Secret Service. (Online). Mənbə: https://is.muni.cz/th/fyhm1/bachelor_thesis-elizabethan_secret_service.doc [Baxılıb: 3.04.2019]
4. Hsuan-Ying Tu. The Pursuit Of God's Glory: Francis Walsingham's Espionage In Elizabethan Politics, 1568-1588. (Online). Mənbə: http://etheses.whiterose.ac.uk/5680/1/Hsuan-Ying%20Tu%20PhD%20thesis.pdf [Baxılıb: 3.04.2019]
5.The Babington Plot. Spartacus Educational. (Online). Mənbə: https://spartacus-educational.com/TUDbabingtonP.htm [Baxılıb: 3.04.2019]
6.Заговор Бабингтона. Литрес. (Online). Mənbə: https://www.e-reading.club/chapter.php/63635/11/Chernyak_-_Pyat%27_stoletiii_taiinoii_voiiny.html [Baxılıb: 3.04.2019]
7. https://librolife.ru/g4403244 [Baxılıb: 3.04.2019]
8. Заговор Бабингтона пртив Елизаветы 1ю Англия, 1687 года. – В книге: Мусский И.А. 100 Великих заговоров и переворотов. Москва: Вече, 2004 (Online). Mənbə: http://www.informaxinc.ru/lib/100/100-velikih-zagovorov-i-perevorotov/#t28 [Baxılıb: 3.04.2019]
9. Neil Younger, Journal Article: Robert Peake (C1551—1619) And The Babington Plot, The Bristish Art Journal Volume 14, No. 2 (Avqust 2013), s. 65-67.
10. Birgitte Breemerkamp, Leiden University, Article: Babington Plot: Crisis at Court. (Onine). Mənbə: https://www.researchgate.net/profile/Birgitte_Breemerkamp [Baxılıb: 3.04.2019]

**Туркян ИСМАИЛОВА**
***студентка II курса по специальности***
***"преподаватель истории" Группы "САБАХ",***
***Бакинский Государственный Университет***

# ПЛАН ПОКУШЕНИЯ НА ЕЛИЗАВЕТУ ТЮДОР И ДЕТАЛИ ЕГО ОРГАНИЗАЦИИ

Елизавета I - личность, сыгравшая важную роль в истории Великобритании в средние века. Под выражением "золотым веком Англии" историки подразумевают время правления Елизаветы I. С ее приходом к власти Англия превратилась в могущественную протестантскую страну и находилась под пристальным вниманием стран, исповедующих католицизм. В 1570-1580 годах Рилдолф, Трокмортон, Паррн, Бабингтон, Стаффорд и Лопес покушались на жизнь королевы. В статье выявляется настоящая сущность данных покушений и незаменимая роль шпионской сети, благодаря которой удалось предотвратить эти покушения. Несмотря на наличие темных пятен, связанных с деятельностью шпионской сети, неопровержимым фактом является то, что единственной ее целью было обеспечение безопасности государства и королевы.

**Turkan ISMAYILOVA**
***Baku State University,***
***SABAH groups, II year student***
***of the speciality of History teacher***

# CONSPIRACY PLANS AGAINST ELIZABETH THEODORE AND DETAILS OF PLANS

Queen Elizabeth I is an important figure in the medieval history of England. Historian depicts "The Golden age" of England during the reign of Queen Elizabeth I. After her coming to power, England became a reputable Protestant state and was also in the focus of Catholic states. Ridolfi, Throckmorton, Parry, Babington, Stafford and Lopez organized conspiracy against queen during 1570-1580s.

Main essence of these conspiracies and matchless role of a spy network in eliminating them is described in the Article. Although there are unknown points on the activity of the spy network, it is the fact that the sole purpose of the agency was to ensure the securityof the state and the queen.

**Təranə BABAZADƏ**
***Bakı Dövlət Universiteti***
***Tarix fakültəsinin bakalavr tələbəsi***
**Email: teranebabazade3@gmail.com**

# TÜRKİYƏ TÜRKLƏRİNİN MİLLİ MÜBARİZƏSİNİN TƏŞKİLATLANMA DÖVRÜ

*Elmi rəhbər*:
Səidə QULİYEVA
Bakı Dövlət Universitetinin dosenti

*Açar sözlər:* Atatürk, milli mübarizə, Osmanlı, təşkilatlanma, qurtuluş, hərbi birlik, üsyan
*Ключевые слова:* Ататюрк, национальная борьба, Османская империя, процесс организации, освобождение, военные объединения, восстания
*Key words:* Ataturk, national struggle, Ottoman, organization, liberation, military unit, rebellion

*Türk xalqının milli mücadiləsinin 100 illiyində bu tarixi prosesin tədqiqi hələ də aktuallığını qoruyur. XX əsrin əvvəlləri Türkiyə tarixinə Milli Mücadilə ilə həkk olunub. Birinci dünya müharibəsindən məğlub çıxan Osmanlı dövlətini işğalçı dövlətlər arasında paylaşdırmaq planlarının qarşısı bu mücadilənin nəticəsində alındı. Mudros müqaviləsinin acı nəticələrinin ardından düşmən qüvvələri İstanbula qoşun yeritdilər. Sazişin şərtlərini pozub, osmanlının bölüşdürülməsi ilə əlaqədar Paris sülh konfransının qərarlarına əsasən Mudros sazişi şərtlərini öz anlayışlarına uyğun həyata keçirməyə başladılar.Məqalədə yunan, ingilis, fransız və ermənilərin işğalçılıq siyasəti, türklərin torpaqlarını xilas etmək üçün təşkilatlanması əsasən Türkiyə tədqiqatçılarının əsərləri əsasında araşdırılır. Həmin mücadiləyə xalqın inandığı komandanların rəhbərliyi xalqın qələbəsi ilə başa çatır və Mustafa Kamal Paşanın rəhbərliyi ilə yeni dövlət qurulması ilə nəticələnir.*

Türkiyə xalqının təşkilatlanaraq işğalçılara qarşı mübarizə aparması və yeni bir dövlət qurması prosesi 100 illik tarixi dövründə olduğu kimi, yenə də dünya tarixində aktual mövzu olaraq tədqiq edilir.

Birinci dünya müharibəsi başa çatdıqdan sonra Parisdə toplanan beynəlxalq sülh konfransı o günlərdə açıqlanması gözlənilən Türk Sülh Müqaviləsini 1919-cu il may ayında bilinməyən bir müddətə qədər təxirə saldı. 1919-cu il mayın 15-də yunan qüvvələri Antanta dövlətlərinin qərarı ilə İzmiri işğal etdi. Milli fəlakət olaraq görülən bu hadisə Türkiyə miqyasında müdhiş bir milli çalxalanmaya səbəb oldu. 23 mayda Fateh meydanında və Sultan Əhməd məscidində türk tarixinin o dövrə qədər ən böyük mitinqləri keçirildi. Müqavimət fikri İttihad və Tərəqqi tərəfdaşlarının fikri olmaqdan çıxaraq bütün ölkəyə yayıldı (3, s.86).

1919-cu ilin ortalarına doğru Osmanlı imperiyasının qərb cəbhəsində gərgin vəziyyət yaranmışdı. Birləşmiş Krallıq atəşkəs imzalanmasından sonra ilk iş kimi Mosulu işğal etdi. Britaniyalıların bura gəlməsi Mosul vilayətində yaşayan insanları narahat etmişdi. İnsanların üsyan etməsi də özünü çox gözlətmədən başladı. 1919-cu il mayın 23-də Zaho bölgəsində Şeyx Mahmud Bərzançının rəhbərliyi ilə üsyan başladı. İngiltərə bu üsyanı yatırsa da, bu ilk üsyanın ardından 1920-ci ildə Təlafərdə yeni üsyan başladı. Ancaq ehtiyat qüvvələrinin gecikməsi nəticəsində bu üsyan ingilislər tərəfindən yatırıldı. Bu zaman dağlarda müqavimət davam edirdi. Müqavimət nəticəsində Rəvanduz azad edilmişdi. Özdəmir bəy komandanlığındakı Qüvayi-milliyə dəstəsi və kürd tayfaları ilə Mosul bölgəsinə hücuma keçmiş ingilisləri Dərbənd döyüşündə məğlub etmişdi. Özdəmir bəyin qüvvələri arasında parçalanma yaratmaq üçün sürgündə olan Şeyx Mahmud Bərzançi Mosula gətirilərək azad edilmişdi. Lakin, o, Özdəmir bəy ilə razılaşaraq, ona qoşulmuşdu. Bundan sonra üsyançılar Süleymaniyyə şəhərini azad etmişdilər. Lakin Boğazlar bölgəsində olan döyüş vəziyyəti səbəbiylə buradakı qüvvələrin çoxu o bölgəyə göndərilmiş və qalan qüvvələr ilə ingilislər arasında baş verən döyüşlər nəticəsində Özdəmir bəyin dəstəsi məğlub olmuş, Özdəmir bəy isə İrana çəkilmişdi (7, s.244). İngiltərə Mosuldan başqa İsgəndərun, Kilis, Antep, Maraş, Elbistan və Urfanı, Fransa isə Adana, Mersin və Osmaniyəni işğal etmişdi. Faktiki olaraq qərb, cənub və şərq cəbhəsində xalq işğalçılarla mübarizəyə

başlamalı oldu. Bu hərəkata hərb komandanlar, xalqın liderləri də qoşuldular.

21 iyunda Mustafa Kamal Paşa Anadoludakı mühüm hərbi birliklərin komandanları olan Kazım Qarabəkir, Refet və Əli Fuad Paşalar və Egey bölgəsindəki asayışı təmin etməkdə məsuliyyət daşıyan Rauf bəy ilə Amasiyada görüşərək, Amasiya bəyannaməsini yayımladı. Bəyannamə, milli müstəqilliyin ancaq millətin "əzm və iradəsi" ilə təmin ediləcəyini vurğulayaraq ölkə çapında bir müqavimət hərəkatının işarətini verməkdə idi. Kazım Qarabəkir Paşa rəhbərliyində Ərzurumda toplanan Şərq bölgəsi Müdafaa-i Hüquq Cəmiyyəti konqresi hərbi vəzifələrdən istefa verən Mustafa Kamalı konqres başqanı seçdi. Konqres, şərq bölgəsinin Ermənistana verilməsi ehtimalına qarşı müqavimət qərarı alarkən Türkiyənin inkişafı üçün Amerika mandatlığı fikrinə heç bir ehtimal buraxmamaqda idi. 1919-cu il sentyabrın 4-də Türkiyənin hər bir yerindən gələn nümayəndələrin iştirakı ilə Sivasda toplanan konqres ümumi seçkilər keçirilib, yeni Məbusan Məclisi quruluncaya qədər İstanbul Hökumətiylə bütün rəsmi əlaqələrin kəsilməsini qərara aldı. Ölkə miqyasında yeni bir idarəçilik və siyasi təşkilatlanma qurmaq məqsədilə Heyet-i Təmsiliyyə quruldu.

Molla Mehmed Karayılan 6400 nəfərlik dəstə ilə özündən dəfələrlə çox işğalçı qüvvələri Antepdə məğlub etdi. Fransızların bu gün Adananın qəsəbələri olan Haçin (Saimbəyli), Sis (Kozan) və Pozantıda xalqa verdikləri böyük zülmə görə onlara qarşı burada da üsyan qalxdı. Haçin qəsəbəsində fransızların qadınları qaynar suya salması xəbəri yayılandan sonra daha da şiddətlənən üsyan, 1920-ci il iyunun 2-də mərkəz olan Sis (Kozan) məntəqəsini azad edərək qələbə ilə yekunlaşdı (7, s.245).

Urfa şəhərində Əli Saip (Ursavaş) bəy tərəfindən təşkilatlandırılan türk müqaviməti də uğurla nəticələndi. Fransızlar 1920-ci il aprelin 11-də şəhəri tərk etdi. Anteplilər 1920-ci il aprelin 1-də fransızlara qarşı üsyan etsələr də, 1921-ci il fevralın 9-da təslim oldular. TBMM, Fransa ilə Ankara müqaviləsini imzalayaraq cənub cəbhəsindən çəkildi.

20 sentyabr 1919-cu ildə polkovnik-leytenant İsmayıl Haqqı, mayor İsmət, kapitan Süleyman və kapitan Mühazim bəylər Qüvayi-milliyə təşkilatı qurmaq üçün Kütahyada görüşərək, əhalidən 150 min lirə ianə topladılar. Təşkilatın rəhbəri olaraq polkovnik Nüzhət bəy təyin olundu. Əvvəlcədən bu bölgədə saxlanılan silah-sursatın ingilislərin əlinə keçməməsi üçün gecə ilə şəhər kənarına daşınaraq gizlədildi. Məscidlərdə xalq mübarizəsinə qarşı xütbələrin oxunduğu, əhalini silahı yerə buraxması təbliğatı aparıldığı üçün Qüvayi-milliyə təşkilatı bəyanat yayaraq mübarizələrini sona qədər aparacaqlarını bildirdilər. Nəticədə təkcə Kütahyada xeyli silah-sursat və pul toplanıldı (7, s.248).

Bu dövrdə yunanlar 1920-ci il avqustun 8-də Bursanı, 12-də İzniki işğal etdi. Simav bölgəsində türk qoşunlarının vəziyyəti yaxşı deyildi. Yunanlar Dəmirçini tutmuş, Simava doğru irəliləməkdə idilər. 1920-ci il sentyabrın 5-də yunanlar Gedizi tutaraq Əfəndi körpüsünə çatdılar. Buradan Kütahyaya 6 saatlıq məsafə olduğundan əhali arasında həyəcanlar başladı. Bir çox məmurun ailələri Əskişəhər və Ankaraya getdi. Bu zaman Uşak da yunanlar tərəfindən ələ keçirildi (7, s.250).

Noyabr ayında Adana, Maraş, Antep və Urfanın fransızlar tərəfindən işğalından sonra, Heyet-i Təmsiliyyə tərəfindən idarə olunan müqavimət hərəkatı başladıldı. Müqavimət gözlənilməz uğura imza ataraq, 1920-ci ilin may ayında fransızları atəşkəs imzalamağa məcbur etdi (3, s.89).

1919-ci ilin dekabr ayında keçirilən ümumi seçkilər nəticəsində son Osmanlı Məclis-i Məbusanı yaradıldı. Məclisə Anadoludan sadəcə milli mübarizə tərəfdarı olan millət vəkilləri seçildi. İki ayrı yerdən millət vəkili seçilən Mustafa Kamal Paşa haqqında çıxardılan həbs qərarı səbəbilə İstanbula getməməsinə görə, Sivas konqresi başqan vəkili olan Rauf Orbayı Məclis üzvlüyünə seçdi. 1920-ci il yanvarın 28-də Məbusan Məclisi, daha sonra Misak-i Milli adı ilə anılan "Əhd-i Milli Bəyannaməsini" qəbul etdi. Bəyannamə Mudros müqaviləsinin sərhədləri içində tam müstəqillik təmin edilincəyə qədər mübarizəni davam etdirməyi nəzərdə tuturdu (4, s.25).

1920-ci il martın 16-da Məclis-i Məbusan da daxil olmaqla, Babi-ali və bütün hökumət idarələriylə bərabər İstanbul ingilislər tərəfindən faktiki olaraq işğal edildi. Birləşmiş Krallıq qüvvələri İstanbulda olan başda Rauf bəy olmaqla, Milli Mübarizə tərəfdarı millət vəkillərini həbs etdilər. Bundan başqa teleqraf mərkəzləri də nəzarətə alınmış və rəsmi dairələr arasında əlaqə imkanı qalmamışdı. Buna görə də, Anadolu və İstanbul birgə hərəkət etməkdən məhrum qalmışdı. İstanbuldakı bu fövqəladə hal ortaya Osmanlı dövlətinin kimin idarəsi və hansı güclərin qanunlarının keçərli olduğu sualını ortaya çıxardı. Bu zaman Mustafa Kamal Paşa Təmsil Heyətinin rəhbəri olaraq bəyannamə yayımladı:

*"Bu hərəkatın Anadoluda Osmanlı qanunlarının keçərliliyinə maneə olmayacağından və hər nə formada olursa olsun görüləcək tədbirlərə Osmanlı millətinin uyqarlıq bacarığı xüsusilə diqqət çəkici olduğundan qanundan kənar heç bir iş edilməməsi və bütün vəzifələrin xüsusi diqqətli şəkildə edilməsi həyatımızın reallığıdır*" (4, s.28).

Bundan sonra Məclis 1920-ci il mart 18-də toplanaraq özünü buraxdığını açıqladı. Məclisin özünü buraxdığını açıqlaması Sultanın 1920-ci il aprelin 11-də ikinci məşrutiyyənin sona çatdığını açıqlaması ilə bir başqa məclis yaratma ehtimalını da məhv etmişdi. Eyni gün Şeyxülislam Dürrizadə Abdullahın "Padişah və Xəlifə qüvvələri xaricindəki milli qüvvələri kafir elan edən və qətllərinin vacib olduğunu" bildirən fətvası "Təqvim-i Vekayi"də yayımlandı (4, s.28).

Bu dövrdə Böyük Millət Məclisinin əsas məqsədi qarşı tərəflərə Anadolunun imzalamadığı və ya onun müzakirəsində olmayan heç bir sülhün keçərli olmadığını qəbul etdirmək idi. Bir tərəfdən də beynəlxalq dəstək və yardım axtarışına başlayaraq, Batuminin geri verilməsi qarşılığında Sovetlərdən maliyyə yardımı aldı. Həmçinin Anadolunun müxtəlif yerlərindəki intizamsız müqavimət qruplarını təşkilatlandıraraq, nizami bir ordunun qurulması üçün addımlar atıldı.

Osmanlı məclisinin ləğv edilməsi yeni bir müəssislər məclisinin çağırılmasını daha da labüd etdi. Müəssislər məclisi və seçkilərlə əlaqədar 1920-ci il mart 19-da bəyannamə yayımlandı. Sultan İstanbulda idi və məclisi Mustafa Kamal "fövqəladə səlahiyyətlərə sahib məclis"

olaraq təqdim etdi. Seçkilərin keçirilməsi üçün yayımlanan bu bəyannamə tələbilə Anadolunun hər yerində seçkilər keçirildi. 1920-ci il martın 16-dakı hücumdan qurtulan millət vəkilləri gizli yollarla Ankaraya keçdilər. Boluda, Düzcədə üsyanlar başladı və Nallıxan, Bəybazarı ətrafına yaydı. Buna görə də, seçilən bütün millət vəkillərinin gəlməsi gözlənilmədən Millət Məclisi işə başladı.

TBMM 1920-ci il aprelin 23-də Ankarada Mustafa Kamal Paşanın rəhbərliyində toplandı. Bu tarixdən etibarən İstanbul Hökumətinin təsiri İstanbul şəhəri və ətrafı ilə kifayətlənərkən, Ankarada yaradılan TBMM və hökumət faktiki olaraq Türkiyənin idarəçiliyini ələ aldı. Mustafa Kamal 1920-ci il aprelin 24-də Məclisin sədri seçildi (2, s.7).

1920-ci ildə İstiqlaliyyət müharibəsi dövründə üsyan edən və soyğunçuluqla məşğul olanları, orduya aid silah və təchizatları oğurlayanları, casusları, fərariləri, Milli mübarizəyə mane olmaq məqsədilə təbliğat aparanları mühakimə etmək üçün İstiqlal Məhkəmələri quruldu. Yenə 1921-ci ilin avqustunda Tekalif-i milliyə qərarları yayımlandı və xalq milli vəzifələrini yerinə gətirməyə təşviq edildi. Həm Anadolu torpaqlarının bir hissəsində yeni dövlət qurmağı məqsəd kimi qəbul edən, həm də səltənət və xilafət tərəfdarı olanlar tərəfindən çıxarılan üsyanlar yatırıldı. Ölkə içindəki erməni və rum azlıqların üsyanları da yatırıldı (2, s.7).

Qeyd edək ki, Mustafa Kamal Paşa ilə Amerikalı general Harbordun Sivas görüşündə də Anadolu torpaqlarında dövlət qurmağa çalışan ermənilərin xarici qüvvələr tərəfindən dəstəkləndiyi arqumentlərlə açıq şəkildə qoyulmuşdu. Bəhs olunan görüş 1919-cu il sentyabrın 20-nə təsadüf edir. Görüşdə Mustafa Kamal paşa ilə yanaşı Rauf bəy, Bəkir Sami və Rüstəm bəy də iştirak edirdilər.

Aparılan araşdırmalar göstərir ki, hadisələr Mustafa Kamal Paşa ilə general Harbordun qərarlaşdıqları şəkildə cərəyan etmişdir. Bolşevizm doktrinasının Türkiyəyə yayılmasından ehtiyat edən Amerikalı generala Mustafa Kamal paşanın cavabı da olduqca tutarlı səslənmişdir. Orada deyilirdi: *"Bolşeviklərə gəlincə bu doktrinanın bizim məmləkətimizdə heç bir şəkildə yeri ola bilməz, dinimiz, adətlərimiz və eyni*

*zamanda sosial quruluşlarımız tamamilə belə bir fikrin yer tutmasına imkan vermir. Türk millətinin bu doktrinaya heç bir meyli yoxdur”* (1, s.258).

Bununla yanaşı, Mustafa Kamal Paşa həmin dövrdə Şərq cəbhəsindəki vəziyyətlə əlaqədar – ermənilərin ərazi iddiaları və soyqırım siyasəti barədə amerikalı generala bildirmişdir ki, “*Mərkəzi İrəvan olan erməni respublikasına qarşı heç bir düşmənçilik niyyətimiz yoxdur. Erməni dövləti haqqındakı məlumatımız danışıq və dolayısı ilə əldə edilən məlumata əsaslanır. Bununla yanaşı bu yeni dövlətdə yaşayan ermənilər, öz ordu komandanlığının əmrinə əsasən müsəlmanları məhv etmək üzrə fəaliyyətdə olmaları bir həqiqətdir. Bu əmrlərin surətlərini gözümüzlə görmüşük. İrəvandakı ermənilərin müsəlmanları qırmaq istədikləri bu qanlı vəhşilik dalğasının sərhədlərimizə qədər yayılması və sərhədlərimizin o tayından çoxlu müsəlmanların bizə pənah gətirməsi bunu bir daha sübut edir. Digər tərəfdən, İrəvan hökuməti sərhədlərimizi toplardan atəşə tutaraq bizi vuruşmağa təhrik edir.... İngilislər bu vəziyyətdən istifadə edərək erməniləri müsəlmanlara qarşı qaldırdılar, hətta ermənilərin təcavüzlərini bizim üstümüzə atdılar. Qonşu dövlətə təcavüz etməkdə bizi təqsirləndirdilər. İngilislərin bütün manevrləri Qafqazı tərk etmək məcburiyyətində qaldıqlarını hiss etdikdən sonra onların zabit və nümayəndələri tərəfindən başlandı* (1, s.259).

Bu məlumatlardan da göründüyü kimi, Birinci dünya müharibəsinin sonunda fəallaşan ermənilər Şərqi Anadoluda böyük terrorçu qruplar təşkil edir, türk-müsəlmanları qətlə yetirməklə özlərinin gələcək planlarını cızırdılar. Vəziyyətin ciddiliyini nəzərə alan Osmanlı hökuməti Şərqi Anadolunun Rusiyanın nəzarəti altına keçməsindən ehtiyat edərək, qabaqlayıcı tədbirlərə əl atmalı olmuşdur. Ənvər paşa Ərzurumda erməni liderləri ilə görüşündə də bir daha əmin oldu ki, ermənilər müharibə başlanacaq təqdirdə Osmanlı dövlətini müdafiə etməyəcəklər (5, s.244).

Osmanlı hökumətinin Daxili İşlər Nazirliyindən Baş Bakanlığa göndərilmiş 1915-ci il 1 may tarixli məlumatından aydın olur ki, müharibənin davam etməsi nəticəsində mülki müsəlman əhaliyə qarşı

terror aktlarının sayı durmadan artır, qiyamçı dəstələrin əksəriyyəti isə ermənilərdən ibarətdir. Qiyamçı erməni dəstələrinin ölkənin cənub vilayətlərinə köçürülməsi tələb olunur (6, s.37). Türk-müsəlmanları kütləvi şəkildə soyqırıma məruz qoyan erməni terror təşkilatları "problemlərin həlli" üçün xarici ölkələrin parlamentlərində və ictimai təşkilatlarında da müzakirələr keçirir, dəstək axtarır, qurulacaq Türkiyə Ermənistanı üçün çalışırdılar. Daşnaksütyun və Hnçak Antanta ölkələrini məsələyə qarışmağa çağırırdılar.

1920-ci ilin sentyabrında Türk-Sovet razılaşmasından sonra, 28 oktyabrda Kazım Qarabəkir Paşa komandanlığındakı ordu 10 gün davam edən hücumun sonunda Ermənistanı mütləq məğlubiyyətə uğratdı. 1 dekabrda imzalanan Gümrü müqaviləsi ilə türk-erməni sərhədi 1878-ci il əvvəlindəki Osmanlı-rus sərhəd xəttinə çəkildi. 2 dekabrda Qızıl Ordu Ermənistanı işğal edərək müstəqil Ermənistanın varlığına son verdi (8, s.12). 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsi də iki ölkə arasında əhəmiyyət daşıyan sənədlərdəndir. Ankara hökuməti tərəfindən beynəlxalq miqyasda imzalandığı üçün diplomatiya sahəsində mühüm yer tutur. Həm hərbi əməliyyatlar və diplomatik yollarla şərq cəbhəsində sabitlik bərpa edilir.

Beləliklə, məlumatlardan da göründüyü kimi, Birinci dünya müharibəsində məğlub olan Osmanlı imperiyası çox çətin bir vəziyyətə düşmüşdü. Vaxtilə dünyada qüdrətli bir dövlət kimi tanınmış Osmanlı imperiyası əslində XIX əsrin axırlarında süqut dövrünü yaşayırdı. Üstəlik XX əsrin əvvəllərində özünü göstərən ictimai-siyasi vəziyyət imperiyanı müstəmləkə olmağa doğru sürükləyirdi. Siyasi və iqtisadi həyatda özünü göstərən böhran və tənəzzül həyatın bütün sahələrinə sirayət edirdi. Digər tərəfdən, müharibədəki ağır məğlubiyyət, ərazilərin dövrün böyük dövlətləri tərəfindən işğal zonasına bölünməsi, hakimiyyətə gələn yeni hökumətin isə ingilislərin əlində oyuncaq rejimə çevrilməsi xalqın dərin narazılığı ilə müşayiət olunur, düşmənə qarşı müqavimət cəbhələri artıq formalaşaraq getdikcə daha da kəskin şəkil alırdı.

1922-ci ildə səltənətin qaldırılması və monarxiyadan respublikaya keçidin rəsmiləşdirilməsindən sonra türk xalqının tarixində Os-

manlı dövrü bitmiş, dövlət mövcudiyyətinə cümhuriyyət olaraq davam etmişdir. Şəksiz, bu cümhuriyyətin yaranması rahat yollardan keçmədi. Mudros müqaviləsinin şərtləri ilə razılaşmayan türk xalqı birlik olub, düşmən qüvvələrinə qarşı milli mücadilə savaşına girdilər. Türk xalqının əgər ən böyük uğuru birləşə bilmələridirsə, digər ardıcıl uğurları düzgün təşkilatlana bilmələri olmuşdur. Həmin mücadiləyədə xalqın inandığı komandanların rəhbərliyi xalqın qələbəsi ilə başa çatır və Mustafa Kamal Paşanın rəhbərliyi ilə yeni dövlət qurulması ilə nəticələnir. Düşünürük ki, Türkiyə dövləti uğura məhkumdur. Çünki bu dövrdə o, yalniz müstəmləkəçilik məqsədi daşımayan dövlətlərdən texniki, sənaye, iqtisadi yardım qəbul edir, azlıqlara siyasi hakimiyyət və sosial balansı pozacaq imtiyazlar verilməsinin əleyhinə idi, daima hökumətin gördüyü işləri nəzarətdə saxlaması və ən əsası onun ətrafında yumruğ halında türk xalqının toplaşması, sözsüz ki qələbənin özü deməkdir.

ƏDƏBİYYAT:

1. Baykara Hüseyin. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992, s.276.
2. Baykara Tuncer. Milli Mücadele. Ankara: Kültür ve Turizm Bakanlığı Yayınevi, 1985, s.110+ 8 (şəkil).
3. Celal Erikan. Kurtuluş Savaşımızın tarihi. İstanbul: Gerçek Yayınevi, 1989, s.400.
4. Fethi Nacı. Atatürkün temel görüşleri. İstanbul: Gerçek Yayınevi, 1992.
5. Karaca Ali. Türkiyede Ermeniler için Yapılan Reformlar ve Tehcir Gerçeği (1878-1915). İstanbul, 2003, s.244.
6. Sonyel S.Yeni Belgelerin işıği altında Ermeni Tehcirləri. Ankara: TTK Yayınları, 1972, s.303.
7. Tevetoğlu Fethi. Türkiyede Sosyalist ve Komunist Faliyetler. Ankara: Ayyılıdız Matbaası, 1967, s.244.
8. Yücel Özkaya. Milli Mücadelede Atatürk ve Basın (1919-1921). Ankara: TTK Basımevi, 1989, s.12

**Тарана БАБАЗАДЕ**
***Студентка 4 курса***
***Исторического факультета***
***Бакинского Государственного Университета***

# ПЕРИОД ОРГАНИЗАЦИИ НАЦИОНАЛЬНОЙ БОРЬБЫ ТУРЕЦКОГО НАРОДА

Изучение исторического процесса 100-летней национальной борьбы турецкого народа все еще актуально. Начало XX века высечено с в историю как период национальной борьбой турецкого народа. В результате Мудросского соглашении вражеские войска были направлены в Стамбул, нарушав условия Соглашения в соответствии с решением Парижской мирной конференции о распределении Османской империи. В статье исследуется оккупационная политика греков, англичан, французов и армян, а также организованность турецкого народа против оккупантов но основе работ турецких исследователей. Борьба заканчивается победой народа и созданием государства под руководством Мустафы Камаля-паши.

**Tarana BABAZADE**
***4th year Student of the***
***Faculty of History of Baku State University***

# THE PERIOD OF THE ORGANIZATION OF THE NATIONAL STRUGGLE OF TURKISH PEOPLE

İn the 100 years of anniversary of Turkish people do national struggle, investigation of this historical accident is still actual. The beginning of 20$^{th}$ century is engraved in Turkish history as national struggle. As a result of the struggle,the plans to distribute the Ottoman empire which last WWI between occuping powers were defeated.After sufferable result of the contract of Mudros,the army of enemies attached to Istanbul, According to decision of the confrance of Paris to devide Ottoman empire,they applied the conditions of the contract of Mudros for the their interests. This struggle, resulted with the win of the army people believe and win of the people of Ottoman,with

leadership of M.K.Ataturk new country was established.In the article, occupition strategg of Greek, English, French, Armenian peoples, to rescue their land of Turkish are searched by the works of Turkish researchers.

**Fatimə CARULLAZADƏ**
***Bakı Dövlət Universiteti***
***Tarix fakültəsinin II kurs "SABAH" qrupu tələbəsi***
**E-mail: carullazadefatime8@gmail.com**

# TÜRKİYƏ-AVROPA İTTIFAQI MÜNASİBƏTLƏRİNDƏ "KİPR MƏSƏLƏSİ"

*Elmi rəhbər*:
Sevinc RUİNTƏN
Bakı Dövlət Universitetinin dosenti

*Açar sözlər*: Kipr Respublikası, Şimali Kipr Türk Çümhuriyyəti, Kipr problemi, Türkiyə - Aİ münasibətləri, Annan planı
*Ключевые слова*: Республика Кипр, Турецкая Республика Северного Кипра, Кипрская проблема, Отношения Турция – ЕС, План Аннана
*Key words*: Republic of Cyprus, Northern Cyprus Turkish Republic, Cyprus problem, Turkey - EU relations, Annan plan

*Kipr problemi, Türkiyə ilə Avropa ittifaqı arasındakı münasibətlərə təsir edən başlıca amillərdəndir. Problem 1950-ci ildən etibarən beynəlxalq arenada müzakirə mövzusuna çevrilsə də, adada 70 ilə yaxındır ki, gedən nüfus mübarizəsi öz həllini indiyə qədər tapmamaqdadır Avropa İttifaqı, Rum tərəfinin üzvlük müraciətindən sonra məsələnin həllində əsas rol oynamağa başlamışdır. Adanın geostrateji mövqeyinə görə xüsusi önəm kəsb etməsi məsələnin həllində tərəflərin çox olmasına gətirib çıxarır ki, bu da problemin davam etməsində əsas səbəblərdən biri kimi göstərilir. Rum tərəfinin bütün adanı təmsilən Birliyə üzv olması, iki icma arasındakı gərginliyi daha da artırır. Məhz bu andan etibarən Türkiyənin Avropa İttifaqına üzvlük müzakirələrində Kipr problemi, başlıca şərt kimi qarşısına qoyulmaqdadır. Məqalədə problemin iki icma arasındakı yaratdığı gərginliklərdən, məsələnin həlli yolunda edilən təkliflərdən və məsələnin Türkiyə-Avropa İttifaqı arasındakı münasibətlərə göstərdiyi təsirlərdən bəhs edilir.*




*Giriş.* Kipr özünün geosiyasi mövqeyi sayəsində Yaxın Şərq və Şərqi Aralıq dənizini, Süveyş kanalını, həmin regiondan keçən bütün dəniz və hava yollarını nəzarətində saxlamaq imkanına malikdir. Türkiyə - Aİ münasibətlərinə nəzər yetirdikdə (1; 2), Kipr məsələsinin bu münasibətlərdə yer almasının, Yunanıstanın 1980-cı ildə Birliyə tam üzv olaraq qəbulu ilə başlandığını demək olar. 1571-ci ildən Osmanlının hakimiyyətində olan ada, 1914-cü ildə İngiltərəyə ilhaq edilərək, Lozanna müqaviləsi ilə tamamilə hakimiyyəti altına girmiş oldu (3). II dünya müharibəsindən sonra xarici siyasətində dəyişiklik edərək hakimiyyətindəki torpaqlardan çəkilməyə başlayan İngiltərə, Kipr adasının geostrateji cəhətdən üstünlüklərini nəzərə alaraq, burada fərqli mövqe tutdu: Türkiyə ilə Yunanıstanı qarşı-qarşıya qoyaraq öz hakimiyyətini saxlamağa cəhd etdi. 1959-cu ildə imzalanan Sürix və London müqavilələri ilə müstəqil Kipr Respublikasının yaranmasına qərar verildi. Müqavilələrdən biri də Təminat sazişi (11 fevral 1959, Sürix sazişi, (4)) idi ki, Bu sazişdən narazı qalan Rumlar yenə də adadakı Türk azlığına qarşı mübarizəni davam etdirirdilər. 1974-cü ildə Yunanıstan tərəfindən həyata keçirilən çevrilişdən sonra Türkiyə təminatçı dövlət statusundan istifadə edərək adaya hərbi müdaxilə etdi. BMT ilə aparılan xoş məramlı danışıqlardan heç bir nəticənin əldə edilmədiyini

görən kiprli türklər, 15 noyabr 1983-cü ildə Şimali Kipr Türk Cümhuriyyətini (KKTC) elan etdilər (5).

*Yeni dünya düzəni şəraitində Aİ-Türkiyə münasibətlərində "Kipr məsələsi"*. KKTC müstəqilliyini elan etsə də, Türkiyə xaricində heç bir dövlət tərəfindən rəsmi olaraq tanınmamaqdadır. Cümhuriyyət elan edildikdən sonra iki icmanın liderləri arasında tez-tez müzakirələr aparılmasına baxmayaraq, problemin həlli istiqamətində atılan bütün addımlar nəticəsiz qalmışdır (6; 7). 1990-ci illərdən etibarən Yunanıstanda baş verən siyasi və ictimai, eyni zamanda Beynəlxalq aləmdəki köklü dəyişikliklər nəticəsində, həm Türk-Yunan münasibətləri, həm də Kipr məsələsi baxımından yeni bir mərhələyə qədəm qoyulmuşdur. Hər nə qədər beynəlxalq arenada geosiyasi vəziyyət dəyişsə də, qərb dövlətlərinin Kipr məsələsinə münasibətdə mövqeyi dəyişməz qalmaqdadır. BMT-nin Təhlükəsizlik Şurası 12 mart 1990-cı ildə Kiprdə iki icmanın bərabərliyini və məsələnin həllinin iki tərəfin də siyasi iradəsinə dayandığını vurğulayan 649 saylı qərar qəbul etmiş, Türk tərəfi bu qərarla razılaşsa da, Rum tərəfi etirazını bildirmişdi (8, s.358).

İkitərəfli görüşmələrin yenidən başlatılması üçün müzakirələrin davam etdiyi bir vaxtda Rum tərəfi 4 iyul 1990-cı ildə Kipr adına Avropa İttifaqına üzv olmaq üçün müraciət etdi. Türkiyə və KKTC belə bir müraciətin hüquqi cəhətdən Aİ tərəfindən qəbul olunmağı bir yana, ciddiyə alınmaması belə, məsələnin həllində problemlərə yol açacağını açıq şəkildə göstərdi. Yeni dünya düzəninin formalaşması ilə güclü bir mövqeyə yüksələn Aİ, Kiprin geosiyasi mövqeyini nəzərə alaraq beynəlxalq aləmin dəyişməyən qanunu olan ümumi maraqların üstünlüyünü əsas götürərək Kiprin Birliyə üzv olması haqda müraciətini müsbət qarşıladı. GKRY-nin (Güney Kıprıs Rum Yönetimi/Cənubi Kipr Rum Respublikası) Avropa İttifaqına üzvlük müraciəti iqtisadi olmaqdan daha çox siyasi idi. Bunlara aşağıdakıları misal göstərmək olar:

- Türkiyəni, Avropa İttifaqı üzvü olan dövlətin torpağını işğal edən ölkə vəziyyətinə salaraq Türkiyə ilə Aİ-nı qarşı-qarşıya qoymaq;
- İttifaqa tam üzv olmaqla birlikdə, İttifaqda Yunanıstanla birlikdə iki səsə malik olmaq;

- Türk xalqını, bütün adanın qanuni hökuməti olaraq "azlıq statusuna" düşürərək bərabərlik prinsipini aradan qaldırmaq;
- Aİ-dən alacağı yardımla iqtisadiyyatını daha da gücləndirən GKRY, embarqoların köməyi ilə KKTC-ni təzyiq altına alaraq Cənubi Kipri bir mərkəz halına gətirmək;
- Təminat və ittifaq sazişlərini etibarsız hala gətirərək, Lozannada Türk-Yunan arasında qurulan və 1960-cı il müqavilələri ilə təsis edilən tarazlığı Yunanıstanın lehinə dəyişdirmək;
- Enozis istəklərinə nail olmaq.

Bu zaman Yunanıstan-Türkiyə münasibətləri ən enişli-yoxuşlu dövrünü yaşayırdı. Cənubi Kiprdə hərbi kontingentin Yunanıstan hesabına artırılması beynəlxalq aləmdə yaranan vəziyyəti daha gərginləşdirmişdi.

6 mart 1995-ci il tarixi həm Türkiyə, həm də KKTC üçün Aİ ilə münasibətdə yeni mərhələnin başlanğıcını qoydu. Türkiyə-Aİ ortaqlıq şurasının iclasında Gömrük Birliyi qərarı imzalandı. Yalnız Kipr problemini Türkiyənin Gömrük Birliyinə alınmasının baş şərti olaraq qarşısına qoymuşdular. GKRY-nin Aİ ilə müzakirələrə başlamasına Türkiyənin müdaxilə etmədiyi təqdirdə Yunanıstan Türkiyənin Gömrük Birliyinə üzv olmasına qarşı verdiyi vetonu qaldıracaqdı. Bu zaman Türkiyə, verilən tələblərlə əlaqədar sözlü olaraq razılıq verməsinin ardından Kipr problemi haqqında rəsmi mövqeyini bildirən bəyanat vermişdi (9):

- Bir həll olsa belə Kipr, Türkiyədən əvvəl İttifaqa girə bilməz ki, bu Türkiyə ilə Yunanıstan arasındakı bərabərliyi pozmaq deməkdir;
- Türkiyə hələ də 1960-cı il andlaşmalarını və bundan yaranan haqlarını qorumağa davam edir;
- Daxilində Yunanıstanın olduğu İttifaq Kipr probleminə həll ola bilməz.

Bunlara baxmayaraq iqtisadi təsirləri bir yana, siyasi baxımdan mənfi özəlliklərə sahib olan Gömrük Birliyi müqaviləsi imzalanmış və bu anlaşmanın 16-cı maddəsinə əsasən Türkiyə 2001-ci ilə qədər GKRY ilə ticarət müqaviləsi imzalamaq məcburiyyətində qoyulmuşdur. Türkiyə

Birliyə üzv olmadan Gömrük Birliyinə qoşulan ilk və tək dövlət idi. Nəticədə, 1995-ci ildə Cənubi Kiprin namizədlik statusu qəbul olunmuşdur.

Türkiyə-Aİ münasibətləri 1997-ci ildə yeni bir mərhələyə qədəm qoydu. Kipr rumlarının Rusiyadan S-300 yerdən havaya 150 km mənzilli raket almaq haqda müqaviləyə imza atması, beynəlxalq arenanı və Türk-yunan münasibətlərini qarışdırdı (10, s.128). Türkiyə Kipr türklərinin təhlükəsizliyini təhdid edəcək hər hansı bir cəhdə göz yummayacağını açıqladı. Fevral ayında Avropa İttifaqı Kiprin birliyə tam üzvlüyünə dair münasibətinə qarşı mövqeyini dəyişdirərək, üzvlük üçün adada siyasi bir həllin şərt olduğunu açıqladı. İlk dəfə olaraq tam üzvlük mövzusunda kirpli türklərin də diqqətə alınmasının vacib olduğunu bildirdi. Lakin 1997-ci ildə Lüksemburqda keçirilən sammitdə Kipr adına qəbul edilən qərarlar türk toplumu üçün müsbət nəticələnmədi. Bu zaman Türkiyəni maraqlandıran kiprlə bağlı qəbul edilən 10-12-ci maddələr idi ki, burada Kiprin 2004-cü ilə qədər 9 namizəd dövlət ilə birlikdə İttifaqa qəbul ediləcəyi və 28 fevral 2003-cü ilə qədər bir nəticəyə gəlinməzsə, Rum tərəfinin Kipr adına bir dəfəlik üzv ola biləcəyi bildirilmişdir (10, s.129).




Bununla da Avropa İttifaqı özünün qərəzli və Yunanıstanın tələblərinə uyğun bir davranış nümayiş etdirərək Beynəlxalq aləmdəki mü-

qavilələri yox saymışdır. Halbuki, Təminat sazişinə əsasən, Kipr Respublikası tamamilə və ya qismən də olsa heç bir dövlətlə siyasi, iqtisadi birliyə gedə bilməzdi (11, s.1505). Buna görə də adanın Yunanıstan, Türkiyə və ya Aİ ilə birləşməsi mümkünsüz idi. Bununla da 14 dekabr 1997-ci ildə Türkiyə, Avropa İttifaqı ilə siyasi dialoqunu tam dayandırdığını elan etdi. Lüksemburq sammiti nəinki Avropa İttifaqı ilə münasibətləri, həmçinin Kipr siyasətini də dəyişdirdi. Bütünlükdə adanı təmsilən GKRY-nin Avropa İttifaqı üzvü statusunu qazanması, KKTC üzərində sadəcə öz nəzarətini deyil, eyni zamanda Aİ-nin nəzarətini də təmin edəcəkdi. Beləliklə, KKTC torpaqları iqtisadi və siyasi baxımdan Avropa İttifaqının nüfus dairəsinə girmiş olurdu. İki il davam edən bu vəziyyətə nümayiş edən İttifaq, Türkiyə ilə münasibətlərini qaydaya salmaq adına 1999-cu ildə Helsinki Zirvəsində mühüm qərarlar qəbul etdi. Sammitdə Türkiyənin namizədlik statusunun qəbul edilməsi ilk əvvəllər böyük sevinclə qarşılansa da, müddəalara diqqət yetirdikdə GKRY-nin üzvlüyü önündə yaranan əngəllərin aradan qaldırılması ilə Yunanıstanın zirvədə ən qazanclı çıxan tərəf olduğu aydın olur. Yunanıstan Aİ-də təmsil edilməsini bir avantaj olaraq istifadə etməkdə idi, halbuki, 1980-cı ildə İttifaqa üzv olarkən Türkiyə ilə olan problemlərini Birliyin müzakirə mövzusu etməyəcəyini bəyan etmişdi.

*Annan Planı.* 2002-ci ilə qədər keçirilən görüşlərin bir nəticə vermədiyini görən BMT-nin Baş Katibi Kofi Annan tarixə "Annan Planı" olaraq düşən bir plan təklif etdi (12). Plan hər 2 tərəf üçün ideal olmasa da, bu günə qədər məsələnin həllində təklif olunan ən alternativ variant idi (13; 14; 15, s.862]. Bununla əlaqədar görüşmələrin ilk iki ilində məsələnin həlli yolunda irəliləyişin olmamasında Rum tərəfinin Aİ-yə üzvlüklərini təminat altına almalarının, Aİ-nin təmsilçilərin onlara verdiyi şərtsiz dəstəyin böyük təsiri var idi. Görüşmələrdə ən mübahisəli məsələ sərhədlərin Rumların xeyrinə dəyişdirilməsi idi. Yalnız Rum tərəfi təminatçı dövlət statusunun davam etməsi, adada az sayda da olsa Türk hərbi qüvvələrinin yerləşməsinə icazə verilməsi kimi müddəaları əsas götürərək planı qəbul edilməz sayırdı.

Planın adanın cənubunda və şimalında referendum qərarına əsasən qəbul olunmasına qərar verilmiş və 2004-ci ildə keçirilən referendum-

da KKTC-də 64,91% plana "hə" cavabı verilsə də, GKRY-də 75,83% səslə plana "yox" cavabı verildi (16). Beynəlxalq arenada dəstəklənən bir planın Rumlar tərəfindən rədd edilməsinə baxmayaraq, GKRY cəmi bir həftə sonda Birliyə üzv olaraq qəbul edildi və, beləliklə, Rumlar bir daha Avropa İttifaqının ikili standartlarından və BMT-dən gələn dəstəklərdən sonuna qədər istifadə etmiş oldular. Planın Rumlar tərəfindən rədd edilməsindən sonra beynəlxalq arenada KKTC-yə qarşı embarqoların ləğv olunması və bəzi güzəştlər edilə biləcəyi güman olunsa da, Rumların qarşıdurması nəticəsində mümkün olmadı. Avropa İttifaqına üzv olan GKRY-nin üzvlük sənədində, Avropa Parlamentində ada üçün ayrılan 6 yerin dördü Rumlar, ikisi isə Türklər üçün nəzərdə tutulsa da, o zamanın Rum lideri olan Tasos Papadopulos, türklərə verilən bu haqqı ələ keçirmiş və bütün yerlər rumlar tərəfindən doldurulmuşdur (17).

Problemin həlli istiqamətində uğursuz cəhdlərin ardından, növbəti addımlar atılmaqdadır. Belə addımlardan növbətisi, 2014-cü il fevral ayının 11-də Kiprin Türk və Rum liderlərinin "Ortak Açıklama Mutabakatı" (Joint Declaration on Cyprus) oldu (18; 19). Razılaşmaya görə, hər iki qurucu dövlətin liderləri siyasi bərabərliyə malik olacaq, birinin digəri üzərində hakimiyyətinin olmayacağı federativ dövlət qurulmasını mümkün hesab etdiklərini bəyan etmişlər. Onların fikrinə görə, yaradılacaq federativ dövlət BMT üzvü digər dövlətlərin sahib olduğu tam suverenliyə sahib olmalıdır. Bundan əlavə, qurulacaq federativ dövlət həmçinin AB-nin üzvü olacaq, vahid beynəlxalq kimlik (Kipr vətəndaşı) və vahid vətəndaşlığa (Kipr Türk dövlətinin və ya Kipr Rum dövlətinin vətəndaşlığına) sahib olmalıdırlar. Ortaq açıqlamadan sonra ilk 6 ay ərzində tərəflər yalnız əsas məsələlər haqda razılıq əldə edilməsinə cəhd göstərmiş, 2014-cü ilin sentyabr ayında BMT Baş Katibinin Kipr məsələsi üzrə xüsusi nümayəndəsi Espen Bart Eydenin iştirakı ilə keçirilən görüşdə, danışıqlarda növbəti mərhələyə keçdiklərini, digər məsələlərlə bağlı müzakirələr aparıldığını, danışıqların sürətləndirilməsinə niyyətli olduqlarını bildirdilər (18). Lakin bütün bunlara baxmayaraq, problemin həlli istiqamətində hələ də əməli nəticəsi olan qərarlar qəbul edilməyib.

*Nəticə.* Məsələnin həllində ən alternativ variant sayılan Annan planının rədd olunmasından sonra, bu günə qədər iki tərəf arasında müzakirələr aparılsa da, problemin həlli yolunda bir nəticəyə gəlmək mümkün olmamışdır. Kipr məsələsi Türkiyə ilə Avropa İttifaqı arasında 90-cı illərin sonlarından etibarən siyasi problem halına gələrək, Rum tərəfinin Birliyə üzv olmasından sonra Türkiyənin üzvlüyü üçün başlıca şərt olmuşdur. Avropa İttifaqı adanın geostrateji üstünlüyünü nəzərə alaraq, GKRY-ni Kipr adına İttifaqa qəbul etməsi ilə beynəlxalq arenada Türkiyəyə qarşı mövqeyini göstərmiş oldu. Bundan əlavə, Türkiyənin üzvlük müzakirələrinin davam etməsi, 2006-cı ildə Gömrük Birliyi müqaviləsindən qaynaqlanan öhdəliklərini Cənubi Kiprə qarşı yerinə yetirməməsi səbəbilə dayandırılmışdır. Problemin həll olunmamasında əsas amil olaraq, Dünya dövlətlərinin regionda ümumi maraqlarının kəsişdiyini göstərə bilərik. Son olaraq əgər, gələcəkdə məsələnin həllinə dair yol tapılsa belə, 2 millətin zorla bir araya gətirilərək dövlət şəklində birləşməsi deyil, 2 toplumun bərabər şəkildə yaşayışının təmin edilməsi başlıca şərt olmalıdır. Münaqişə xarakterinə görə ilk baxışda göründüyü kimi sadəcə etnik münaqişə deyil, həm də geopolitik münaqişə olduğundan həlli bir o qədər də asan deyildir.

## ƏDƏBİYYAT:

1. Türkiye – AB ilişkilerinin Tarihçesi / TC Dışişleri Bakanlığı Avrupa Birliği Başkanlığının internet sayfası. (Online). Mənbə: https://www.ab.gov.tr/111.html [Baxılıb: 5.04.2019].
2. Barış Özdal. Avrupa Güvenlik ve Savunma Politikası'nın Türkiye – AB İlişkilerine Etkileri. 1. Baskı: Şubat 2005, *Bursa: Alfa Akademi Basım Yayım*, 2005, 242 s.
3. Tarihi Perspektif / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası (Online). Mənbə: https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/2004-2016 [Baxılıb: 5.04.2019].
4. Garanti Antlaşması (Zurih, 11 Şubat 1959) / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası (Online). Mənbə:

https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/1960-1963 [Baxılıb: 5.04.2019].
5. KKTC'nin Kuruluş Bildirgesi / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası (Online.) Mənbə: https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/1963-1983 [Baxılıb: 5.04.2019].
6. 1990 Yılında Sunulan 27 Sayfalık Türk Önerileri / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası (Online.) Mənbə: https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/1983-2004 [Baxılıb: 5.04.2019].
7. BM Genel Sekreteri Butros Gali Tarafından Hazırlanan "Gali Haritası" ve "Gali Çözüm Planı" (Fikirler Dizisi). Gali Planı (15 Temmuz 1992) / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası (Online.) Mənbə: https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/1983-2004 [Baxılıb: 5.04.2019].
8. Nesrin Demir. Avrupa Birliği-Türkiye ilişkilerinde Kıbrıs sorunu // Fırat Ünuversitesi Sosyal Bilimler dergisi, 2005, cild-5. sayı 1, s.347-367. (Online). Mənbə: http://web.firat.edu.tr/sosyalbil/dergi/arsiv/cilt15/sayi1/347-367.pdf [Baxılıb: 5.04.2019].
9. Soyalp Tamçelik. Kıbrıs ve Avrupa birliği ilişkileri-II // Sosyal Bilimler Dergisi, s.188-215 (Online). Mənbə: http://journals.manas.edu.kg/mjsr/oldarchives/Vol03_Issue06_2003/297.pdf [Baxılıb: 5.04.2019].
10. Hasan Duran.BM ve AB Çerçevesinde Kıbrıs sorununa Güncel bir bakış // Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, ağustos 2008, sayı:21,s.119-140. (Online) Mənbə: http://dergipark.gov.tr/download/article-file/55464 [Baxılıb: 5.04.2019]
11. Müge Vatansever.Kıbrıs sorununun Tarihi gelişimi // Dokuz Eylül Üniversitesi Hukuk Fakultesi Dergisi, 2012, cild: 12, Özel s., s.1487-1530. (Online). Mənbə: kipr\9-mugevatansever.pdf [Baxılıb: 5.04.2019].

12. BM Kapsamlı Çözüm Planı (Annan Planı) / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası. (Online). Mənbə: https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/1983-2004 [Baxılıb: 5.04.2019].
13. Annan Planı ile kurulması öngörülen Kıbrıs Türk Kurucu Devleti'nin Anayasası / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası. (Online). Mənbə: https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/1983-2004 [Baxılıb: 5.04.2019].
14. Annan Planı ile kurulması öngörülen Kıbrıs Rum Kurucu Devleti'nin Anayasası / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası. (Online). Mənbə: https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/1983-2004 [Baxılıb: 5.04.2019].
15. Uluslararası boyutlarıyla Kıbrıs meselesi ve geleceği sempozyumu: bildiriler; Gazimağusa, 11-13 Aralık 2014 / yay.haz.: Duygu Türker. – Ankara: AKDTYK Atatürk Araştırma Merkezi, 2016. (Online). Mənbə: http://www.atam.gov.tr/wp-content/uploads/KIBRIS-MESELESI-BILDIRILER.pdf [Baxılıb: 5.04.2019].
16. Kıbrıs Meselesinin Tarihçesi, BM Müzakerelerinin Başlangıcı // (Online). Mənbə: http://www.mfa.gov.tr/kibris-meselesinin-tarihcesi_-bm-muzakerelerinin-baslangici.tr.mfa [Baxılıb: 5.04.2019].
17. Nejat Çoğal. Avrupa parlamentosu seçimleri ve Kıbrıs // (Online). Mənbə: https://www.turkocaklari.org.tr/yazar/nejat-cogal/avrupa-parlamentosu-secimleri-ve-kibris-1165 [Baxılıb: 5.04.2019].
18. Müzakerelerin 2014 Yılında Yeniden Başlama Süreci / Kuzey Kıprıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı resmi sayfası. (Online). Mənbə: https://www.kktcb.org/tr/belgeler/kibris-sorunu/2004-2016 [Baxılıb: 5.04.2019].
19. 11 February 2014 Joint Declaration on Cyprus / UN Cyprus Talks, News, 11 February 2014. (Online). Mənbə: http://www.uncyprustalks.org/11-february-2014-joint-declaration-on-cyprus/ [Baxılıb: 5.04.2019].

19. Atilla Sandıklı. Kıbrıs sorunu kapsamında AB-Türkiye ilişkileri // Bilge Strateji, 2011, Cilt 2, Sayı 4, s.1-17. (Online). Mənbə: http://dergipark.gov.tr/download/article-file/43503 [Baxılıb: 5.04.2019].

**Фатима ДЖАРУЛЛАЗАДЕ**
***Студентка II курса группы «САБАХ» исторического факультета Бакинского Государственного Университета***

## «КИПРСКИЙ ВОПРОС» В ОТНОШЕНИЯХ ТУРЦИИ И ЕВРОПЕЙСКОГО СОЮЗА

Все еще продолжающаяся Кипрская проблема является одним из факторов, влияющих на отношения Турции с Европейским Союзом. С 1950 года проблема стала темой обсуждения на международной арене. Проблема приобрела острый характер после обращения греков-киприотов о вступлении в ЕС. Особая важность геостратегического положения острова привела к разрастанию проблемы, что, в свою очередь, стало камнем преткновения в разрешении проблемы. Членство греков-киприотов в ЕС от имени всего острова еще более обострило напряженность между двумя общинами. И именно поэтому при обсуждении вопроса о вступлении Турции в Европейский Союз проблема греков-киприотов ставится во главу угла. В статье говорится о напряженности, которую создала проблема между двумя общинами, предложениях, выдвинутых для разрешения проблемы, и о влиянии проблемы на отношении Турции с Европейским Союзом.

**Fatima JARULLAZADE**
***2nd year student of theFakulty of History of Baku State University***

## “CYPRUS ISSUE” IN TURKISH AND EUROPEAN UNION RELATIONS”

The ongoing Cyprus problem today is one of the main factors affecting relations between Turkey and the European Union. The

problem has been the subject of debate on the international arena since 1950. The European Union has begun to play a key role in resolving the issue after membership application of the Greece population of Cyprus side in 1990. The Island's assuming a special importance due to its geostrategic position leads to a large number of problems and it is shown as one of the main reasons in unsolved problem. The Greek side's joining the union on behalf of the entire island has increased the tension between the two communities. Cyprus problem is set as a main term in membership debates of Turkey to EU. Articles deals with tensions between two communities due to problem, suggestions for settlement of problem and effects to the relations between Turkey and EU.

**Lalə ƏSGƏROVA**
***Bakı Dövlət Universiteti,***
***tarix müəllimi ixtisası üzrə IV kurs tələbəsi***
**E-mail: laleesgerova98@gmail.com**

# "İTTİHAD VƏ TƏRƏQQİ" CƏMİYYƏTİ: YARANMASI, İDEOLOGİYASI VƏ FƏALİYYƏTİ

*Elmi rəhbər*:
Sevinc RUİNTƏN
Bakı Dövlət Universitetinin dosenti

*Açar sözlər:* İttihad və Tərəqqi, Gənc türklər, Osmanlı imperiyası, türkçülük, osmançılıq
*Ключевые слова*: Единение и Прогресс, младотурки, Османская империя, тюркизм, османизм
*Keywords*: Union and Progress, Young Turks, Ottoman Empire, turkism, osmanism

XIX əsrin sonlarına doğru Osmanlının modernləşməsi şəklində dövləti xilas etmək düşüncəsi ilə ortaya çıxan fikir cərəyanlarından biri türkçülük, siyasi dərnəklərdən biri də "İttihad və Tərəqqi Cəmiyyəti" idi. Türkçülük II Məşrutiyyət dövründə, xüsusilə də, Balkan müharibələrinin nəticəsində "İttihad və Tərəqqinin" idarə heyətinin bu cərəyana üstünlük verməsi ilə yüksəlişə keçmişdi. "İttihad və Tərəqqi Cəmiyyəti" 1889-cu ildə Məktəbi-Tibbiyə-Şahanə məktəbinin 5 tələbəsi – türk Şərafəddin, alban İbrahim Temo, kürd İshaq Sükuti və Abdulla Cövdət tərəfindən "İttihadi-Osmani" ("Osman Birliyi") adı ilə gizli bir təşkilat olaraq qurulmuşdu. Həmin ildən Cəmiyyətin Parisdə fransız dilində "Məşvərət" qəzeti və türk dilində "Şurai-Ümmət" qəzetinin nəşr edilməsinə başlanmışdı (1, s.75; 2). Siyasi güc olaraq "İttihad və Tərəqqi" 1906-cı ildə Selanikdə III Ordudakı bəzi hərbiçilərin təşəbbüsü ilə qurulan "Osmanlı Hürriyyət Cəmiyyəti"nin 1907-ci ildə Parisdəki təşkilat ilə birləşməsi nəticəsində ortaya çıxdı. Qısa bir zaman "Tərəqqi və İttihad" adı ilə tanınan təşkilat daha sonra "İttihad və Tərəqqi Cəmiyyəti" olaraq adlandırılmağa başlandı (3,

s.217). Qeyd edək ki, təşkilatın təsisçiləri sırasında Azərbaycan milli hərəkatının görkəmli xadimi Əli bəy Hüseynzadə də vardı (1, s.75).

"İttihad və Tərəqqi"nin proqramındakı türkçülük və türk birliyi ideyası o dövrdə çar Rusiyasının əsarəti altında olan türk xalqlarının, o cümlədən Cənubi Qafqaz türklərinin "İttihad və Tərəqqi"yə rəğbətini artırmışdı (4, s.87-89). Gizli şəkildə olsa da, bu ərazilərdə "İttihad və Tərəqqi"nin şöbələri yaranmışdı (4, s.87-89). Türk xalqlarının Rusiya imperiyasına qarşı milli azadlıq hərəkatının əsas mərkəzlərindən biri olan Azərbaycanda "İttihad və Tərəqqi"yə rəğbət daha güclü idi. Azərbaycanda "İttihad və Tərəqqi"çilər, hətta özlərinin müstəqil partiyalarını da yaratmışdılar (1, s.71-75).

İlk illərdə daha çox təhsillə bağlı iclaslar keçirməyə üstünlük verən Cəmiyyət, baş verən hadisələrin təsiri ilə 1895-ci ildən daha sərt tədbirlərə keçdi. 30 sentyabr 1895-ci ildə paytaxtda təşkil edilən böyük erməni yürüşündə müsəlman əhalinin ermənilərə müqavimət göstərməsi ilə 3 gün davam edən qanlı toqquşmalar yaşandı. Bu hadisələr nəticəsində hərəkətə keçən Cəmiyyətin üzvləri baş verənlərin dövlət idarəçiliyinin zəifliyindən qaynaqlandığını, xalqın dövlətə qarşı hərəkətə keçməsinin vacib olduğunu bildirdilər (4, s.57).

1908-ci ilin iyulunda "Gənc türklər" inqilabına rəhbərlik edən "İttihad və Tərəqqi" partiyası Sultan II Əbdülhəmidin ləğv etdiyi 1876-cı il konstitusiyasının bərpa olunduğunu elan etdi. İyulun 24-də İstanbul əhalisi və şəhər qarnizonunun üsyançılar tərəfinə keçməsi nəticəsində sultan konstitusiyanın bərpa olunması və məclisin çağırılması haqqında fərman verməyə məcbur oldu. Lakin məclisdə çoxluq təşkil edən "Gənc türklər" inqilab ərəfəsində verdikləri vədlərinə (aqrar islahat, fəhlələrin vəziyyətini yaxşılaşdırmaq, milli azlıqlara muxtariyyət vermək, xarici kapitalı məhdudlaşdırmaq və s.) əməl etmədiklərindən onların sosial bazaları getdikcə zəiflədi. Bundan istifadə edən II Əbdülhəmid tərəfdarları 1909-cu il aprelin 13-də hərbi çevriliş edib hakimiyyəti ələ keçirdilər. Makedoniyaya qaçmış gənc türklər əsas dayaqları olan "Hərəkət ordusu"nu İstanbul üzərinə yeritdilər. 1909-cu il aprelin 27-də II Əbdülhəmid taxtdan salındı. İttihadçılar hakimiyyəti ələ aldıqdan sonra ölkədə sultan hakimiyyəti dövrün-

dəkindən fərqlənməyən, daha sərt siyasət yürütməyə davam etdilər (1, s.75). Nəticədə, Avropa dövlətlərində "Osmanlıda vəziyyətin düzəlməsi üçün böyük dövlətlərin birbaşa nəzarəti ilə islahatların keçirilməsinin zəruri olduğu" haqda fikirlər irəli sürülməyə başlandı (4, s.330). Birinci dünya müharibəsi (1914-18) ərəfəsində hakimiyyəti ələ alan "İttihad və Tərəqqi" Türkiyənin milli mənafelərini Almaniyanın maraqlarına tabe etdirərək, ölkəni müharibəyə sürüklədi ki, bu da 1918-ci ildə Türkiyənin məğlubiyyəti ilə sona çatdı.

Çoxmillətli bir imperatorluğun son dövrlərində ortaya çıxan və dövləti içində olduğu çətin vəziyyətdən çıxararaq bir bütün şəklində varlığını davam etdirə bilməsini təmin etmək məqsədi ilə yaradılmış "İttihad və Tərəqqi" Cəmiyyətinin ideologiyasını dəqiq bir şəkildə müəyyən etmək heç də asan deyildir. Cəmiyyətin tərkibində türk milliyyətçiliyi çərçivəsində düşünənlərin sayı çox idi. Ancaq osmanlıcı və qərbçi ziyalılarla bərabər az sayda da olsa, qeyri-müsəlman ünsürlər də var idi. Bunları da nəzərə alaraq, cəmiyyətin fikir quruluşunu dəqiq sərhədləri olmamaqla 2 mərhələyə ayırmaq mümkündür:

*Birincisi,* 1889-cu ildən Balkan müharibələrinə qədər olan Osmanlı birliyinin müdafiə edildiyi dövr,

*İkincisi,* Balkan müharibələri və sonrasında cəmiyyətdə türkçülük fikrinin ön plana çıxmağa başladığı dövr.

Fəaliyyətinin birinci mərhələsində "İttihad və Tərəqqi" türk millətçiliyi fikrini açıqça ortaya qoymaqdan çəkinmiş, hakimiyyətə müxalif mövqeyini daha güclü təşkil edə bilməsi üçün qeyri-müsəlman təbəələrlə də işbirliyi qurmağa cəhd etmiş, din və məzhəb fərqi qoymadan, Osmanlı dövləti daxilindəki bütün toplumları osmançılıq düşüncəsi ətrafında birləşdirmək, 1876-cı il konstitusiyasını bərpa etməyə çalışmışdı. Bu dövrdə cəmiyyətin daxili və xarici təşkilatlarında qeyri-müsəlman adları da görmək mümkündür. Bunların arasında Əhməd Rza bəylə bərabər "Məşvərət" qəzetini nəşr etdirən Albert Fau (yəhudi), Aristidi Paşa (rum) və Halil Ganemi (Livanlı) qeyd etmək olar. Cəmiyyətin ilk hədəfi 1908-ci ildə nəşr olunan "Təşkilati-Daxiliyyə Nizamnaməsi"nin birinci maddəsində də görünür. Nizamnamədə cəmiyyətin məqsədinin vətəni düşmüş olduğu çətin vəziyyət-

dən xilas etmək, milləti də içində olduğu zülm və əsarətdən çıxararaq insanlığa yaraşan bir şəkildə yaşatmaq olduğu qeyd olunur. Lakin, cəmiyyətin səylərinə baxmayaraq, qismən də olsa əldə olunmuş işbirliyi çox sürməmiş, "hürriyyətin elanından sonra yəhudi camaatı "İttihad və Tərəqqi"nin yanında yer almağa davam etsə də, rum və erməni camaatları ilə ittihadçıların yolları ayrılmışdır" (5, s.181).

"İttihad və Tərəqqi"nin fəaliyyətində ikinci mərhələyə keçid, yəni osmanlıçılıq ideyasından uzaqlaşıb türkçülük ideyasına yönəlmə İkinci Məşrutiyyət sonrasında ön plana çıxdı. Bu tarixdən sonra Balkanlarda, Ərəb torpaqlarında, hətta Anadoluda ermənilərin ardı-arası kəsilməyən üsyanları və təşkilatlanmasından sonra, ittihadçılar ən azından tamamilə türk və müsəlmanların hakim olduğu Anadolu torpaqlarında, mərkəzi Osmanlı dövlətini bir arada tutmaq üçün mübarizəyə başladılar. Bu siyasət dəyişikliyi cəmiyyətin mətbuat qanadındakı mühüm nümayəndələrindən olan Yalçın Hüseyn Cahid (6) tərəfindən aşağıdakı kimi izah edilmişdir: "İttihad və Tərəqqi osmanlıçılıqdan imtina etmişdir. Türkçülükdən başqa davam etdirəcəyi bir yol yoxdur. Əgər türklər imperiyanı idarə etməyə davam eədcəklərsə, türkçülük tək seçimdir. Etnik ayrı-seçkilik cərəyanları səbəbindən İttihad və Tərəqqi Adəmi-mərkəziyyət idarəsinə tamamilə qarşıdır. Çünki bu Midilli, Saqqız və digər adaları Rumların qucağına atmaq mənasına gəlir".

Cəmiyyətdə türkçülük ideologiyasının ön plana çıxdığı dövrdə "İttihad və Tərəqqi" əhalinin əksəriyyətinin xristian olduğu Balkanlarda müsəlman türklərin yaşadığı Albaniyada, Orta Şərq torpaqlarında Osmanlı bütövlüyünü qorumaq üçün lazım olan hallarda, hər cür iğtişaşı zor gücü ilə yatırtmaq yolunu seçdi; etnik və dini qruplara arxalanan və onların adını daşıyan siyasi dərnəklərin açılmasına icazə vermədi. Ancaq bu siyasət də üsyanların çıxmasının qarşısını ala bilmədi. Belə olduqda, türkləşmə siyasətinin Gökalpın ortaya qoyduğu üsul ilə həll edilməsinə çalışıldı. Milli şüuru oyandırmaq üçün ilk növbədə Balkanlar olmaqla, bir sıra yerlərdə Cəmiyyətin fikirlərini əks etdirən təhsil ocaqları açıldı, yeni nəsillərin türkçülük milli şüuru ilə yetişdirilməsinə çalışıldı. Həmçinin, milli burjuaziyanın ortaya çıxa bilməsi üçün milli iqtisadiyyat siyasəti həyata keçirildi (7, s.106).

Ümumilikdə, Birinci dünya müharibəsi illərində erməni hadisələri, 1916-cı ildə Şərif Hüseynin "ingilislərin dəstəyi ilə" üsyanı, nəhayət, 1917-ci ildə Çar Rusiyasının dağılması ilə "İttihad və Tərəqqi" içərisində türkçülük düşüncəsi hakim mövqe əldə etdi. Birinci dünya müharibəsindəki məğlubiyyət və öndə gedən liderlərin xaricə mühacirət etmələri ilə bərabər "İttihad və Tərəqqi" cəmiyyətdə siyasi təsirini itirdi. Türkçülük mirası və bu uğurda etdikləri isə Anadolu torpaqlarında Milli Mübarizə dövründə və sonrasında öz varlığını davam etdirdi.

Bütün bu deyilənləri ümumiləşdirərək, belə bir nəticəyə gəlmək mümkündür ki, tarixşünaslıqda və cəmiyyətdə XIX əsin sonunda Osmanlıda mövcud rejimə və qaydalara qarşı yaradılmış, Osmanlı-Türk modernləşməsinin təməl daşlarından biri olan Gənc türklər hərəkatı və "İttihad və Tərəqqi" cəmiyyətinə münasibət birmənalı deyil (**7,** s.85-109). 600 illik imperiyanın süqutunda günahlandırılmaqdan tutmuş, hətta bu günkü Türkiyənin "baş ağrısına" çevrilməsinə cəhd göstərilən "osmanlının qeyri-müsəlman təbəələri əleyhinə siyasət yürütməsində" və bir çox digər məsələlərdə günahlandırılırlar. Lakin bütün bunlarla yanaşı, Cəmiyyətin 1923-cü ildə Türkiyə Cümhuriyyətinin elan edilməsindən sonra Mustafa Kamal Atatürk və onun silahdaşlarının həyata keçirdikləri bir çox islahatların, həmçinin Cümhuriyyət Xalq Partiyasının fəaliyyətinin əsas istiqamətlərinin də əsasını qoymuş olduğu da bildirilir. Bütün bunlar Cəmiyyətin yaradılması, fəaliyyəti və Türkiyə tarixindəki yerinin öyrənilməsini, hadisələrin baş verdiyi dövrün reallıqları baxımından dəyərləndirilməsi məsələsini zəruri edir.

ƏDƏBİYYAT:

1. İttihad və Tərəqqi / Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. 2-ci cild. Bakı, Lider nəşriyyat, 2005, s.472. (Online). Mənbə: http:// www.ebooks.az/view/VbAXx0H9.pdf [Baxılıb: 1 aprel 2019].

2. İttihat ve Terakki Cemiyeti / İslam Aksiklopedisi. Cilt: 23, s.476-484. (Online). Mənbə: https://islamansiklopedisi.org.tr/ittihat-ve-terakki-cemiyeti [Baxılıb: 1 aprel 2019].
3. Yaşar Semiz. İttihat ve Terakki Cemiyeti ve türkçülük politikası // Türkiyat araşdırmaları dergisi, 2014, Sayı 35, s.217-244. (Online). Mənbə: https://dergipark.org.tr/download/article-file/165248 [Baxılıb: 1 aprel 2019].
4. Алиев Г.З. Турция в период правления младотурок (1908-1918). М., Изд. «Наука», 1972., с.397.
5. Halil Şimşek. İttihat ve Terakki Yöntemi ve Gayrimüslim Cemaatlar // Çanakkale Araştırmaları Türk Yıllığı, Yıl:12, Bahar 2014, Sayı: 16, s.181-192. (Online). Mənbə: https://dergipark.org.tr/download/article-file/45141 [Baxılıb: 1 aprel 2019].
6. Yalçın Hüseyin Çahit (1875-1957) / İslam Emsiklopedisi, 43.Cilt. İstanbul, TDV Yayınları, 2013, 622 s. (Online). Mənbə: https://islamansiklopedisi.org.tr/yalcin-huseyin-cahit [Baxılıb: 1 aprel 2019].
7. Ozan Örmeci. Jön Türkler ve İttihat ve Terakki // Tarih Okulu, Eylül-Aralık 2010, Sayı VIII, s.95-109. (Online). Mənbə: http://www.johschool.com/Makaleler/1080404143_12-%20Ozan.pdf [Baxılıb: 1 aprel 2019].
8. Feroz Ahmad. İttihat ve Terakki (1908-1914). Tərc. Nuran Yavuz. Beşinci Basım. İstanbul, Kaynak Yayınları, 1999, s.255. (Online). Mənbə: https://media.turuz.com/Turkologi/2017/2798-Ittihad_Tereqqi-1908-1914-Feroz_Ahmad-2005-256s.pdf [Baxılıb: 1 aprel 2019].
9. Dr.Taner Aslan. İttihâd-ı Osmanî’den Osmanlı İttihat ve Terakki Cemiyeti’ne // Bilig Türk Dünyası Sosyal Bilimler Dergisi, 2008, Sayı: 47, s.79-120. (Online). Mənbə: http://www.acarindex.com/dosyalar/makale/acarindex-1423873221.pdf [Baxılıb: 1 aprel 2019].
10. Sina Akşin. 100 Soruda Jön Türkler ve İttihat ve Terakki. İstanbul, Gerçek Yayınevi, 1980, s.286. (Online). Mənbə:

https://www.academia.edu/27166788/Sina_Ak%C5%9Fin_-_100_Soruda_J%C3%B6n_T%C3%BCrkler_ve_%C4%B0ttihat_ve_Terakki [Baxılıb: 1 aprel 2019].

**Лала АСКЕРОВА**
***Студентка II курса исторического факультета Бакинского Государственного Университета***

## ОБЩЕСТВО "ИТТИХАД И ПРОГРЕСС": ИСТОКИ, ИДЕОЛОГИЯ И ДЕЯТЕЛЬНОСТЬ

В данной работе речь идет о исторической хронике создания Общества Османского Единства и его преобразования в Комитет Османского Союза и Прогресса. Общество было образовано как протест против абсолютного правления Абдульхамида II, под влиянием новых прогрессивных течений с Запада. Оно организовывается впервые в Медицинской Военной Академии. Активными членами его были в основном молодые студенты. Один из лидеров - Ахмет Риза находился в то время в Париже. Вскоре в Париж был направлен Др.Назим. В результате их совместной работы общество получает новое название - Общество Единства и Прогресса. В статье рассказывается о формирование, идеологии и деятельности общества.

**Lala ASKEROVA**
***2nd year Student of the Faculty of History of Baku State University***

## COMMITTEE OF "UNİON AND PROGRESS": ORIGINS, IDEOLOGY AND ACTIVITY

This study deals with the historical events which occurred following the establishment of “İttihadı Osmani Cemiyeti” (“The Committee of Ottoman Union”) until the time the committee was named “İttihat ve Terakki” (“The Committee of Union and Progress”). “İttihad-ı Osmani Cemiyeti” (“The Committee of Ottoman Union”) came into existence as a reaction to the absolute rule of Abdülhamit II and under the influence of the new developments in the West. The

Committee was originally established in the Military Medical Academy, and it quickly became popular among the students of the Academy. Its members were mostly young people. The Committee was then named “Terakki ve İttihat” (“Progress and Union”) as a result of the collaborative work of Ahmet Rıza in Paris and Dr.Nazım, whom the Committee had sent to Europe. The article describes the formation, ideology and activities of the society.

---

**Fatma Betül AYDEMİR**
***Bakü Devlet Üniversitesi,***
***"Türk dünyası tarihi" ihtisası üzere Yüksek Lisans öğrencisi***
**E-mail: betul270@hotmail.com**

# SOVYET DÖNEMİNE KADAR KAZAK TARİHİNE BAKIŞ

*Danışman*:
Sevinç RUİNTAN
Bakü Devlet Üniversitesinin doçenti

*Anahtar kelimeler*: Kazaklar, kazak cüzları, Rus yöneyimi, 1917 devrimleri, Alaş Orda, kazak aydınları
*Ключевые слова*: казахи, казахские жузы, российское правление, революции 1917 года, Алаш Орда, казахская интеллигенция
*Keywords*: Kazakh's, Kazakh zhuzes, Russian rule, revolutions of 1917, Alash Orda, Kazakh intellectuals

*Kazaklar 15.yy'dan itibaren Kerey ve Janıbek önderliğinde hanlığı kurmuşlar ve tarih sahnesinde yer almaya başlamışlardır. Uzun süre geçmeden Ulu, Orta ve Küçük cüz olmak üzere üç farklı gruba ayrılmışlar ve birbirleriyle savaştıkları için Rusya'nın terkibine girmeleri kolay olmuştur. Rusya hakimiyetine girdikten sonra göçebe yaşayan Kazak topraklarına Rus, Ukrayna ve Belarus'tan topraksız çiftçilerin yerleştirilmesine başlanmıştır. Rusyanın bu siyaseti Kazaklar tarafından hoş karşılanmamış, bir çok isyan düzenlemişlerdir. Lakin yinede Rus hakimiyetinden kurtulamamışlardır. 1917'deki devrimlerden sonra Sovyetler Birliği kurulduğunda Sovyet hakimiyeti altında kalmışlardır. Bu çalışmada Kazakların Sovyet dönemine kadar olan tarihlerinden kısaca bahsedilmektedir.*

Moğol hakimiyeti döneminde (XIII. ve XIV.yy) şimdiki Kazakların yaşadığı bölgeler Çağatay ulusunun bir parçasıydı. 1465'te Özbek hanı Ebulhayr'ın tebaasından yaklaşık 200 bin kişilik bir grup Kerey ve Janibek liderliğinde Moğolistan'da Esenbuğaya bağlı topraklara göç ettiler. Esenbuğa da onları Çu ve Talas nehirleri arasındaki bölgeye yerleştirdi. Bu ayrılan Özbekler, serbest, özgür, cesur

anlamına gelen Kazak Özbek veya Kazak olarak anılmaya başladılar. Zamanla Kazakların yaşam tarzı göçebe olarak devam etti. Kerey ve Janıbek, Kazak hanlığının kurucuları olarak bilinmektedir ancak ilk önce gücü elinde toplayan Kerey olarak bilinmektedir (1, s.497). XV.yy sonu ve XVI.yy'da Kazaklar Hazar denizinin doğusu ve Aral denizinin kuzeyinden İrtiş ırmağı ve Altay dağlarının batı yamaçlarına kadar uzanan bir göçebe imparatorluğu kurdular. Genellikle Kasım Han dönemi bağımsız bir Kazak hanlığının başlangıcı olarak görülür (1511-1518/1521). Kasım Han'ın peşpeşe hüküm süren üç oğlu döneminde (1518/1521-1550) hanın otoritesinin zayıflamasıyla birlikte Kazak kabilelerinin *cüz* (ulu, orta ve küçük), yada Orda denilen üç ana gruba bölünme sürecide başlamış oldu (8, C.8, s.651). Rus kaynaklarında cüzler ile ilgili bilgilere XVIII.yy ilk yarısında rastlanır. Buna göre cüzler Deşt-i Kıpçak'ın farklı bölgelerinde bulunmaktadır. Bu cüzler zaman-zaman birleşseler de, sonra hep ayrıldılar. Rusyanın Orta Asyaya yayılma politikası ise I.Petro döneminde başladı. I.Petro'nun "Kazaklar Orta Asya kapısını açmamız için önemli bir anahtardır" demesiyle birlikte Rusyanın Orta Asyaya yöneldiği anlaşılmaktadır (7, s.691). 1731'de Küçük Cüz (10, s.386), 1738'de Orta Cüz ve Büyük Cüz (11, s.614-618) Rusyanın terkibine girdi. Rusya ele geçirilen bu bölgelerde askeri kaleler inşa etmeye başladı. 1740'a gelindiğinde Kazakların hepsi Rusyanın hakimiyetine girmiş durumdaydı. Ancak Rus hakimiyeti altında cüzler varlığını bir süre daha devam ettirdi. Kazak bozkırlarıyla ilgili ilk reformlar 1786'da başladı. Bu reformlarda Rus yönetimi Hanları doğrudan kendisine bağlayarak hanların siyasi yetkilerini kısıtladı. Bu süreçte kurulan Rus tahkimatları nedeniyle Kazak göçerler otlaklarından mahrum kaldılar. Rus hakimiyetine girdiklerinde Orta ve Küçük cüzlerin hanları doğrudan Rus yönetimi tarafından atanıyordu. Ulu Cüz ise Taşkent'e bağlıydı. Kazaklar kaybettikleri toprakları tekrar almak için Pugaçev isyanına (1773-1775) katıldılar. 1783-1797 arasında Küçük Cüzdeki bir takım ayaklanmalardan sonra Rusya Kazak hanlarının hala sahip olduğu özerkliklerini sonlandırmaya karar verdi.




1822'de Orta Cüz, 1824'de Küçük Cüz, 1848'de Ulu Cüz resmen ortadan kaldırıldı (12, s.34). Rusya, Küçük Cüzde hanlık makamını ortadan kaldırdıktan sonra farklı bir sistem uygulamaya koydu Küçük cüz'ü doğu, batı, orta olmak üzere üçe ayırdı ve her birinin başına Rusya tarafından seçilecek sultan-valiler atadı. Bu yöneticilerin yanına da rus askeri birlikleri vererek kontrol altına almaya çalıştı. Orta cüz ve Küçük cüz'üde iç ve dış bölgeler olarak ikiye ayırdı ve bunların başına kazakların kendilerinin seçtiği, ancak Rusya'nın onayladığı bir sultan atayarak yönetimde değişiklikler yaptı. Bir süre sonra Rus denetimi sıkılaşmaya başlayınca ayaklanmalar başladı. Küçük Cüz'de Sultan Karatay (1805-1816), Sultan Arin Gazi (1815-1821), Orta Cüzde Sultan Kenesarı (1837-1847) ayaklanmaları bunlardan bazılarıdır. Ruslar bu isyanları bastırdılar ve 1868'de Bozkır bölgesi İdari kanunları çıkarıldı. Bu kanunlar neticesinde Kazak toprakları devlet malı sayıldı. Kazak bozkırları dört eyalete (oblast) ayrıldı. Bunlar Turgay,

Akmolinsk (Akmola), Semipalatinsk (Semey), Semireçye olarak bölündü. Ural ve Turgay eyaletleri Orenburg Genel Valiliğine, Akmola ve Semey eyaletleri ise Batı Sibirya Genel valiliğine bağlandı. Bu eyaletlerin başınada Rus askeri valileri görevlendirildi. Bu düzenlemeler neticesinde 1869'da ayaklanmalar çıktı (4, s.10). Ancak Rus yöneticiler bu ayaklanmaları bastırdılar. 1868'de çıkartılan kanundan sonra Kazak bozkırlarına ruslar yerleşmeye başladılar. 1891-1892 yılları arasında bir milyondan fazla köylü Turgay, Semipalatinsk, Akmolinsk'e yerleşti. Bundan sonra bozkırdaki hayat, Rus koloniciler ve Kazaklar arasında her gün cereyan eden sürtüşmelerle şekillendi (2, s.73). Rusların çıkardıkları idari kanunla diğer bir amacı ise göçebe yaşayan Kazakların yerleşik hayata geçmesini sağlamaktı çünkü göçebe oldukları için kontrol altında tutmak ruslar için zor oluyordu.

Eğitim olarak Kazak bozkırlarına Tatar mollaları giderek eğitim veriyordu. Tatarlar aynı zamanda Ruslar için tercümanlıkta yapıyorlardı. Lakin bir süre sonra Ruslar, Kazak topraklarında tam bir hakimiyet kurmak için Rus-Kazak okulları açmaya karar verdiler. Böylece dil olarak Rusçayı öğreterek ruslaştırma politikasını hayata geçirmeyi planlıyorlardı. Bu çerçevede 1789'de Omsk'ta ilk Rus okulu açıldı, daha sonra 1900'lü yılların başına kadar farklı şehirlerde rus okulları açılmaya devam etti (12, s.128-129). Bu okullarda özellikler Kazak aristokratlarının çocuklarına eğitim verilerek tercüman veya öğretmen olarak göreve atıyorlardı. Bu şekilde kendi kültürüne iyice yabancılaştırılmaya çalışılıyordu. Diğer taraftan Kazaklar arasında aydınlanma hareketi bu okuldan mezun olanlar ile başladı. İlk Kazak aydınları rus okullarında eğitim almışlardı. Bu aydınlardan Çokan Velihanov (1835-1865) saf Kazak ruhunun korunmasını istiyor; Tatarlaşmaya ve islamlaşmaya karşı çıkıyordu. İbray (İbrahim) Altınsarin (1841-1887) öğretmenlik yapıyordu ve Kazak çocukları için 1864'te ilkokul açtı daha sonra Kazak kızları için özel bir okul açtı. Kazakların destanlarına dayanarak şiir ve hikayeler yazdı. Bu şekilde kazak kültürüne sahip çıktı. Abay Kunanbayev (1854-1904) birçok ünlü Rus yazarın kitaplarını Kazakçaya tercüme etmiştir. Aydınlar, Kazak halkını Rusya ve Batıdaki kültürel, teknoloji, eğitim anlamındaki gelişmelerden haberdar et-

mek istiyorlardı. Rusların amacınında ruslaştırma ve hristiyanlığı yaymak olduğunundа farkındaydılar. Bu aydınlar sayesinde Kazaklar arasında da ilk siyasi bilinçlenme başlamıştır.

Matbuat bakımından ilk Kazakça metin 1831 yılında basılmıştır. 1905'e kadar Kazakça basılan eserler Tatar matbaalarında basılmıştır. Aynı tarihe kadar 509 tane Kazakça kitap yayınlanır ve bunların çoğunu Tatarlar ile kazaklar basarlar. İlk Kazakça gazete ise Omsk'ta çıkarılan Dala Vilayeti adlı gazetesidir ancak bu gazete Rus hükümetinin çıkardığı bir gazete idi. Yine de Kazak edebi dilinin oluşmasında bir payı vardır (12, s.138-139).

Kazaklar göçebe bir hayat yaşadıkları için 1905 ihtilalinin etkisi fazla olmadı. Troisk'ta Aykap gazetesi etrafında toplanan birkaç gazeteci Kazaklar arasında ihtilalci fikirleri yaymaya çalıştılar. Aslında Rus ihtilalinden etkilenenler Rus okullarında eğitim gören Kazak asilleri ve onların çocukları oldu. I.Duma'ya Kazak vekillerinden kısıtlıda olsa katılan olmuştu. Duma'ya Kazak bozkırlarından beş Rus ve dört Kazak seçilmişti. Kazak aydınları II.Nikolaya müracaat ederek Kazak bozkırlarının sömürülmesinin durdurulmasını ve Kazakçanın mahkemelerde ve idari işlerde kullanılmasını rica ediyor, Kazakların resmi olarak "müslüman Kazaklar" diye adlandırılmasını, Kazakların başka dini kabul etmeleri için zorlanmamalarını, Kazak Rus okullarında Kazakça anadili derslerinin konmasını, bozkırlarda toprak alma hakkının verilmesini, vakıf açmaya müsade edilmesini talep ediyorlardı. Aralık 1905'te A.Bükeyhanov, Batı Kazakistan aydınlarını ve ileri gelenlerini davet ederek bir konferans düzenledi. Burada Kadet partisi ile işbirliği yapma kararı verildi. Buna benzer bir kararda Doğu Kazakistan Kazaklarının Kurultayında alındı. II. Duma'ya Kazakistan'dan 4, Türkistandan 6 Türk Mebusu seçildi. Ancak bu dumalar kısa süreli oldular. 1913,'de Orenburg'da Ali Bükeyhanov, Ahmet Baytursınov ve şair Mir Cakıp Dulatov'un çıkarmaya başladığı *Kazak* gazetesi Kazak gençlerine tesir etti. Kazakların göçebe olarak, dağınık yaşamaları ve ulaşım imkanlarının az olması onların siyasi faaliyetlerine engel oluyordu. Kazakistan bozkırları içinde Akmolla-Sibir, Orenburg-Taşkent demiryolları ulaşımı sağlı-

yordu bu da birçok bölgenin ulaşım kısıtlamasını ortaya koyuyor. Dolayısıyla siyasi faaliyetler Duma'ya katılan Kazak üyeleri ile birkaç aydın tarafından yürütülüyordu. Bükehanov, Tınışbayev ve Seydalin gibi şahıslar Kazak aydınları arasında yürüttükleri faaliyetler sayesinde ileri bir tarihte "Alaş" partisinin kurulmasında öncü olmuşlardır (Rusya Devlet Dumalarında türk deputatların faaliyeti hakta etraflı bak: 12, s.185-195).

1897-1916 arasında Kazak bozkırlarına göç edenlerin sayısı 2 milyonu geçmişti. Göç edenler içinde Ruslar, Ukraynalılar ve Belaruslar bulunmaktaydı. Rusya bu şekilde Avrupa Rusyası'ndaki topraksız köylüleri Kazak bozkırlarında toprak sahibi yapmıştı. Diğer taraftan Çar yeni bir ferman ilan ederek Kazakistan ve Kırgızistandan yaklaşık 250 bin kişiyi askeriyenin hizmetlerini görmesi için işçi olarak alacaktı. Üst-üste gelen bu olaylar neticesinde ilk olarak 11 Temmuz 1916'da Taşkent'te ayaklanma başladı (6, s.427). Daha sonra bu ayaklanma ve isyanlar Kazak bozkırlarına yayılarak büyüdü. Kıpçak, Argun, Nayman uruğları aralarındaki eski düşmanlıkları bir tarafa bırakıp ruslara karşı beraber hareket ettiler. Kazaklarda onlarla birlikte isyan hareketine katıldılar. Kasım ayına gelindiğinde Kazaklar Turgay'a hücum ettiler, lakin iyi silanmamış ve disiplinsiz oldukları için başarılı olamadılar. Rus hükümeti generel Lavrentev komutasında bir kolordu gönderdi ve isyan bastırıldı. Bundan sonra tek-tük yerde ayaklanmalar devam etti, ancak bunlarda bastırıldı. Bu isyanlar neticesinde Ruslar zarar görse de, türkler daha çok zarar görmüşlerdir. Baymirza Hayit'in Rus kaynaklarına dayanarak verdiği bilgilere göre 673 bin Kazak öldürülmüştür. Ayaklanma önderlerinden 347 kişi idam edilmiştir. Yargısız infaz yapıldı denilmesin diye 228 kişi ağır hapis cezasına çarptırılmış, 129 kişinin hürriyeti kısıtlanmıştır. 168 bin Kazak Sibirya'ya sürgün edilmiş, 3 yüz bin Kazak ve Kırgız Doğu Türkistan'a kaçmıştır (5, s.12; 29).

1917 Şubat ayında Rusya'da ilk devrim hareketi meydana gelmiş ve Ekim devrimi gerçekleşene kadar bir karışıklık ve aynı zamanda rahatlama dönemi olmuştur. Rusya hakimiyetindeki Türk boyları Rusyanın onlara karşı takındığı baskı siyasetine karşı çıkarak onlarla

eşit seviyede hak ve söz sahibi olmak için kurultaylar düzenlemişlerdir. Şubat Devriminden sonra 5-10 Nisan 1917 tarihleri arasında I. Kazak Kurultayı düzenlenir. Bu kurultay da Milli Kurtuluş kararı alınmıştır. II.Kazak Kongresi'nde (21-26 Temmuz 1917) "Kazak Anayasal Demokratik Partisi" adı ile kurulan partinin adı Alaş partisi olarak değiştirilir (Şubat devriminden sonra kazakların milli mücadelesi hakta etraflı bak:13, s.31-43).

Ekim İhtilâli, bu millî harekete yeni sorumluklarla birlikte yeni hareket alanı doğurur. İhtilalle birlikte Kazakistan'ın kırsal kesimleri Rus asker ve işçilerinin yağma alanı hâline gelir. Rus göçmenleri ve askerleri kendilerini bölgenin efendileri olarak görmeye başlar. Bu durumun önüne geçmek için Alaş-Ordacılar bir Muhtar Kazak Hükümeti kurmaya çalışırlar. 18-26 Aralık 1917'de Orengburg'da yapılan 3.Kazak Kongresi'nde Semey şehri başkent olmak üzere Ali Han Bükey Han başkanlığında Alaş-Orda adında bir Kazak hükümeti kurulur (9, s.356). Birbirleriyle çatışma hâlinde bulunan Kızılordu ve Beyazordu, Alaş-Orda Hükümeti'nin varlığı konusunda aynı safta yer alarak karşı çıkarlar. Ocak 1918'de Baytursun başkanlığındaki bir heyet, Stalin ile görüştüğünde onlara "Kazak-Kırgız Muhtar Hükümeti'ni tanıyacağını" söyler. Ancak Stalin gizli olarak şehir proletaryası arabacı, işçi ve hamallardan oluşturduğu grubun komutasına verdiği silahlı kuvvetler ile Alaş Orda'yı karşı karşıya getirir. Faytonculuk yapan Tungaçin cumhurbaşkanı yapılarak "Sovyet Kazak Hükümeti" ilan edilir. Alaş Orda ile Rus Sovyet Kazak Hükümeti arasında mücadele başlar. Sosyalist ve milliyetçi Ruslar Alaş-Orda Kazak Hükümeti'nin ortadan kaldırılması hususunda birlikte hareket ederler. Alaş-Orda Hükümeti ve taraftarları bozkıra çekilir. Teklifler ve görüşmeler netice vermez. Rusların ve yerli işbirlikçilerin baskısına fazla dayanamaz. Kızılordu birlikleri Kazakistan'ı İşgal ederek Temmuz 1919'da Alaş-Orda Hükümetini dağıtırlar. Yerine 20 Ağustos 1919'da Kızılorda merkezli Kazakistan Muhtar Sovyet Sosyalist Cumhuriyeti kurulur. 1927-1928 yıllarında Kazakistan'a yeni idare düzeni kurulur. Başkent 1929'da Almatı'ya nakledilir. Bütün zenginlerin mal varlıklarına el konulur, bütün işletmeler devletleştirilir.

Sonuç: 15.yy'dan itibaren Hanlık olarak ortaya çıkan Kazaklar uzun süre tek bir çatı altında kalamamışlardır. Cüzler arası hakimiyet yarışı bir süre sonra bölünmeye yol açmış ve bunun neticesinde Ulu, Orta ve Kişi Cüz (Orda) olarak üzere üçe bölünmüşlerdir. Cüzler arası ve diğer hanlıklar arası çatışmalar zayıflamalarına neden olmuş ve Çarlık Rusyasının Kazak bozkırlarına yayılışı kolaylaşmıştır. Rus hakimiyetinin gelmesiyle birlikte Rus Avrupasında yaşayan topraksız köylüleri Ruslar, Kazak bozkırlarına yerleştirmiştir. Bunun devamında Rus okulları açarak ruslaştırma politikası devam etmiş ve halk arasında bu durum hoşnutsuzluğa yol açmış, Kazaklar sürekli isyan etmişlerdir. İsyanlar, her seferinde Ruslar tarafından acımasızca bastırılmıştır. 19.yy sonlarında Rusya Türklerinde meydana gelen milli uyanış Kazaklar arasında da yer bulmuş ve haklarını elde etmek için 1905 ihtilalinden sonra Alaş Orda partisini kurmuşlardır. Parti 1917 devrimlerine kadar varlığını devam ettirmesine rağmen bir başarı elde edememiştir. Sovyet hakimiyeti kurulmasıyla tekrar baskı siyaseti başlamıştır. Kazakların siyasi olarak bağımsızlıklarını uzun süre elde tutamamalarının bir nedeni sürekli birbirleriyle çatışmalarıdır. Rusyaya karşı organize olup birlikte hareket edemedikleri için Rus hakimiyetine girmeleri kolay olmuştur. Rusyaya karşı düzenlenen isyanlar da birbirinden habersiz boylar tarafından düzenlendiği için Ruslar üzerinde bağımsızlıklarını kazanacakları kadar etkili olamamıştır.

## KAYNAKLAR:

1. Arat Reşit Rahmeti. "Kazakistan" // İslâm Ansiklopedisi, VI, İstanbul, MEB Yay., 1997, s.494-505.
2. Gömeç Saadettin. Türk Cumhuriyetleri ve Toplulukları Tarihi. Ankara, Akçağ Yayınları, 1999, s.282.
3. Hayit Baymirza. Türkistan Devletlerinin Millî Mücadeleleri Tarihi. Ankara, Türk Tarih Kurumu Yayınları, 1995, s.447.
4. İnan Abdulkadir. Dükçü İşan İsyanı // Türk Kültürü Dergisi. Ankara, Türk Kültürünü Araştırma Enstitüsü Yayınları, S.:10, 1963, s.10-13.

5. İnan Abdulkadir. Türkistan'da 1916 Yılındaki Ayaklanma // Türk Kültürü Dergisi, Türk Kültürünü Araştırma Enstitüsü Yayınları, S.:12, Ankara, 1963, s.26-30.
6. Kurat Akdes Nimet. Rusya Tarihi. Başlangıçtan 1917'e Kadar. Ankara, Türk Tarih Kurumu Yayınları, 1993, s.537+haritalar.
7. Mehmet Saray. Rusya'nın Türkistan'da Yayılması. Genel Türk Tarihi. Ankara, Yeni Türkiye Yayınları, 2002, s.569.
8. Tamir Ferhat. Kazak Hanlığı, C.8, s.1129-1142 / "Türkler" kitabı, 21 Cilt. Ankara, Yeni Türkiye Yayınları, 2002, s.21.000.
9. Togan A. Zeki Velidî, Bugünkü Türkili (Türkistan) ve Yakın Tarihi. İstanbul, Enderun Kitabevi Yayınları, 1981, s.699.
10. Жалованная Грамота Старшинъ Киргиз-Кайсацкой Орды Эбульхаир Хану и всему войску, - опринятии их в Российское подданство, № 5704, с.386 // Полное собрание законов Российской империи. 48 т. Собрание первое: с 1649 года. 1830. Томъ 8 (1728-1732). Спб., Тип. II Отд-ния Собств. Е.И.В. Канцелярии, 1830, 1007 с. (Online). Mənbə: https://www.prlib.ru/item/358648 [Baxılıb: 2 aprel 2019].
11. Именный, данный из Кабинета Ея Величества Тайному Советнику Татищеву. – О распространении торговли Росии с Киргиз-Кайсаками; об определении в Оренбург двух Киргизских старшин, для прекращения ссор между приезжающими туда купцами, и о принятии в Российское подданство Хана Большой Киргиз-Кайсацской Орды Юлборуса. № 7657, 1738, Сентября 16. Т.10: 1737-1739, с.614-618 // Полное Собрание Законов Российской Империи. 48 т. Собрание первое: с 1649 по 12 декабря 1825 года. СПб.: Тип. II Отд-ния собств. Е.И.В. Канцелярии, 1830, 995 с. (Online). Mənbə: http://elib.shpl.ru/ru/nodes/188-t-10-1737-1739-1830 [Baxılıb: 2 aprel 2019].
12. Mehdiyeva N.C. Türk xalqlarının tarixi. Yeni dövr. Dərslik. Bakı: Adiloğlu, 2010, 352 s.
13. Göyüşov A. Rusiyada monarxiyanın süqutundan SSRİ-nin yaranmasına qədər olan dövrdə müsəlman-türk xalqlarının milli-azadlıq mübarizəsi (1917-1921). Bakı, 2002, 119 s.

**Фатьма Бетюль АЙДЕМИР**
***Магистрант по специальности «История тюркского мира» Бакинского Государственного Университета***

# ВЗГЛЯД НА ИСТОРИЮ КАЗАХОВ ДО СОВЕТСКОГО ПЕРИОДА

В XV веке казахи под руководством Керея и Джаныбека основали Казакское ханство. Они были разделены на три жузы: Старший жуз, Средний жуз и Младший жуз. В дальнейшем все три жуза вошли в русское господство, после чего русские, белорусские и украинские крестьяне были переселены на территории казахов. Казахи восстали против этой политики царской России, однако они не смогли освободится от российского господства. После революций 1917 года они опять попали под власть России, только теперь большевистской России. В этой статье кратко упоминается история казахов до советского периода.

**Fatma Betul AYDEMİR**
***Master's degree in specialty "History of the Turkic World" of the Baku State University***

# VIEW OF HISTORY OF KAZAKHS UNTIL THE SOVIET PERIOD

The Kazakhs established the Kazak khanate under the leadership of Kerey and Canıbek from the 15th century. They were divided into three groups: Ulu, Orta, and Kishi juz. This three juz entered the Russian domination easily because they are constantly fighting each other. Russian, belarussian and Ukrainians farmers were placed at the Kazakh’s territories by Russians. The Kazakhs rebelled against this policy of the Russians however they could not be freed from Russian dominance. After the 1917 revolutions they were under Soviet rule. This study briefly mentions the history of Kazakhs until the Soviet dominance.

**Ləman ALAGÖZLÜ**
***Azərbaycanın yeni və ən yeni tarixi ixtisası üzrə magistrant,***
***Bakı Dövlət Universiteti***
**E-mail: lemanalagozova@gmail.com**

# AZƏRBAYCANIN SOVETLƏŞMƏSİ DÖVRÜNDƏ N.NƏRİMANOVUN DİNƏ MÜNASBƏTİ

*Elmi rəhbər*:
Kəmalə NƏCƏFOVA
Bakı Dövlət Universitetinin dosenti

*Açar sözlər:* N.Nərimanov, A.F.Pişnamazzadə, Azərbaycanda din, İslam, Sovet hakimiyyəti, Tibb və İslam
*Ключевые слова:* Н.Нариманов, А.Ф.Пишнамаззаде, Религия в Азербайджане, Ислам, Советская власть, Медицина и Ислам
*Keywords:* N. Narimanov, A.F.Pishnamazzade, Religion in Azerbaijan, Islam, Soviet power, Medicine and Islam

XIX əsrin sonu XX əsrin əvvəllərində ictimai fikir tarixində özünəməxsus yer tutmuş N.Nərimanov müəllim, yazıçı və dövlət xadimi kimi şərəfli bir ömür yolu keçmişdir. Onun bizə miras qoyduğu zəngin irs Azərbaycan tarixinin ən ağır və ziddiyyətli dövrünü araşdırmağa və ona düzgün qiymət verməyə imkan yaradır. N.Nərimanovun dini məsələlərə münasibəti onun ictimai-siyasi və fəlsəfi görüşlərində aparıcı yer tutur.

Azərbaycan xalqının tarixən özünəməxsus milli, mənəvi dəyərləri mövcud olmuşdur. Eyni zamanda çoxəsrlik milli-mənəvi dəyərlərini qoruyub yaşatmışdır. Lakin 1920-ci ilin aprelində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlıların bütün siyasi, sosial, iqtisadi və mədəni həyatında bir daha köklü dəyişikliklər baş verir, xalqın dini, milli-mənəvi dəyərləri təqib olunmağa başlayır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan bir neçə gün sonra bütün silk və dini imtiyazlar ləğv olundu, din dövlətdən ayrıldı.

N.Nərimanov ilk dini təsəvvürlərin meydana gəlməsini 1906-cı ildə "Həyat" qəzetində dərc etdirdiyi bir məqaləsində belə izah edir: "Tarixdən bəlli olduğuna görə insan vəhşi halətində idi, özündən

qüvvətli və heybətli heyvanlara səcdə edib, onları Allah bilirdi. Zaman kı, həmin heyvanları ağlın zoru ilə insan özünə tabe etdi, başladı bir qeyri məbud aramağa, yer üzərində özündən qüvvətli bir şey tapmayıb, üzünü göyə tutdu, ulduzlara diqqət edib yəqin etdi ki, Allah yuxarıda olsun...” (7).

O, 1920-1921-ci illərdə hazırladığı “Din və kommunizm” əlyazmasında yəhudi, xristian və islam dinlərinin bəşəriyyətə xidmət etmək, insan ləyaqətini qoruyub saxlamaq zərurətindən meydana gəldiyini xüsusi olaraq vurğulayır və onların funksiyaları haqqında deyirdi: “Bütün dinlərin baniləri təqribən eyni fikirləri söyləyirlər. İnsanın mənəviyyatını yüksəltmək, şərə qarşı çıxmaq, özünüsaxlama uğrunda mübarizəni yüngülləşdirmək. Öz vaxtında bu tələblər çox vacib idi. Əslində din başçılarından hər biri öz dövrlərinin inqilabçıları, incidilən fağır adamların müdafiəçiləri olmuşlar” (10, s.17).

Sovet hakimiyyəti qurulduğu zaman dini təqiblərə başlanmışdır. N.Nərimanov bu cür yanaşmaya qarşı çıxaraq bildirirdi ki, xalqın qədim sərvəti olan milli-mənəvi dəyərləri sıxışdırmaq düzgün deyildir. O, dini-ictimai problemləri hələ “Bahadır və Sona” (1908), “Pir” (1913) əsərlərində geniş şəkildə işıqlandırmışdı. N.Nərimanovun dinə münasibətini onun 1910-cu ildə qələmə aldığı “Tibb və İslam” əsərində də görmək mümkündür.

1920-ci il mayın 26-da N.Nərimanovun dinlə bağlı verdiyi ilk göstərişlərində yerli əhalinin milli adət-ənənələrinə və dini hisslərinə hörmətlə yanaşılması tələb olunurdu. O, milli dəyərləri yaranmaqda olan beynəlmiləl dəyərlərdən üstün tutaraq bir neçə məsciddə nitq söyləmiş, dindarlara qarşı repressiyaların tətbiqinə qəti etiraz etmişdi. N.Nərimanov çadranın atılmasında məcburiyyətə qarşı olmuşdur. Onun fikrincə, bu prosesi məntiqi şəkildə həyat özü tənzimləməli idi (2, s.86).

Azərbaycan K(b)P-ın II qurultayında (1920-ci il oktyabr) Azərbaycan SSR Xalq Komissarları Şurasının sədri, sonralar SSRİ MİK-nin katiblərindən biri olan Nəriman Nərimanov dinə qarşı özünün münasibətini açıqlamış və bu sahədə yol verilən nöqsanları sadalamışdır. Nərimanov öz çıxışında bildirmişdi ki, “Bizdə elə müsəlman kom-

munistlər var ki, kəndə girən kimi adamları məsciddən qovur və deyir ki, məscidləri bağlayın. Bu faktdır və belə kommunistlər öz əməlləri ilə fəxr edirlər ki, guya böyük iş görürlər. Onlar elə güman edirlər ki, bizim inqilabımızı genişləndirir və möhkəmləndirirlər. Mən elələrini əksinqilabçı adlandırıram, çünki bunlar bizim işlərimizi korlayırlar. Şərqdə din məsələsi olduqca vacib məsələdir. Bu məsələdə son dərəcə ehtiyatlı olmaq lazımdır, çünki burada bütün həyat bu qanundan asılıdır" (4, s.111). AK(b)P-nin ikinci qurultayında Nərimanov nitqinə davam edir: "...Bəziləri, yerli həyat, ənənə, psixoloji və müsəlmanların dini əqidələrilə hesablaşmayırdılar. Onlar Lenin metodu olan inandırmaq, dözümlü təbliğat işi aparmaq əvəzinə, inzibatçılığa yol verirdilər. Azərbaycanlı zəhmətkeşlərin Sovet hökuməti ətrafında birləşməsi işinə böyük zərər yetirən, ayrı-ayrı avantürist və xuliqan ünsürlər 1920-ci ildəki hərəkətləri ilə əhalinin dini hisslərini təhqir edir, ruhaniləri məscidlərdən qovur, onları həbs edir, hətta bir dəfə xalqın gözü qabağında Quranı ayaq altına atıb, tapdalamışdılar". Nərimanov belələrini əksinqilabçı adlandırırdı (6, s.262).

Respublikada dinə qarşı mübarizədə ilk təşəbbüs 1920-ci ildə "Şaxseyvaxsey", "Şaxsey-vaxseydə kim iştirak edir" adlı plakatların buraxılması oldu (1, s.42). N.Nərimanov Stalinə ürək ağrısı və hiddətlə yazdığı məruzəsində qeyd edirdi ki, onun olmamasından istifadə edən (bu zaman Nərimanov Genuyada idi) bəzi respublika rəhbərləri matəm günlərində "şaxsey-vaxsey" yürüşünü qadağan etmişlər. Nəticədə isə əsgərlər və fəhlələr arasında silahlı toqquşma olmuşdur (9, s.4).

Bu dövrdə N.Nərimanov, S.M.Əfəndiyev və başqalarından fərqli olaraq S.Ağamalıoğlu, R.Axundov və digərləri İslama münasibətdə radikal mövqeləri ilə seçilmişdilər. Hətta onlardan bəziləri Quranın əsaslarını, Məhəmməd peyğəmbərin dünyagörüşünü, eləcə də bu dinə aid ayin və mərasimlərin əsl mahiyyətini öyrənmədən korkoranə şəkildə İslam dininə qarşı çıxmışdılar. Əslində isə, "Məhərrəmliyi İslamın vəhşi ayini kimi qələmə verən bəzi yerli bolşeviklər başa düşmür, yaxud da düşmək istəmirdilər ki, bu və ya digər məra-

simlə bağlı yaranmış mövhumatın, xurafatın İslama və onun Peyğəmbərinə heç bir aidiyyatı yoxdur" (11).

N.Nərimanov isə üzünü radikallıq tərəfdarı olan bolşeviklərə tutaraq deyirdi ki, kütləni savadlandırmadan bu problemi həll etmək mümkün deyildir: "Nə qədər ki, bu dindar kütlənin inkişaf səviyyəsini yüksəltmək yolu ilə onun bu matəm günlərinə mömin olan, lakin özünə işgəncələrdə iştirak etməyən hər hansı ziyalı müsəlman kimi yanaşmalarına nail olmamısınız, elə də olacaqdır. Min illərdir ki, bədbəxt, avam müsəlman kütləsi (şiə məzhəbli) Məhəmmədin ən sevimli nəvəsi imam Hüseynin işgəncəli ölümü günü matəm yürüşü keçirir və ən dəhşətli şəraitdə düşmənlərin əlinə keçən Hüseyn və onun ailəsinə məhəbbət və rəğbət əlaməti olaraq əsil dindar avam ünsürlər bu və ya digər yolla bu hadisələrə öz münasibətini bildirirlər. Bu, öz gücsüzlüyünü bilərək Məhəmmədin qanunlarını pozan, hamını və hər şeyi qızılla ələ almaq istəyən Yezidə qarşı mərdi-mərdanə çıxış etmiş adamın həyatında bütöv bir faciədir" (9, s.11).

İslam dininə münasibətdə obyektiv mövqe tutan N.Nərimanova görə hökumət çoxpilləli dini şuralar yaratmalı, hər məscidin dindarları öz mollasını seçki yolu ilə müəyyənləşdirməli, hər milli respublikanın ali ruhanisi ruhanilər tərəfindən seçilməli, hər bir ərazidə Ali dini şura yaradılmalıdır. N.Nərimanov dinin məktəbdə öyrənilməsi məsələsini yolverilməz hesab etmiş və bunu hər hansı ruhani-müəllimin öz dinini başqasından daha üstün kimi qələmə verəcəyi və hətta ola bilsin, digər dini pisləyəcəyi ehtimalı ilə izah etmişdir (3, s.88). O, hələ 26 may 1906-cı ildə "Həyat" qəzetində dərc etdirdiyi bir məqaləsində ruhanilər hazırlamaq üçün Gəncədə açılan yeni üsuli mədrəsə barədə nüfuzlu hacılardan birinin dili ilə deyirdi: "Ruhanilər millətə lazımdırlar. Fəqət indi ruhanilər yaman haldadırlar, divarın o tayında olan şeyləri görmürlər, millət nə ilə tərəqqi etməyini bilmirlər, ona görə də vaxtında zəmanəyə müvafiq, millətə olan qulluğu etməyi bacarmırlar" (10, s.30).

Təəssüflə qeyd etməliyik ki, ötən əsrin 20-30-cu illərində Azərbaycanın yüzlərlə mollaları, ruhaniləri, üləmaları və başqaları həm mənəvi, həm də cismani şəkildə məhv edilmişdir. Məşhur din xadimi

olan Axund Fərəculla Pişnamazzadə isə N.Nərimanov tərəfindən həbsdən azad olunmuşdur.

A.F.Pişnamazzadənin nəticəsi Leyla Əliyevanın təqdim etdiyi sənəd "İttiham işi, № 163" adlanır. Bu sənədə əsasən XI Qırmızı ordunun hərbi-inqilabi tribunalı üç nəfərdən ibarət idi: milliyyətcə rus olan Volkov Dmitri, Kovalyov Boris və milliyyətcə erməni olan Petrosov Sergey. Həmin "İttiham"a əsasən həbs olunanların arasında 3 nəfər İslam din xadimi var idi: Axund Fərəculla Pişnamazzadə, Nurməmməd Əfəndi İmamzadə, Molla Əhməd Hacı Nəbi oğlu. Bunların üçü də bəraət qazanmışlar. A.F.Pişnamazzadənin qızı Məğbulə Pişnamazzadənin söylədiyindən məlum olur ki, onların bəraət alması xahişi ilə A.F.Pişnamazzadə öz bacısı oğlu Əlinin vasitəsi ilə N.Nərimanova məktub göndərmişdir. O məktubu corabın içində gizlədərək Bakıya N.Nərimanovun yanına gəlmişdir. Məktubda Pişnamazzadə etiraf edir ki, o, həqiqətən də İslam dininin təbliği ilə məşğul olmuşdur və bunu günah bilmədiyindən özünün azad olunmağını xahiş edir. N.Nərimanov dərhal D.Volkova məktub yazaraq Pişnamazzadənin azad olunması məsələsini qoymuş və buna nail olmuşdur. Qeyd etmək lazımdır ki, həmin "İttiham"a görə məhbuslara işgəncə verdiyinə və onların əmlakını mənimsədiklərinə görə iki erməni də cəza almışdı. Onlardan Ambarsum Simonyans 5 il müddətinə, Arşak Navasartyans 15 il müddətinə həbs olunmuşdular (3, s.118).

N.Nərimanovun din xadimləri ilə insani dostluq və ünsiyyətinə, müəyyən tədbirlərin keçirilməsində onlarla məsləhət-məşvərət etməsinə dair faktlar çoxdur. M.S.Ordubadi 1920-ci ildə N.Nərimanovun mənzilində qonaq ikən şahid olduğu bir faktı qeyd edərək yazmışdır: "Bu əsnada Buzovnalı molla Mirzəlinin görüşə gəldiyini xəbər verdilər. Doktor gəlməsinə icazə verdi, o da içəri girən kimi doktoru qucaqlayıb öpdü, doktor da onu çox səmimiyyətlə öpdü. Mən inqilab rəhbəri ilə bir nəfər mollanın əlaqəsində olan bu qədər səmimiyyətə təəccüb etdim" (2, s.43).

1920-ci ildə N.Nərimanov Şuşa məscidində geniş dindar kütlələr qarşısındakı çıxışında Çarın din siyasətindən, Çar şəraitində müsəlman ruhaniliyinin real vəziyyətindən ətraflı danışmışdır. Həmin

çıxışında dindarlara inandırıcılıqla başa salırdı ki, Nikolay rejimində din məsələsinin istər qoyuluşunda, istərsə də dinlə əlaqədar dövlətin yeritdiyi siyasətdə çox ciddi qüsurlar var idi, o dövrdə "müsəlman dini sıxışdırılırdı" (10, s.34).

N.Nərimanov ilk dəfə türk dilində "Bahadır və Sona" romanında kilsənin dövlətdən ayrılması barədə yazmışdır. Nərimanov İslam dininə hörmətlə yanaşaraq göstərirdi ki, "Çox yoldaşlar islam dini ilə xristianlıq arasındakı fərqi bilmirlər. Bunları eyniləşdirmək olmaz. Əgər xristianlıq ehkamdırsa, islam həyatdır. Hər bir müsəlman beşikdən başlamış qəbirə qədər islam qanunları ilə bağlıdır. Hətta qəbirdə də molla ölünün qulağına nəisə pıçıldayır" (1, s.45).

1929-cu ildə nəşr olunan "Kommunist" qəzetində "Oruc tutanlara" adlı məqalədə 8 bənddən ibarət orucun zərərləri və Xalq Səhiyyə Komissarlığının bu məsələ barəsindəki tədbirləri öz əksini tapmışdı. Məqalənin "Elmi tibbiyyə şurası oruc haqqında" adlı yarımbaşlığında orucun insan bədəninə nə kimi zərərlərin olduğunu göstərir. Əhalini bu kimi "zərərlərdən" çəkindirməyə çalışanlar orucluğun zərərini bir ay müddətində gündüzlər yeməmək insan əzasini, əql və bədən fəaliyyətini zəifləməsi; insanda sinir cəhazı zəiflədiyi üçün hər şeydən qıcıq yaradılması, bunun nəticəsində də adam öldürmə hallarının çoxalması; 13-16 yaşlı uşaqlara pis təsir etməsi; tələbələrin zehninin qocalması, baş ağrıları, sinir ağrılarının olması; uşaq əmizdirən analara ziyan edərək südünün quruması, uşağın zəif salması; vərəm və digər xəstəliklərin başlanğıcı olması, uzun müddət ac qalmaq gizli xəstəliklərin daha da ağırlaşmasına səbəb olması; gün uzunu ac qaldıqdan sonra axşam çoxlu ağır yeməklər yemək həzm sisteminin pozması, mədənin ağırlaşması, yuxusuzluğa səbəb olması; orucluqda dərman içməyi günah hesab edib müalicəsini yarımçıq kəsməklə xəstəliyinin artması və s. ilə əsaslandırırlar. Bundan başqa kənd əhalisini çox zəif olduğu üçün oruc tutmaq əməkçilərə daha artıq zərər olduğu qeyd olunur (5).

Göründüyü kimi, qeyd olunan bəndlərdə heç bir tibbi əsası olmayan şəkildə insanlar dindən çəkindirilir və əsassız fikirlərlə oruc tutmağın zərərləri qeyd olunur. "Oruc tutanlara" adlı məqalənin "Xalq səhiyyə komissarlığının tədbirləri" adlı yarımbaşlığında isə

orucluğun insan bədəninə olan zərərləri ilə bağlı mübarizə tədbirləri də göstərilir. Lakin "Kommunist" qəzetində dərc olunan bu kimi anti-din məqalələrdən xeyli əvvəl N.Nərimanov artıq "Tibb və İslam" əsərində oruc tutmağın insan orqanizminə olan faydalarını, hansı halda oruc tutmağın düzgün olmadığını elmi əsaslarla izah etmişdir.

N.Nərimanov "Tibb və İslam" əsərində yazmışdır: "Hamilə arvad və ya əmizdirən arvad özü üçün və ya uşağa zərər olsa, şu məqamlarda oruc vacib deyil. Fəqət azardan sonra oruc tutmaq vacibdir ... İslam bununla iktifa etməyib (kifayətlənməyib), müsafirə də orucu vacib görməyir. Çünki müsafir üçün çətindir vaxtında lazım olan taamı yesin, tainki bədəninə zərər yetişməyə. Şu çətinlik nəinki qədim yolların xarab halətində (vəziyyətində) və bəlkə hazırda da vardır ... Yuxarıda zikr olundu ki, qoca, qüvvətdən düşmüş şəxsə oruc vacib deyil. Ol surətdə ki, aclıq ona zərər yetirə. Bunun səbəbi aşkardır. Həddi-buluğa çatmamış oruc tutmaq vacib deyil. Bunun səbəbini tibdə aramalı. İndi belə tutalım ki, hər saatda yeyən uşaq oruc tutur. 8-10 saat ac qalır. Əvvəla, aclıq ona çox əziyyət verəcəkdir. Çünki oynadıqca bədən qüvvətdən düşür. Qüvvətə gəlmək üçün taam lazımdır. O da yox. İkinci, üzvlərin və bədənin boy atmağına səbəb olan əczalar uşağın günlük taamındadır. O da yox. ... İndi yəqin oldu ki, naxoşu, qocanı və uşağı mötadi (adəti üzrə) taamlarından çəkindirmək olmaz. Və dəxi aşkar oldu ki, islamın bu barədə olan qanunları tibbin qanunları ilə müttəfiqdir" (8, s.28).

Ümumiyyətlə, N.Nərimanov dini təsəvvürlərin bütün vasitələrlə adamların beyinlərinə yeridilməsinin də tərəfdarı deyildi. Mövhumat və fanatizmə qarşı daim mübarizə aparan Nərimanov başa düşürdü ki, dini etiqadları qadağan etməklə aradan qaldırmaq qeyri-mümkündür. Bu hər kəsin şəxsi işidir. Bitərəf Azərbaycan qadınlarının birinci qurultayında həmin məsələyə toxunaraq deyirdi: "Bəziləri belə hesab edirlər ki, Şərqdə kommunizm bir sıra məsələlərlə bir araya sığmır. Bu din, qadın və ərzaq məsələləridir. Lakin sovet hakimiyyəti, kommunizm dinlə hec cür bağlı deyildir. Hər kəs öz dininə etiqad edə bilər..." (2, s.149).

Belə ki, sovet hakimiyyətinin dinə qarşı təbliğatı 1923-1924-cü illərdə daha da fəallaşmışdı. Demək olar ki, bu vəziyyət partiya xadimləri

arasında N.Nərimanovu daha çox narahat etmişdir. 1925-ci ildə N.Nərimanovun ölümündən sonra isə ölkədə vəziyyət daha da ağırlaşmışdır. Onun yoxluğundan istifadə edənlər AK(b)P 1929-cu ilin aprelində keçirilən plenumu dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələni də müzakirəyə çıxarmışdı. Azərbaycan qəzalarında elə bir məscid qalmadı ki, ya dağıdılmasın, ya da anbara, kluba, kitabxanaya çevrilməsin. Quba qəzasında 1928-ci il dekabrın 15-dən 1929-cu il yanvarın 6-dək - 22 gün ərzində 18 məscid anbara və mədəni-maarif idarələri binasına çevrilmişdi. Ümumilikdə, təkcə 1929-cu ildə Azərbaycan qəzalarında 120 məscid binası zəbt edilib məktəb üçün istifadəyə verilmişdi. Bütün Azərbaycanda 1929-cu ildə seçki kampaniyası vaxtında 400 məscid bağlanmışdır. Eyni zamanda o dövrün qəzet və jurnallarında da ateizm düşüncələri öz əksini tapmışdır. Məsələn, "Kommunist" qəzetində "Rədd olsun çadra", "Bir gündə 200 papaq", "Yatanı ayıq oyada bilər", "Çadraçılara firqədə yer yoxdur", "Tyatorda çadra olmaz", "Çadraçılara qarşı mübarizə şiddətlənməlidir", "Orucluq haqqında" və s. bu kimi çap olunan məqalələr sovet ideologiyasının dinə qarşı nə dərəcədə "humanist" olduğunu göstərmiş olur.

Beləliklə, araşdırmalar nəticəsində məlum olur ki, N.Nərimanov dövlətin dinlə bağlı siyasəti müəyyənləşdirilərkən yerli əhalinin milli adət-ənənələrinə, dini hisslərinə hörmətlə yanaşmanın vacib olduğunu hesab edir, milli dəyərləri yaranmaqda olan beynəlmiləl dəyərlərdən daha üstün tuturdu.

## ƏDƏBİYYAT:

1.Bayramova R. Azərbaycan rəhbərliyində ixtilaflar və siyasi çəkişmələr. Bakı, 2007, 105 s.
2.Hacıyeva A. Nəriman Nərimanovun din haqqında fəlsəfi düşüncələri. Bakı, 1998, 167 s.
3.Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı, 2005, 347 s.
4.İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-30). Bakı, 1996, 168 s.
5.Kommunist qəzeti. Oruc tutanlara. № 41, 1929.

6.Məmmədli Q. Nəriman Nərimanov. Həyat və yaradıcılığın salnaməsi. Bakı, 1987, 359 s.
7.N.Nərimanov. "Həyat" qəzeti. № 98, 1906.
8.N.Nərimanov. Tibb və İslam. Hacıtərxan, 1910, 28 s.
9.N.Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, 1992, 80s.
10.Səttarov M. N.Nərimanov və din. Bakı, 1995, 61 s.
11.Sovet dövründə Azərbaycanda İslam dini: loyallar və radikallar / Modern.az İnformasiya Agentliyi, 9 oktyabr 2013. (Online). Mənbə: https://modern.az/az/news/45732 [Baxılıb: 5 aprel 2019].

**Ляман АЛАГОЗЛУ**
***Магистрант по специальности***
***«Новая и новейшая история Азербайджана »,***
***Бакинский Государственный Университет***

## ПОЛИТИКА Н.НАРИМАНОВА В ОТНОШЕНИИ РЕЛИГИИ В ПЕРИОД СОВЕТИЗАЦИИ АЗЕРБАЙДЖАНА

Данная статья посвящена вопросу отношения главы советского Азербайджана - Н.Нариманова к религии и соответственно проводимой в тот период государственной политики. Как известно, Н.Нариманов был блестящим знатоком Ислама и традиций Востока. В статье указывается на то, что в начале 20-х годов Н.Наримановым было сделано многое для сохранения религиозных традиций и толерантности в отношении религиозных чуств населения Азербайджана.

**Laman ALAGOZLU**
***Master student on the specialty***
***"New and recent history of Azerbaijan", Baku State University***

## POLICY N.NARIMANOV IN THE FIELD OF RELIGION IN THE PERIOD OF SOVIETIZATION OF AZERBAIJAN

This article focuses on the question of the relationship of the head of the Soviet Azerbaijan - N.Narimanov to religion and, accordingly, held the state policy. As known N. Narimanov was a brilliant expert on Islam and the traditions of the East. The article points out

that in the early twenties. N.Narimanov did a lot to preserve the religious traditions and tolerance towards the religious feelings of the population of Azerbaijan.

**Oğuz Kağan BAYRAKDAR**
***"Türk dünyası tarihi" ihtisası üzere Yüksek Lisans öğrencisi,***
***Bakü Devlet Üniversitesi, Tarih fakültesi***
**E-mail: oguzkaganbayrakdar@outlook.com**

# SSRİ DÖVRÜNDƏ AZƏRBAYCAN TARIXŞÜNASLIĞINDA MƏRKƏZİ ASİYA VƏ TÜRK TARİXİ İLƏ BAĞLI ARAŞDIRMALARIN TƏHLİLİ

*Elmi rəhbər*:
Əsməd MUXTAROVA
Bakı Dövlət Universitetinin professoru

*Açar sözlər:* tarix, tarixşünaslıq, ideologiya, Azərbaycan, Sovet İttifaqı, Türküstan, Mərkəzi Asiya, türk tarixi
*Ключевые слова:* История, Историография, Идеология, Азербайджан, Советский Союз, Туркестан, Центральная Азия, история тюрков
*Key Words:* History, Historiography, Ideology, Azerbaijan, Soviet Union, Turkestan, Central Asia, history of the turks

*Giriş.* Tarix, cəmiyyəti formalaşdıran ən mühüm fənlərdən biridir. Buna görə də cəmiyyətə istiqamət vermək istəyən dövlətlər öz ideologiyalarına görə tarixdən faydalandılar. Marksist-Leninçi ideologiyaya malik Sovet İttifaqı, daxilindəki xalqları assimilyasiya etmək və özünə bağlamaq üçün tarixşünaslıqdan istifadə edirdi. Sovet İttifaqının nəzarəti altındakı Azərbaycan tarixşünaslığı, başlanğıcından günümüzə qədər dəyişikliyə məruz qalmışdır. Bu prosesdə Türkçülük, Türküstan, Mərkəzi Asiya kimi xalqa təsir edən subyektlər məhdudlaşdırılmışdır. Bu məqalənin məqsədi XX əsrin əvvəllərindən indiyədək Azərbaycanda Mərkəzi Asiyaya dair tədqiqatları təhlil etməkdir.

Başlanğıcdan günümüzə qədər, məkan və zamandan asılı olaraq müxtəlif səbəblərə görə dəyişimə məruz qalan tarix, elm olaraq ortaya çıxdıqdan sonra daha mübahisəli hala gəldi. İnsanların istəklərinə uyğun olaraq yazılan tarix, zamanla dövlətlərin ideoloji təfəkkürü üçün əsas olmuşdur.

Engels və Marksın ideyalarına uyğun qurulan, sosialist həyat tərzinə əsaslanan və kommunizmə çatmağı qarşıya məqsəd qoymuş SSRİ ideologiyası yeni insan tipinin yaranmasını da zəruri hala gətirdi. Bu yeni "Homo Sovieticus" adlanan sovet tipli insan modelini yaratma cəhdi sovetlərin tətbiq etdiyi ideoloji siyasətin bir nəticəsi idi. Bu insan modelini yaratmaq üçün Tarix elmi müraciət edilən ən mühüm vasitələrin başında dayanırdı (10, s.320).

Sovet İttifaqı dövründə Azərbaycan və Mərkəzi Asiyada təhsil siyasəti partiya tərəfindən formalaşdırılmışdır. Bütün SSRİ üçün vahid tədris planı olmasına baxmayaraq, ittifaq respublikalarında bölgənin vəziyyəti nəzərə alınaraq ədəbiyyat və tarix kimi dərslərdə dəyişikliklər edilmişdir (4, s.25). "İstədiyi kimi düşünən" insan modelini yaratmaq və marksist fəlsəfəni cəmiyyətə aşılamaq üçün bir vasitə rolu oynayan təhsil sistemi 1917-ci ildə qurulan komissiya ilə dünyəvi status qazanmışdı. Marksist ideologiyaya əsaslanaraq hazırlanan tarix kitabları 1934-cü ildə "SSRİ məktəblərində vətəndaşlıq tarixinin tədrisi" adlı kitabın nəşr edilməsinə qədər uğursuz olmuşdur (15, s.42). Tarixi marksistcə anlamaq, əldəki biliyi K.Mark və F.Engelsin fəlsəfəsinə uyğun şəkildə dilə gətirmək zəruri olmuşdur.

Bir olan xalqları bir-birindən ayırmaq və yenidən təşkil etmək sovet hökumətinin əsas məqsədlərindən idi (10, s.432). Bu tarix ideyası ilə birlikdə yeni tarixi şüur yaradılaraq, etnik cəhətdən eyni kökə malik xalqlar bir-birindən uzaqlaşdırılmış və ayrıca millətlər meydana çıxmışdır. Ümumiyyətlə türklərin ümumi tarixi əvəzinə Sovet İttifaqı tərəfindən məhəlli tarixşünaslıq ön plana çəkilmişdir. Bu zaman müxtəlif türk xalqlarının eyni kökə mənsub olmaları vurğulanmır, türk dövlətləri arasındakı münasibətlərdən qətiyyən bəhs edilmirdi (8, s.110). Qazax, Azərbaycan, Özbək türklərinin tarixi əvəzinə bölgə ilə məhdudlaşdırılan və digər dövlətlərlə olan müsbət əlaqələrin bəhs edilmədiyi tarix təqdim olunurdu (24, s.168). Sovet tarixşünaslığında müşahidə olunan torpağa bağlı milliyətçilik, cəmiyyətə sərhədləri bəlli hər hansı bir yerə aid olma şüurunu yaymaqla digərlərini özgələşdirib düşmən olmaq ideyası üzərində qurulmuşdu. Bu ideya ilə birlikdə millət tarixi yerini vətən tarixinə vermişdir. *"Oğuzlar, Qəz-*

*nəli, Səlcuq, Osman babalarımızın türkmənliklərini bildirmək istəmədilər. Türkmənlər bu dövrdə öz torpaqlarına türkmən məmləkəti deyə bilmirdilər. Elm adamları öz tarixlərini əlyazma qaynaqlardan öyrənsələr də həqiqəti yazmaların icazə verilmirdi. Yazsalar belə nəşr etdirə bilmirdilər"* (26, s.5982).

Sovet hökuməti Azərbaycanda sovet ideologiyasını dəstəkləyən və öz istədiyi istiqamətdə tarix anlayışını yaradan kadrları yetişdirmək üçün bəzi qurumlar yaratmışdı, ya da var olan bəzi qurumlardan öz məqsədləri üçün istifadə edirdi. Azərbaycan Dövlət Universiteti Tarix-Filologiya Fakültəsi (1919-cu ildən mövcud olmasına baxmayaraq, SSRİ bu universiteti öz ideologiyası üçün əsas qurumlardan biri kimi gördü və ondan istifadə etdi), Azərbaycan Arxeologiya Komitəsi (1923), Azərbaycan Tarix Muzeyi (1920), Azərbaycan Mərkəzi Dövlət Arxivi (1921), Kommunist Partiyası Tarix İnstitutu kimi qurumlar sovet ideologiyasına və yaradılmağa çalışılan tarix tezisinə yardım edəcək vasitələr kimi meydana gəlmişdir. 1922-ci ildə ADU-nin Tarix fakültəsində fəaliyyət göstərən 8 kafedradan biri "Türklərin tarixi" kafedrası idi. SSRİ-nin tərkibində təhsil həyatına davam edən ADU "Türklərin tarixi" kafedrası ilə Mərkəzi Asiya araşdırmalarına başladı.

Stalinin vaxtında Azərbaycanda tarix tədrisində də nəzərə çarpan dəyişikliklər olmuşdur. Azərbaycan SSR-də tarix proqramları iki hissədən ibarət idi. Birinci hissə ümumi və xüsusi məqsədlərlə əlaqədar biliklərin verildiyi izah bölməsi, ikincisi isə dərslərin əsasını təşkil edən, başlıq və adların olduğu əsas hissə idi (27, s.301). Bu dövrdə milli və dini mövzular təhlükəli olması səbəbi ilə dərs kitablarından çıxarılmışdı. 1931-1934-cü illərdə məqsəd sovet məzmunlu, marksizmi özündə ehtiva edən dərs kitablarını tarixin tədrisi və tədqiqatlarında istifadə etmək idi (18, s.217). Lakin təhlükəli olmasına baxmayaraq, 1920-ci illərdən etibarən milli mövzular haqda müəyyən qədər danışılmasına da başlanmışdı. Bu dövrdə milli mövzularla bərabər, tarix yazımında Orta Asiya ilə əlaqəli əsərlərin də yazıldığını görmək mümkündür.

Ümumiyyətlə baxıldığında, Azərbaycan tarixşünaslığında Mərkəzi Asiya ilə bağlı araşdırmaları tarixi və dilçilik sahələri üzrə yazılmış araşdırmalar olaraq 2 qrupa ayırmaq mümkündür. Bundan başqa, araşdırmaları yazıldıqları dilə görə də 2 qrupa ayıra bilərik: azərbaycan dilində yazılmış araşdırmalar və rus dillərində yazılmış araşdırmalar. Araşdırmaların rus dilində yazılmasının səbəbi olaraq, XIX-XX əsrlərdə Azərbaycanın əvvəl Çar Rusiyasının, daha sonra isə SSRİ-nin tərkibində olmasını göstərmək olar.

Xronoloji olaraq, 1920-ci ilə qədər Azərbaycanda Mərkəzi Asiya ilə bağlı tədqiqatlar görülmür. 1920-ci ildə Ənvər Paşanın iştirakı ilə, Bakıda Birinci Şərq Millətləri Konqresi keçirildi. Bu konfransın nəticəsi olaraq, Mərkəzi Asiyadan olan siyasi xadimlər Bakıda bir araya gəlib, müxtəlif fikir mübadiləsi apardılar. Bu konfransla əlaqədar akademik işlər bu illərdə nəşr olunmağa başlandı (21). Türkologiya və əlifbanın dəyişməsi ilə bağlı müzakirələrin intensivləşdirilməsi tədqiqatların aparılmasına gətirib çıxardı.

1920-1930-cu illər arasında Azərbaycanın Rusiya tərəfindən işğalı “nisbətən az bəla” tezisi kimi qiymətləndirilmişdir. Rəsmi iqtidar tərəfindən uydurulan bu tezis, məcburi qəbul etdirilmişdir. Yerli xalqın rus hegemonluğunu böyük səbrsizliklə gözləməsini müdafiə edən bu tezisə görə, Rusiyanın tərkibinə qatılma yalnız xalqın istəyilə ola bilərdi və mütərəqqi bir addım idi. Bu siyasət vasitəsilə rus işğalı geridə qalmış millətlərin mədəniləşməsi üçün bir fürsət kimi təqdim edilmişdir.

İkinci dünya müharibəsi dövründə marksizm ideoloji cəhətdən yetkinliyə çatmış və Azərbaycan tarixşünaslığında yer almışdır. İkinci dünya müharibəsi tarixçilərinin əsas vəzifələri sovet xalqında və əsgərlərində vətən sevgisi, torpağa bağlılıq, qəhrəmanlıq ruhunu oyatmaq və ittifaq xalqları arasında dostluq əlaqələrini inkişaf etdirmək idi (22, s.20).

Sovet İttifaqı ilk dəfə qurulduqda ideoloji cəhətdən əksəriyyəti təşkil edən kadrlara malik deyildi. Buna görə milliyyətçi ifadələrə icazə verildi. Lakin bəzi mövzularda araşdırmalara icazə verilsə də, öz yayım fəaliyyətləri ilə xalqa təsir etməyə çalışdılar və Türk millət-

çiliyi ilə mübarizə apardılar (20). Stalinin güclü kadrları olduqdan sonra, repressiyalara başladı və Türk xalqları içərisindəki intellektual sinfi məhv etməyə çalışdı. Buna görə 1930-1955-ci illərdə Azərbaycanda Mərkəzi Asiya, Türküstan, Türk və Türkcə ilə bağlı heç bir əsər yoxdur.

Nikita Xruşov (1953-1964) nisbətə mülayim siyasət yeridirdi. Bu siyasətlə, "Xruşov baharı" (mülayimləşmə dönəmi) adlandırılan liberal abu-havanın hakim olduğu dövr başlanmışdır. Xruşov Sovet İKP-nın XX qurultayında etdiyi çıxışda Stalinin yeritdiyi siyasətin Leninin çizgisində olmadığını dilə gətirmişdir. Xruşov Stalinin dövrünü təzyiqlər dövrü adlandırmış, onu öz imperiyasını yaratmaqda təqsirləndirmişdir.

Xruşovun vaxtında ittifaq dövlətlərinin siyasi qurumlarında dəyişikliklər edildi. Azərbaycan Kommunist Partiyasının sədri Mir Cəfər Bağırov vəzifədən kənarlaşdırılaraq yerinə İman Mustafayev gətirildi. Bu dövr Xruşovun destalinizasiya siyasətinə uyğun olaraq Azərbaycanda da əvvəlki sədrin və onun siyasətinin tənqid edilməsi dövrüdür. Dövrün mülayim abu-havası ittifaq respublikalarında milli duyğuların inkişafına təkan vermiş, keçmişə xas gerçək məlumatların xalq arasında yayılmasına səbəb olmuşdur. Bu vəziyyətin SSRİ-nin mənfəətinə və marksist quruluşun xarakterinə təhlükə yaradacağı düşünülmüş və 30 aprel 1956-cı ildə bəraətnamə və onun nəticələrini aradan qaldıran təbliğat nəşr edilmişdir. Buna baxmayaraq, Azərbaycan tarixçiləri öz tarixlərini əks etdirən əsərlər yazmışlar. Bu dövr Azərbaycan tarixçiliyinin inkişaf dövrünün başlanğıcıdır (13, s.6-8). 1954-1959-cu illərdə Azərbaycan SSRİ KP-nın sədri İ.Mustafayev siyasi və ictimai həyatda milliləşdirmə siyasətini həyata keçirmişdir. İctimai sahədə müşahidə edilən milliyətçilik fəaliyyətləri tarix sahəsinə də sıçramışdır. 9 və 10-cu sinif tədris planına Azərbaycan tarixi fənninin daxil edilməsi milliləşmə siyasətinə uyğun addım kimi dəyərləndirilə bilər. 5 noyabr 1959-cu ildə Azərbaycan KP MK-nin "Azərbaycan SSR məktəblərində tarixin tədrisində bəzi dəyişikliklərin edilməsi haqqında" qərarı ilə Azərbaycan tarixi məktəblərdə icbari dərs kimi tədris edilməyə başlamışdır. Bütün bunlara baxmayaraq, Rusiyanın Azərbaycanı işğal etmə-

si "birləşmə" tezisi ilə mütərəqqi addım kimi təqdim edilmişdir (9, s.178). Yeritdiyi siyasət təhlükəli hesab edilərək İ.Mustafayev 1959-cu ildə Xruşov tərəfindən vəzifəsindən uzaqlaşdırılmışdır.

Xruşov dövründə Mərkəzi Asiya ilə bağlı araşdırmalarda da mülayimləşmə meydana gəldi və bu dövrdə Türklərin, Mərkəzi Asiyanın və Rusiyanın təsirlərini əhatə edən əsərlər yazmağa başlandı. Demoktatiya ilə SSRİ-nin tarixi dəyişdirdiyini müdafiə edən realistik əsərlərin də nəşrinə başlandı. Xüsusən, 1970-ci illərdən etibarən türklərin mənşəyi, qədim türk yazıları, türk dilinin öyrənilməsi, ədəbi və mədəni əlaqələr tədqiqatlarda öz əksini tapmışdır (16).

Bu dövr tarix tədqiqatlarının əsas mövzusunu bölgədə yaradılmış ilk dövlətlər, orta əsrlər, Azərbaycanın Rusiya ilə birləşməsi (17), kapitalist münasibətlərinin inkişafı (23), fəhlə hərəkatları (14), sovet inqilabının zəfəri və sosializm quruluşu, vətən müharibəsi təşkil etmişdir. 1920-1930-cu illərdə tarixşünaslıq metod və mövzu cəhətdən sovet boyunduruğundan qurtula bilməsə də, milli şüurun yüksəlməsilə özünəməxsus bir istiqamətdə irəliləməyə başlamışdır. 1960-cı illərin ortalarından etibarən bundan əvvəlki dövrə damğasını vuran birləşdirilmə tezisi yerini "tərkibinə daxil olma" ideyasına vermişdir. 30 yanvar 1964-cü ildə Azərbaycan KP MK-nın "Azərbaycanın Rusiyanın tərkibinə daxil olmasının 150 illiyini qeyd etmək haqqında" verdiyi qərar tarixşünaslıqda və sovetlər ittifaqına qarşı yeridilən siyasətlərdə hansı yola girildiyini əks etdirir (25; s.66).

1970-ci illərdə Çinin Sovetlər İttifaqına qarşı yeritdiyi təcavüzkar siyasət və ondan torpaq tələb etməsi hakimiyyəti bu problemlə məşğul olmağa sövq etmişdir. Bu şəraitdə türkologiya tədqiqatları ilə bağlı qoyulan məhdudiyyətlər yumşalmış və nəticədə Bakıda "Sovetskaya Turkologiya" jurnalı nəşr edilməyə başlamışdır. Türk xalqlarının tarixini tədqiq etmək üçün atılan bu ilk addımdan sonra Həmid Araslı, Əbdüləzəl Dəmirçizadə və Tofiq Hacıyev kimi şəxslər bu mövzuda araşdırmalar apararaq milli ziyalı təbəqənin yenidən təşəkkül etməsində mühüm rol oynamışlar.

1985-ci ildən başlayan hərəkat ilə birlikdə bir sıra tarixçilər (Z.Bünyadov, M.İsmayılov, S.Əliyarov, Y.Mahmudov, C.Həsənli,

E.İsmayılov, H.Məmmədov, A.İsgəndərov, M.Qasımov, K.Şükürov, İ.Musayev, F.İbrahimli və b.) tarixşünaslıqda və tarix elmində problem olaraq gördükləri xüsusiyyətləri tənqid edərək Azərbaycanın sovet dövrü tarixçiliyində aparılan saxtalaşdırmanı düzəltməyə çalışmışlar. Bu yeni tarix ideyası Azərbaycan tarixşünaslığında ikilik yaratmışdır. Bir tərəfdə sovet sistemi boyunca davam etmiş siyasi tarix, digər tərəfdə isə demokratikləşmə ilə birlikdə meydana çıxan milli dəyərləri və tarixin obyektiv şəkildə təqdim edilməsini ön plana çıxaran yeni tarix konsepsiyası.

1985-1988-ci illərdə Azərbaycan tarixçiləri dini və milli mövzulara daha çox müraciət etmişlər.Tarixçilər müəyyən bir mövzunu marksist qəlibə uyğunlaşdırmaq məcburiyyətində qalmayaraq, hadisələri yeni ölçüdə dəyərləndirmə imkanı əldə etmişlər. 1988-ci ildə baş verən Dağlıq Qarabağ hadisələri milliyətçiliyi artıraraq tarixçiliyin sürətli şəkildə bu istiqamətə yönəlməsinə səbəb olmuşdur. Azərbaycandakı milli problemlərin həm xalq arasında, həm də beynəlxalq arenada elan edilməsi yolunda bir çox əsərin nəşri üçün yol açılmışdır (29, s.236).

Aşkarlıq və Yenidənqurma dövrü ilə birlikdə təzyiq dövrünün sona çatması sosial elmlər sahəsində azadlığa səbəb olmuşdur. Lakin demokratikləşmə dövrü ilə birlikdə ittifaq ölkələrinin çoxunda və Mərkəzi Asiyada olduğu kimi, Azərbaycanda da sosial elmlər sahəsində, xüsusilə tarix elmində dəyişikliklər müşahidə olunmuşdur. Milliyətçi olduğuna görə qadağan edilən müsavatçılar və AXC bu dövrdə tarixçilərin məşğul olduğu əsas mövzulardan olmuşdur. Bununla yanaşı, Aşkarlıq və Yenidənqurma siyasəti ilə birlikdə Azərbaycan tarixşünaslığında Stalin dövrünə və onun siyasətinə qarşı Xruşov dövründə olduğundan daha ağır tənqidlər edilmiş, o dövrə qədər haqqında danışılması qadağan edilmiş mövzular tarixşünaslıqda əks olunmuşdur (28, s.281).

Siyasi həyatdakı dəyişikliklər həmin ölkənin mədəni həyatına təsir göstərir. 1991-ci il oktyabrın 18-də müstəqillik əldə etdikdən sonra Azərbaycan tezliklə öz ideologiyasını qurmağa çalışdı. Bu ideologiya üçün lazım olan qurumlar yaradılmış və ziyalılar arasında

müxtəlif mövzular araşdırılmışdır. Bu müddət ərzində Mərkəzi Asiya ilə bağlı daha geniş çaplı nəşrlər məydana gəldi. Türk şəxsiyyəti, Türklərin tarix və sivilizasiyası, Türk xalqlarının tarixi, Türk epik abidələri və Türk dilində müxtəlif elmi mövzular tədqiqatçılar tərəfindən araşdırıldı (5; 6).

Müstəqil olduqdan sonra tarix araşdırmalarıyla yanaşı, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə bəynəlxalq münasibətləri haqqında araşdırmalar da meydana gəldi. Azərbaycanın digər ölkələr ilə siyasi-iqtisadi-mədəni-ədəbi əlaqələri araşdırıldı. Mərkəzi Asiya ilə siyasi münasibətlərin güclənməsi özünü tarixşünaslıq və ədəbiyyatşünaslıqda əks etdirdi (12).

2000-ci illərə gəldikdə Mərkəzi Asiya ilə bağlı araşdırmaların sayının artdığı görülməkdədir (2). Bu mövzu haqqında fərqli məqalələr, kitablar magistr və doktorantura işləri hazırlanmışdır (3). Fərqli universitetlərdə, bölgə ilə əlaqədar ixtisaslar yaradılmış və elm adamları tərəfindən təkcə tarix deyil, ədəbiyyat və folklor araşdırmalarına da başlanmışdır. Bu dövrün xüsusiyyətlərindən biri də Sovet İttifaqı dönəmini tənqid edən əsərlərin çox olmasıdır. Həmçinin türk kimliyi, türklərin Ana yurdu məsələlərinin əvvəlki dövrlərdə olduğundan daha çox araşdırıldığı da müşahidə olunmaqdadır.

Nəticə. Aparılan tədqiqatlarda Türkiyə üçün “türk”, istifadə etdiyi dil üçün isə “türk dili” ifadəsinin işlədilməsi müşahidə edilmişdir. Orta Asiya türkləri və yaxud da bütün türklər üçün də türklər və türkdilli xalqlar ifadəsi geniş formada işlədilmişdir. Etnik cəhətdən türk mənşəyə malik bir xalqın “türkdilli” kimi təqdim edilməsi ciddi nəticələrə səbəb ola bilər. Bu vəziyyət, bu xalqın türk əsilli olmaması və bu dili sonradan öyrənmələri ehtimalını özündə ehtiva edir . Buna görə də sovetlər dövründə aparılan dil tədqiqatlarında “türkdilli xalqlar” ifadəsinin istifadə edilməsi müşahidə edilir. Bu dövr tədqiqatlarında Türkiyə ilə türk cümhuriyyətləri arasında hər hansı bir bağın yaradılmasının qarşısı alınmışdır. Bunu aparılan tədqiqatlarda da görürük. Türk tədqiqatları adlandırılan bir çox əsər sadəcə Türkiyə türkləri ilə əlaqədar informasiya verir. Etnik cəhətdən vahid olan xalqlar ərazi adları ilə tarixiləşdirilmişlər.

ƏDƏBİYYAT:

1. Ağamahoğlu S. Türk aləmində mədəni məsələlər / "Yeni yol" qəzeti, 1924,16 noyabr, 23 noyabr.
2. Ağayev R.Ə. Azərbaycan və Mərkəzi Asiya ölkələrinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər). Bakı, "Kür" nəşriyyatı, 2004, 151 s.
3. Akalın Ş.H. Türk dünyasında ortak iletişim dili ve Tofik Hacıyev // "Türkologiya – Тюркология" jurnalı, Bakı, №3 2015, s.129-132.
4. Akıner Shirin. Sovyet Müslümanları. Çev: Tufan Buzpınar, Ahmet Mutu. İstanbul, İnsan Yayınları, 1995, 399 s.
5. Ayda A. Türkün Mənşəyi / «Dədə Qorqud» qəzeti, 1 May 1991.
6. Cavad H. Türklərin tarix və mədəniyyətinə bir baxış. Başlanğıcdan XVI əsrə qədər. Bakı, Azərnəşr, 1993, 184 s.
7. Dadaşlı Ə. 1905-1907-ci illər rus inqilabı və Asiyanın Oyanması. Bakı, Azərnəşr, 1955, 80 s.
8. Devlet Nadir. Çarlık Rusya'sı ve Sovyetler Birliğinin Türk Tarihine Bakışı // Avrasya Etüdleri, sayı 4, 1995-1996, s.92-104.
9. Hacısalihoğlu Fuat. Azerbaycan'da tarihçilik. Yayınlanmamış Doktora Tezi. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı. Ankara, 2012, 366 s.
10. Hacısalihoğlu Fuat. Sovyetik Ulus ve Devlet Yaratım Sürecinde Tarih Yazımı. Türk Tarihine Dair Yazılar, Editör: Alpaslan Demir, Ankara, Gece Kitaplığı, 2017, s.427-438.
11. Hasanoğlu İbrahim. Homo Sovieticus: Sovyet Halkı İnşası Çabaları // Turkish Studies (International Periodical Fort he Languages, Literature and History of Turkish or Turkic), Volume: 10, sayı:1, s.311-340.
12. Həsənov C. Azərbaycan Respublikası bəynəlxalq münasibətlər sistemində. Bakı, 1992, 58 s.
13. Hüseynzadə Əli. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1967, 216 s.
14. Lenin V.İ. Fəhlə sinfi ilə kəndlilərin ittifaqı haqqında. Bakı, Azərnəşr, 1956, 774 s.

15. Maharramova Nigar, Ahmet Şimşek. Sovyetler Birliği Döneminde Rusya'da Okutulan Tarih Ders Kitaplarında Türk İmajı // Cumhuriyet Tarihi Araştırmaları Dergisi, sayı 26, 2017, s.37-66.
16. Məhərrəmov A. Qədim türk runik abidələri. Bakı, APİ nəşri, 1967, 39 s.
17. Mehdiyev Q. Azərbaycanın Rusiya ilə birləşməsi və bunun əhəmiyyəti. Bakı, Az.SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyətin nəşri, 1952, 50 s.
18. Memmedov Hüsamettin. Azerbaycan'da Basmakalıp Tarih Eğitimi ve Mücadele Yolları // Tarih Eğitimi ve Tarihte Öteki Sorunu. Yayına hazırlayan: 19. Ali Berktay, Hamdi Can Tuncer, Tarih Vakfı Yayınları, İstanbul, 1998, s.215-220.
20.Mirzoyan Y. Millətçiliklə mübarizə: Böyük dövlətçilik şovinizmi əleyhinə mübarizə. Türk millətçiliyi əleyhinə mübarizə, erməni və yəhudi millətçiliyi əleyhinə mübarizə // Bolşevik, 1928, №7-8, s.l1-16.
21. Ordubadi M.S. Bakıda I Şərq millətləri konqresi // Füqəra füyuzatı, №1 1921, s.2-3.
22. Səfərov Yusif. Azərbaycan qədim tarixinin tarixşünaslığı. Bakı, 1994, 69 s.
23. Səfərov Yusif. Feodal təhkimçilik sisteminin böhranı və kapitalist münasibətlərinin inkişafı dövründə rus zadəgan tarixşünaslığı. Bakı, 1966, 47 s.
24. Süleymanlı Ebulfez. Milletleşme Sürecinde Azerbaycan Türkleri. İstanbul, Ötüken yayınları, 2006, 373 s.
25. Şükürov Kərim. Azərbaycan tarixi. C.1. Bakı, Bakı Universiteti Nəşriyyatı, 2004, 234 s.
26. Turan Refik. Sovyet Türkmenistanı'ndan Bağımsız Devlete Türkmenistan'da Tarih Öğretimi // Journal of Human Sciences, Vol:13/3, 2016, s.5978-5997.
27. Turan Refik. İdeolojik Amaçlı Tarih Öğretimi: Sovyet Döneminde Azerbaycan'da Okutulan Tarih Ders Kitapları ve Tarih Dersi Öğretim Programları Üzerine Bir İnceleme / 5.Ulusal Sosyal Bilimler Eğitimi Kongresi, s.300-306.

28. Turan Refik. Azerbaycan'da Okutulan Tarih Ders Kitaplarında Stalin ve Uygulamalarına Yaklaşım // Bilig, sayı:67, s.273-294.
29. Zülfüqarlı Məhərrəm. Azərbaycan tarixi ikinci respublika dövrünün tarixşünaslığı (1920-1991-ci illər). Bakı, Çaşıoğlu, 2001, 312s.

**Огуз Каган БАЙРАКДАР**
***Магистрант по специальности «История тюркского мира» Бакинского Государственного Университета***

## АНАЛИЗ ИЗУЧЕНИЯ ИСТОРИИ ЦЕНТРАЛЬНОЙ АЗИИ И ИСТОРИИ ТЮРКОВ В ИСТОРИОГРАФИИ АЗЕРБАЙДЖАНА СОВЕТСКОГО ПЕРИОДА

История является одним из важнейших дисциплин, формирующих общество. Поэтому государства, которые хотели дать направление обществу, извлекли из него выгоду в соответсвии со своими собственными идеологиями. Советский Союз, обладающий марксистско-ленинской идеологией, также контролировал написание истории, чтобы ассимилировать и удерживать разные народы внутри него. Азербайджанская историография, находящаяся под контролем Советского Союза, претерпела изменения с момента его создания. В этом процессе исследования, относящиеся к таким понятиям как тюркизм, Туркестан, Центральная Азия, Мусават были ограничены. Целью данной статьи является анализ исследований Центральной Азии и истории тюрков в Азербайджане, начиная с советского времени до наших дней.

**Oguz Kahan BAYRAKDAR**
***Master's degree in specialty "History of the Turkic World" of the Baku State University***

## AN ANALYSIS OF CENTRAL ASIAN AND TURKIC HISTORY STUDIES IN THE HISTORY OF AZERBAIJAN IN THE USSR

History is one of the most important disciplines that shape society. Therefore, the states that wanted to give direction to the society

benefited from it in line with their own ideologies. The Soviet Union, Which has a Marxist-Leninist ideology, controlled history writing in order to assimilate and kept down another communities within it. The history of Azerbaijan, which was under the control of the Soviet Union, was undergoing a transformation from its inception to the present. In this process, subjects like Turkism, Turkestan, Central Asia and Musavat have been restricted. The aim of this article is to analyze the studies about Central Asia and history of turks in Azerbaijan during the Soviet period until today.

**Həyat QARAYEVA**
***Tarix müəllimliyi ixtisası üzrə***
***IV kurs "SABAH" qrupu tələbəsi,***
***Bakı Dövlət Universiteti***
**E-mail: heyat.qarayeva1998@gmail.com**

# TÜRKİYƏ CÜMHURİYYƏTİ - ALMANİYA MÜNASİBƏTİLƏRİ TARİXİNƏ BAXIŞ

Elmi rəhbər:
İqbal AĞAYEV
*Bakı Dövlət Universitetinin dosenti*

*Açar sözlər:* Almaniya və Türkiyə höküməti, ikitərəfli danışıqlar, I Dünya müharibəsindən sonra iki dövlətarası diplomatik münasibətlər, hərbi və iqtisadi sahədə yardımlaşma, siyasi hadisələrin gedişatı, Alman-türk münasibətləri müasir dövrdə
*Ключевые слова:* Германия и Турция, двусторонние переговоры, дипломатические отношения двух государств после Первой мировой войны, помощь в военной и экономической сфере, Развитие полититских событий, Германо-турецкие отмошения в современный период
*Keywords:* Germany and Turkey, bilateral negotiations, diplomatic relations of the two states after the First World War, assistance in the military and economic sphere, progress of political doings, German-turk relations in modern era

1923-cü il Lozanna müqaviləsi ilə əldə olunmuş diplomatik qələbə sonrakı dövr Türkiyə Cümhuriyyətinin xarici siyasət xətti müəyyənləşdirmiş oldu. Bu dövrdə M.Kamalın elan etdiyi "Yurdda sülh, cahanda sülh" şüarı xarici siyasət xəttinin əsasını təşkil edirdi. İsmət paşanın 1923-cü ilin oktyabrın 30-da təşkil etdiyi yeni hökumət proqramının əsasını da bütün ölkələrlə dostluq münasibətlərinin yaradılması və bu yolla ölkə bütövlüyünün qorunması təşkil edirdi. Ona görə də Türkiyə Cümhuriyyəti xarici siyasətinin ilk addımları müxtəlif ölkələrlə diplomatik münasibətlərin inkişafı və yeni müqavilələrin bağlanması ilə səciyyələnir. Almaniya ilə olan və gələcəkdə quru-

lacaq müxtəlif səviyyəli müqavilələr Türkiyə üçün xüsusi əhəmiyyət kəsb edirdi (5, s.49-50; 17, s.105).

XX əsrin 30-cu illəri Almaniya və Türkiyə arasındakı münasibətlərin normal məcrada inkişaf etdiyi bir dövrdür. Hitler hakimiyyətə gəldikdən sonra Almaniya və Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoymuş, eyni zamanda gələcəyə doğru bir sıra yeni addımlar atılmışdır (5, s.50). Hitler hələ iqtidara gəlməmişdən əvvəl yazdığı "Mein Kampf" əsərində Birinci dünya müharibəsində müttəfiq olduğu Türkiyənin üçüncü Reyxin ittifaq siyasəti sahəsində ikinci dərəcəli rol oynadığını qeyd etmişdi (17, s.106). Hitlerə görə, Almaniyanın Türkiyə kimi ölkələrlə ittifaq qurması, Almaniyanın müharibədə qalib gəlmək şansını sıfıra endirirdi. Bu baxımdan Türkiyə Nasional-sosialist Almaniyası xarici siyasətində maraq dairəsindən kənarda qalırdı. Almaniyanın Xarici işlər naziri Neyrat ilə 1934-cü il 3 dekabrda Berlində görüşən Xarici işlər naziri Tevfik Rüştü Türkiyə ilə SSRİ arasında yaxın əlaqələrin olduğunu və bununla belə Türkiyədə kommunizm təhlükəsi olmadığını qeyd etdi. Almaniya-SSRİ əlaqələrinə toxunaraq, Almaniyada Kommunist Partiyasının qadağan edilməsinin iki ölkə arasında əlaqələrə təsirsiz ötüşməyəcəyini bidirmişdi (5, s.53-54).

Almaniya 1933-cü ildə Cenevrə Tərk-Silah konfransından və Millətlər Cəmiyyətindən çıxdı və 1935-ci ildə martın 16-da Versal müqaviləsinin qadağan etdiyi məcburi hərbi xidmət sistemini yenidən bərpa etdi. Millətlər Cəmiyyətinin aprel ayının ikinci yarısında Cenevrədə keçirilən iclasında Almaniyanı qınayan və onu həmin müqavilələrə hörmət etməyə, eyni zamanda, MC üzvlüyünə geri dönməyə çağıran qərar qəbul edildi və Türkiyə də Millətlər Cəmiyyətinin Almaniyanı qınayan qərarına qoşuldu.

Montrö müqaviləsinin imzalanmasından sonra, 1937-ci il fevralın 26-da Almaniya Türkiyəyə verdiyi notada müqavilənin bəzi ölkələrin, xüsusilə SSRİ-nin hərb gəmilərinin Aralıq dənizinə sərbəst çıxa bilməsi ilə bağlı hüquqlarının Almaniya hökuməti tərəfindən qəbul edilməyəcəyi fikri açıqlanmışdı (5, s.55). Türkiyə 9 mart 1937-ci il tarixli notasında, Almaniyanın Lozanna Boğazlar konvensiyasında

iştirak etməməsi və Aralıq dənizində sahili olmaması səbəbilə Boğazlar rejiminə müdaxilə etmək haqqı olmadığını bildirmişdi. Almaniya isə bu sərt cavabın qarşılığında Ankara üzərində əsas təzyiq aləti olan İtaliyadan istifadə etməklə öz lehinə dəyişiklərə ümid bəsləyirdi. Kellerə görə, əgər Türkiyə Həbəşistanı İtaliyanın təsir dairəsində olduğunu qəbul etsə idi, İtaliya Montrö müqaviləsinə qoşula bilərdi. Bu zaman Almaniyanın Türkiyəyə qarşı tək qalma ehtimalı güclənəcəkdi. 1938-ci il mayın 2-də İtaliyanın Montrö müqaviləsinə qoşulması Almaniyanın bu istiqamətdə narahatlığının səbəbsiz olmadığını göstərdi. Ribbentrop Montrö müqaviləsinin yaratdığı Boğazlar probleminin bu mərhələdə iki ölkə arasındakı əlaqələrə mənfi təsir etdiyini və əlaqələrə zərər vurduğunu bildirmişdi (17, s.106).

1939-cu il avqustun 1-də Hüsrev Gerede Türkiyənin Almaniyaya yeni səfiri təyin edildi. Almaniya höküməti, Fransanın Hatayı Türkiyəyə vermək istəmədiyini bildiyindən, Türk-Fransız danışıqlarının nəticəsiz qalacağına ümid bəsləyərək, əvvəlcə Hatayın Türkiyəyə verilməsini dəstəkləmişdi. Lakin Hatayın Türkiyəyə birləşməsindən sonra Berlinin siyasəti dəyişdi. Bu dəfə Berlin, Ərəb dövlətlərinə qarşı, Türkiyənin genişlənmə siyasətini qınamış, bu siyasətin İngiltərə və Fransa tərəfindən dəstəkləndiyini vurğulayaraq, Ərəb ölkələrində ərəb milliyətçiliyini dəstəkləmək istiqamətində Almaniya üçün təbliğat çalışmalarını yerinə yetirməklə öz təsirini artırmaq uğrunda mübarizəyə başlamışdı. Fon Papen 12 iyun 1939-cu ildə İraqın Türkiyədəki səfiri Memduh Zekidən İraq hökümətinin Hatayın Suriyadan alınmasına və Türkiyəyə verilməsinə qarşı olduğunu öyrənmişdi. Papen hətta İngilis mənbələrində də bu fikrin təsdiqini tapmışdı (17, s.109).

Bildiyimiz kimi, ölkələrarası xarici əlaqələr onların iqtisadi həyatına da təsirsiz ötüşməmişdir. Türkiyə Almaniyaya 120 milyon markalıq silah və hərbi ləvazimat sifarişləri də vermişdi. Lakin Türkiyə xarici siyasi kursunun dəyişməsi və Balkan paktının yaradılması gedişində Türkiyənin xarici arenada mövqelərinin kəskinləşməsi 7 may 1939-cu ildə Almaniyanın Türkiyənin hərbi sifarişlərinin göndərməməsini şərtləndirdi. Bunun əsas səbəblərindən biri 12 may tari-

xində imzalanan "Türk-ingilis-fransız Yardımlaşma Deklarasiyası"na Türkiyənin də qol qoyması idi (19, s.19). Deklarasiyanın imzalanmasından sonra isə Hitler Türkiyənin sifarişlərinin yerinə yetirilməsini tamamilə dayandırdı. Bunun qarşılığında Türkiyə də Almaniyaya satılan xammalın bəzilərini dayandırdı, bəzilərini isə azaltdı. 1939-cu ilin avqustunda alman siyasi təzyiqinin artması ilə Türkiyə öz mövqeyini nümayiş etdirdi. Almaniyanın Ankaradakı səfirinə Türkiyənin heç bir dövlətin dominionuna çevrilməyəcəyi və sərbəst hərəkət edə biləcək səviyyəyə çatdırılacağı bildirilmişdi. Lakin Almaniyanın buna məhəl qoymadığını görən Türkiyə hökuməti 1 sentyabrdan etibarən Almaniya ilə olan bütün ticari-iqtisadi əlaqələrini kəsmişdi. Müharibə ərəfəsində Türkiyənin SSRİ ilə də əlaqələri kəskinləşmişdi və bu vəziyyət Türkiyəni qərbə (İngiltərə və Fransaya) yaxınlaşdırırdı (19, s.25).

Yalnız 40-cı illərin ortalarından etibarən müharibədə Antanta dövlətlərinin Almaniyaya qarşı münasibətində durğunluq və yavaşmanın müşahidə olunması, eyni zamanda Almaniyanın müharibədəki hərbi uğurları yenidən Türkiyə-Almaniya siyasi əlaqələrində yaxınlaşmaya rəvac verdi. 24 iyul 1940-cı ildə Türkiyə-Almaniya ticarət müqaviləsi bağlandı (13, s.20). Lakin Türkiyə hər vəchlə alman qoşunlarının ölkənin qərb sərhədlərinə keçməsinə imkan vermir və bu münasibətin qərb dövlətləri ilə müharibə təhlükəsinə gətirib çıxara biləcəyindən narahat idi. Eyni zamanda, alman qoşunlarının ölkə daxilinə girməsi ilə Türkiyənin qərb dövlətləri ilə müttəfiq olacağına şübhə yox idi. Lakin Hitler bu narahatlığın qarşısını almaq və türk-ingilis müttəfiqliyinə imkan verməmək üçün prezident İ.İnönüyə 1941-ci ildə məktub göndərdi. Burada Almaniyanın Türkiyəni suveren ölkə kimi tanıması və onun ərazi bütövlüyünə hörmətlə yanaşdığı qeyd olunurdu. Eyni zamanda Hitler bildirirdi ki, onun Türkiyəyə qarşı hər hansı ərazi iddiası yoxdur və müharibə gedişində Balkanlarda aparılan əməliyyatlar zamanı alman qoşununa türk sərhədlərindən kənarda durmalı olduqları tapşırılmışdır (19, s.28). Bütün əməliyyatların yeganə hədəfinin İngiltərə olduğu bildirilməklə, Almaniya Türkiyəni də öz tərəfinə çəkməyə və onun tərəfində müharibəyə qoşulmağa sövq etməyə çalışırdı. Lakin

Türkiyənin buna cavabı birmənalı idi. Prezident müharibəyə heç bir dövlətin tərkibində qoşulmayacağını və dövlət suverenliyinə və ərazi bütövlüyünə qarşı ola biləcək bütün təcavüzlərə qarşı gələ biləcək iqtidarda olduğunu bildirmişdi (5, s.61).

Hitlerin sonrakı ərazi vədləri də tam bəhrəsini verməsə də, müəyyən müsbət nəticələrə gəlib çıxmışdı. Belə ki, Türkiyəni öz yanında müharibəyə qoşa bilməyəcəyini gördükdə Türkiyənin heç olmasa SSRİ-yə hücum zamanı da tam bitərəf qalacağından əmin olmaq istəyirdi. Buna görə də Türkiyəyə Lozanna müqaviləsinə görə Yunanıstanda qalmış qərbi Frakiya və Egey dənizindəki adaları vəd edirdi. Lakin bu dəfə də cəhdi uğursuz oldu. Türkiyə bu təklifi də qəbul etmədi. Yalnız 18 iyun 1941-ci ildə "Türk - Alman Dostluq müqaviləsi" imzalandı və bununla da hər iki dövlət bir-birinin ərazi bütövlüyünü tanıyır, hər iki dövlət bir-birinə qarşı birbaşa və dolayı yollarla heç bir hərbi müdaxilədə olmayacağını bildirirdi. Bütün problemlərin dinc yolla həll olunacağı müəyyən olundu (13, s.19).

Bu müqavilə Türkiyənin nüfuzunu artırsa da, Almaniyanı bir sıra məhrumiyyətlərə düçar etmişdi. Belə ki, indi o, həm öz müttəfiqlərinə dəniz yolu ilə kömək göndərə bilmə imkanını itirirdi, həm də Süveyş kanalı və Qafqaza (ən vacibi də Azərbaycana) olan yolunu əlindən buraxmış olurdu. Lakin bu siyasi vəziyyət qərb dövlətləri tərəfindən də birmənalı qarşılanmadı. ABŞ Türkiyəyə olan hərbi yardımlarını dayandırdı, İngiltərə ilə olan münasibətlər isə kəskinləşməyə başladı. 1943-cü ildə Kasablanka, noyabrda Tehran konfranslarında Türkiyənin nə bahasına olur olsun, müharibəyə qərb cəbhəsi tərəfindən qoşulmalı olduğu müzakirə edilmiş və bunun üçün əldən gələn hər şeyin edilməli olduğu bildirilmişdi. Bütün vədlərə etiraz edən Türkiyə sonda zor gücünə və məcbur qalaraq müharibəyə qoşulmağa məcbur oldu. Bütün siyasi və diplomatik kanallardan olan təzyiqlər, eyni zamanda İngiltərənin türk-alman yaxınlaşmasına heç bir imkan verməməsi Türkiyənin geri addım atmasına səbəb oldu. Beləliklə, Türkiyə 1945-ci ilin 23 fevralında Almaniyaya müharibə elan etməli oldu.

XIX yüzilliyin ikinci yarısından etibarən irəliləyən və genişlənən alman-türk münasibətləri Türkiyə Cümhuriyyəti ilə dostluq (1924), Səfirlik (1929) və Ticarət müqavilələri (1930) müstəvisində davam etmişdir (11). Nasional sosialistlərin iqtidarından qaçan bir çox elm adamları 1933-cü ildən etibarən Türkiyəyə gələrək burada mədəniyyət və incəsənət sahələrində çox böyük fəallıq göstərmişlər. Almaniya və Türkiyə münasibətlərinin inkişafı və gələcək təməllərinin möhkəmləndirilməsi üçün Konrad Adenauer 1954-cü ildə və prezident Heuss isə 1957-ci ildə Türkiyəyə ziyarət etmişlər. Bu ziyarətlərə prezident Cəlal Bayar qarşılıq verərək, 1958-ci ildə Almaniyaya səfər etmişdir. Almaniya ilə Türkiyə arasındakı münasibətlərin yeni bir dönəmi türk işçilərinin Almaniya Federativ Respublikasına göndərilməsi ilə başlanmışdır (14, s.77). 1980-ci illərdə türk immiqrantları üçün geri qayıtmaq siyasəti irəli sürən Türkiyənin bu hərəkətinə qarşılıq Almaniya 1994-cü ildə Türkiyənin Almaniyadan satın aldığı silahları razılaşmalara uyğun olmayan formada istifadə edilməsi iddiasını irəli sürərək Türkiyəyə silah göndərilməsini dayandırmışdır. Bunun nəticəsində də tərəflər arasında gərgin vəziyyət yaranmışdır (12). Avropa Birliyinin Lüksemburqdakı (1997) mənfi Türkiyə qərarına görə, iki ölkə arasındakı münasibətlərdə yenidən gərginləşmə baş vermişdir. Türkiyə prezidenti Məsud Yılmaz H.Kolu “köhnə dost, yeni düşmən” elan etmiş, Alman Xarici İşlər Naziri Klaus Kinkel isə Yılmazı “silahla sağa-sola saldıran kişi” adlandırmışdır (14, s.77).

H.Kol dövründə ölkələrarası vəziyyət yaxşı olmasa da, 1998-ci il Yaşıllar koalisiyası höküməti dövründə iki ölkə arasında münasibətlər yenidən canlanmışdır. Çünki bu yeni hökümət Türkiyənin AB-yə olan namizədliyini dəstəklədiyini bildirmişdi (7, s.100-104). İstər 2005-ci ildə, istərsə də 2009-cu ildə qurulan koalision hökümətləri dönəmində Merkelin həyata keçirdiyi Türkiyə siyasəti, Türkiyə-Almaniya arasındakı münasibətləri AB xəttində gərmiş olsa da, iqtisadi müstəvidə asılılıq pozitiv münasibətlərin qurulmasına zəmin yaradırdı. Vestervelle Davudoğlu ilə görüşündə bir sıra mövzuda Türkiyəyə dəstək vermişdir. Son olaraq, İstanbulda Türk-Alman Universiteti inşa edilmiş və alman-türk münasibətlərində xüsusi rol oynamışdır.

Türk-alman münasibətlərinin yaxşılaşması iqtisadi münasibətlərin də həcminin və potensialının genişlənməsinə imkan vermişdir (3, s.3-4). Almaniya Türkiyənin ən böyük ticarət ortağıdır. 2011-ci ildə ticarətin həcmi 35 milyard avro dəyərində olmuşdur (10, s.66). İxracın dəyəri 12.7 milyard avro, idxalın dəyəri isə 21 milyard avro həcmində olmuşdur. Son illərdə iki ölkə arasında ticarət dövriyyəsi artan xətt üzrə inkişaf etməkdədir. Türkiyə Xarici işlər nazirliyinin verdiyi rəsmi məlumatlara görə, 2016-cı ildə ticarət həcmi 2015-ci illə müqayisədə 2 faiz artaraq 35,5 milyard dollar olmuşdur (2015-ci ildə - 34,8 milyard dollar). Bunun 14 milyard dolları ixracat, 21,5 milyard dolları isə idxalat olmuşdur. 2017-ci ilin noyabr ayına olan məlumata görə, ticarət həcmi 2016-ci illə müqayisədə daha 1,4 faiz artmışdır (21). Müdafiə sahəsində də Türkiyə Almaniyanın ən böyük ticarət ortağıdır. Alman Sənaye və Ticarət mərkəzləri 1985-ci ildən bəri Türkiyədə mövcud olmuşdur. Türk-alman ticarət mərkəzləri 2004-cü ildə Kölndə, 2009-cu ildə isə Berlində fəaliyyətə başlamışlar.

Soyuq müharibə dövründə Almaniya-Türkiyə münasibətlərinə baxsaq, Almaniya və Türkiyə münasibətləri gələcək inişaf perspektivləri əldə etdi və intensivləşdi. 1960-cı illərin sonunda Əmək İşəgötürmə Müqaviləsi imzalandı və çox böyük sayda Türkiyə vətəndaşı Almaniyaya immiqrasiya etdi (2, s.12-13; 9, s.290-294).

Müasir dövrdə Türkiyə-Almaniya münasibətləri yeni məcraya daxil olmuşdur. İkitərəfli qarşılıqlı əlaqələrdə dövlətlər bir sıra struktur problemlərlə və türk lobbisinə qarşı rasizmlə üzləşmişdilər. Bu problemlər - Almaniya Budenştaqında qondarma "erməni soyqırımı"nın təsdiqləməsi, türk dövlət adamlarına istiqamətli bir sıra qadağalar, İncirlik problemi, Türkiyə tərəfindən bir sıra alman vətəndaşlarının araşdırılması və həbs olunması, Türkiyə Respublikası prezidentinə qarşı Almaniya mediyası əsas xəttindəki qara propoqanda, FETO ilə əlaqəli bir sıra üzvlərə Almaniya tərəfindən sığınacaq hüququnun verilməsi və s. – dövlətlər arasındakı münasibətləri kəskinləşdirən məsələlərə daxildir (3, s.1-2). Belə ki, Die Weltin alman qəzetinin Türkiyə müxbiri Dəniz Yücəlin həbs edilməsindən sonra Almaniyadakı bəzi siyasətçilər türk lideri Rəcəb Tayyip Ərdoğanın ölkəyə giri-

şinin qadağan edilməsini və türk hökümət nümayəndələrinin bu ölkədə keçirəcəyi iclasların ləğv edilməsini təklif etdi. Bu müzakirələrdən sonra Türkiyənin Ədliyyə naziri Bəkir Bozdağ Almaniyanın Gaggenau şəhərindəki Avropalı Türk Demokratlar Birliyi tərəfindən təşkil olunan 16 aprel referendumu ilə bağlı planlaşdırılan iclasın ləğv edildiyini bildirildi. Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan isə referendumla bağlı bəzi iclasların ləğv edilməsini "nasist dövrünə" bənzətdi (4, s.3).

2016-cı ilin iyun ayında Almaniya Federal Məclisinin 1915-ci il hadisələrini "soyqırım" kimi xarakterizə edən qanun layihəsini qəbul etməsi münasibətləri daha da gərginləşdirmişdi (4, s.2-3). Baş nazirin köməkçisi və hökümət məsləhətçisi Numan Qurtulmuş, Xarici İşlər naziri Mövlud Çavuşoğlu və baş nazir Binali Yıldırım bu qərarı qınamışdır. Türkiyənin bu qərara cavabı almaniyalı deputatların İncirlik bazasındakı alman əsgərlərini ziyarət etmələrinə icazə verməməsi oldu. Bu da gərginliyin daha da artmasına səbəb olmuşdu. Almaniya isə ziyarətə icazə verilmədiyinə görə əsgərlərini İncirlik bazasından geri çəkəcəyini irəli sürdü. Yalnız Almaniya Baş Naziri Angela Merkel və Ərdoğan G20 zirvə toplantısında bir araya gəldikdən sonra ziyarətə yaşıl işıq yandırıldı və Almaniya millət vəkilləri oktyabr ayında İncirlik bazasını ziyarət edə bildilər. Türkiyədə baş verən 15 iyul dövlət çevrilişinə qarşı Rəcəb Tayyip Ərdoğanın "Çevrilişə qarşı demokratik mitinq" adlı videosunun Köln şəhərində nümayişinə icazə verilməməsi vəziyyəti yenə də gərginləşdirmişdi. Bütün bu siyasi gərginliklər həm iqtisadiyyata, həm də qaçqınların həyat və yaşam tərzinə təsirini göstərmişdi (4, s.7-9). Almaniyada yaşayan türklərə qarşı münasibətin kəskinləşməsi "Türkiyə ilə gərgin münasibət islamafobiyanı, anti-türkçülük və irqçilik yaradır" fikrini formalaşdırmışdır.

Beləliklə, müasir dövrdə Türkiyə Almaniyadan PKK və FETO kimi terror təşkilatlarına qarşı konkret addımların atılmasını gözləyir. Almaniyanın Türkiyənin bu həssaslığına göz yumması türk ictimai fikrini daim məyus edir. Bununla yanaşı, Türkiyə şübhəsiz ki, hər hansı müdaxiləni, onun daxili işlərinə və yaxud ölkə kimi mövcud

olan assimetrik münasibətlərinə olan müdaxiləni qəbul etməyəcək, yaxın gələcəkdəki siyasi sistemini, tam sərhəd təhlükəsizliyinin qoruyub və iqtisadi inkişafını davam etdirəcəkdir.

Türkiyə-Almaniya münasibətləri üzrə mütəxəssislər arasında belə hesab edənlər var ki, Türkiyə uzunmüddətli türk-alman münasibətlərinin fəaliyyət imkanları sferası böhrana çevrilməməli və əməkdaşlıq sahəsi ticarət müharibələri və terrorizmə qarşı ümumi stansiyaların yaradılması vasitəsilə genişləndirməlidir (3, s.7-8). Heç şübhə yoxdur ki, bu münasibətlər keçmişdə olduğu kimi gələcəkdə də sağlam və tərəddüdsüz davam etdirilə bilər. Əsas məqam ondan ibarət olmalıdır ki, bu münasibətlərdə rasional zəmin üzərində qarşılıqlı maraqların özülü saxlanılsın və olsun ki, gələcəkdə də yeni müsbət mənalı çalarlar qazansın.

## ƏDƏBİYYAT:

1. Jim Zanotti . Turkey: Background and U.S. Relations. – CRS Report for Congress R41368, January 17, 2012, 42 p. Congressional Research Service (Online). Mənbə: https://www.refworld.org/pdfid/4f3915372.pdf [Baxılıb: 4 aprel 2019].
2. Ahmet İçduygu. 50 Years After the Labour Recruitment Agreement with Germany: The Consequences of Emigration for Turkey // Perceptions, Summer 2012, Volume XVII, Number 2, pp.11-36. (Online). Mənbə: http://sam.gov.tr/tr/wp-content/uploads/2012/05/ahmet_icduygu.pdf [Baxılıb: 4 aprel 2019].
3. Zeliha Eliaçık. Turkish - German relations From Conjunctural to the Solution of Structural İssues // SETA Perspective, No:46, September 2018, p.1-8. (Online). Mənbə: https://setav.org/en/assets/uploads/2018/09/46.-TURKISH-GERMAN-RELATIONS-2.pdf [Baxılıb: 4 aprel 2019].
4. Stehhen F. Szabo. Germany and Turkey: The unavoidable partnership // The New Geopolitics Europe. Foreign Policy at Brookings. Turkey Project Policy Paper, No.14, March 2018, p.1-15. (Online). Mənbə: https://www.brookings.edu/wp-

content/uploads/2018/03/fp_20180323_germany_turkey.pdf [Baxılıb: 4 aprel 2019].
5. Yücel Güçlü. Turkish-German Relations from Montreux to the Second World War // The Turkish Yearbook, 1999, Vol.XXIX, p.49-82. (Online). Mənbə: http://dergiler.ankara.edu.tr/dergiler/44/1570/17040.pdf [Baxılıb: 4 aprel 2019].
6. Rafal Ulatowcki. German Foreign Policy. Reliable partners and "new players" // Nueva Epoca, Año 8, No37, Octubre 2014/Marzo 2015, p.132-153. (Online). Mənbə: https://dialnet.unirioja.es/descarga/articulo/6184336.pdf [Baxılıb: 4 aprel 2019].
7. İnterests and Partners of German Foreign Policy // Bergedorf Round Table, September 29th – October 1st, 2006, Berlin, 107 p. (Online). Mənbə: https://www.koerber-stiftung.de/fileadmin/user_upload/koerber-stiftung/redaktion/bergedorfer-gespraechskreis/pdf/import/bnd_135_en_text.pdf [Baxılıb: 4 aprel 2019].
8. Klaus Larres. West Germany and European Unity in U.S. Foreign Policy, 1969-1990 // Cercles, 5 (2002), p.127-145. (Online). Mənbə: http://www.cercles.com/n5/larres.pdf [Baxılıb: 4 aprel 2019].
9. Prof.Dr. Nusret Ekin. Sosyo-ekonomik boyutlarıyla Türk-F.Alman ilişkileri // s.290-294. (Online). Mənbə: http://dergipark.gov.tr/download/article-file/8411 [Baxılıb: 4 aprel 2019].
10. Erol Esen. Türk-Alman işbirliğinde deneyimler ve sonuçlar // Akdeniz İİBF Dergisi (24) 2012, s.62-72. (Online). Mənbə: http://www.acarindex.com/dosyalar/makale/acarindex-1423868660.pdf [Baxılıb: 4 aprel 2019].
11. Yücel Eken. Soğuk savaş sonrasında Türkiye və Almaniya ilişki-leri. (Online). Mənbə: https://www.academia.edu/7250153/So%C4%9Fuk_Sava%C5%9F_

Sonras%C4%B1_T%C3%BCrkiye_Almanya_%C4%B0li%C5%9Fk ileri [Baxılıb: 4 aprel 2019].
12. Yusuf Çınar. Türk alman ilişkilerinde Almanyadakı türk göçmenler (1961-2000) // BEU Akademik İzdüşüm Dergisi, Cilt 2. Sayı 2, s.1-21. (Online). Mənbə: https://www.academia.edu/33300146/T%C3%9CRK_ALMAN_%C4%B0L%C4%B0%C5%9EK%C4%B0LER%C4%B0NDE_ALMANYADAK%C4%B0_T%C3%9CRK_G%C3%96%C3%87MENLER_BEU_%C4%B0.%C4%B0.B.F._Akademik_%C4%B0zd%C3%BC%C5%9F%C3%BCm_Dergisi_ [Baxılıb: 4 aprel 2019].
13.Gül Tuba Dağcı, Kaan Diyarbakıroğlu. Turkish Foreign Policy during Adnan Menderes Period // Alternatives. Turkish journal of İnternational Relations, Vol.12, No.1, Spring 2013, p.18-31. (Online). Mənbə: http://dergipark.gov.tr/download/article-file/19305 [Baxılıb: 4 aprel 2019].
14. İsmail Ermağan. Avrupa Birliği Bağlaminda Türkiye-Almanya İlişkileri // Mustafa Kemal Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 2012, Cilt:9, Sayı:20, s.73-91. (Online). Mənbə: https://www.pegem.net/dosyalar/dokuman/139249-20140212111445-5.pdf [Baxılıb: 4 aprel 2019].
15. Helmut A. Politik vor und hinter den Kulissen. Düsseldorf, 1979.
16. Neumark F. Der Türkische Aussenhandel im Jahre 1939-1940.- Dortmund, 1959.
17. Ağayev İ. Türkiyə-Almaniya siyasi münasibətləri (1924-1939-cu illər) // Tarix və onun problemləri, №3 2011, s.105-110.
18. Koçak C. Türk-Alman İlişkileri (1923-1939). İki Dünya Arasındaki Dönemde // Siyasal, Kültürel, Askeri ve Ekonomik İlişkiler.- Ankara, 1991.
19. Dr.Elnur Nəsirov. Türkiyənin xarici siyasəti, 33 s. (Online). Mənbə: https://ru.scribd.com/doc/58560842/Turkiyenin-Xarici-Siyaseti-Muhazireler [Baxılıb: 4 aprel 2019].
20. Relations between Turkey and the Federal Republic of Germany / Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı internet sayfası. (Online).

Mənbə: http://www.mfa.gov.tr/relations-between-turkey-and-the-federal-republic-of-germany.en.mfa [Baxılıb: 4 aprel 2019].

**Хаят ГАРАЕВА**
***Бакалавр по специальности «преподаватель истории», Бакинский Государственный Университет***

## ВЗГЛЯД НА ИСТОРИЮ ВЗАИМООТНОШЕНИЙ ТУРЕЦКОЙ РЕСПУБЛИКИ И ГЕРМАНИИ

После возникновения Турецкой Республики взаимоотношения между Германией и Турцией приобрели новый политический смысл. Со временем отношения между государствами развивались как в позитивную, так и в негативную сторону. Формирование экономических и военных отношений также зависело от политических и дипломатических отношений. В современный период взаимоотношения таких больших государств как Турция и Германия естественны и многоветвенны.

**Hayat GARAYEVA**
***Bachelor in History Teaching***
***Baku State University***

## VIEW ON THE HISTORY OF RELATIONS BETWEEN THE TURKISH REPUBLIC AND GERMANY

After forming Turkish Republic german-turk relationship gained differentiated political significance. These relationships progressed in positive as well as negative directions by period of time. Forming economic and military relations also depended on international cooperation. Nowadays such significant countries as Germany and Turkey perform bilateral relations which are original and multi-branch.

**Nigar ABBASOVA**
***Bakı Dövlət Universitetinin***
***Qafqazşünaslıq ixtisası üzrə I kurs tələbəsi***
**E-mail: nigarabbasova00@mail.ru**

# 1993-2003-CÜ İLLƏRDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

*Elmi rəhbər*:
Kəmalə NƏCƏFOVA
Bakı Dövlət Universitetinin dosenti

*Açar sözlər:* Heydər Əliyev, neft strategiyası, iqtisadi inkişaf, təbii sərvətlər, müstəqil Azərbaycan
*Ключевые слова:* Гейдар Алиев, нефтяная стратегия, экономическое развитие, природные ресурсы, независимый Азербайджан
*Keywords:* Heydar Aliyev, oil strategy, economic development, natural resources, independent Azerbaijan

Tarixi təcrübə sübut edir ki, milli liderin elmi əsaslar üzərində müəyyənləşdirdiyi mükəmməl strategiya istər ölkənin iqtisadi inkişaf potensialının hərəkətə gətirilməsinə, istərsə də mövcud təbii sərvətlərin hər bir vətəndaşa uyğun realizə edilməsinə ciddi şəkillər formalaşdırır. Bu baxımdan, Azərbaycan xalqı XX əsrin sonlarında müstəqilliyini bərpa etdikdən sonra, 1993-2003-cü illərdə prezident olmuş Ümummilli lider Heydər Əliyev respublikamıza ləyaqətlə rəhbərlik etmiş, onu bir çox çətinliklərdən qurtarmış, Azərbaycanı yenidən Azərbaycan xalqına qaytarmışdır.

Belə ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etməmişdən əvvəl, SSRİ-də 80-ci illərin ikinci yarısında başlanan siyasi proseslər onun tərkibində olan respublikaların, həmçinin Azərbaycanın da iqtisadiyyatına və sosial-mədəni həyatına güclü təsir edirdi. İstehsal azalır, iqtisadi tənəzzül dərinləşirdi. Demək olar ki, bütün sahələrdə əsas istehsal vasitələri mənəvi və fiziki cəhətdən köhnəlmişdi. Ölkədə əsas sənaye sahəsi olan neft sənayesində vəziyyət ağırlaşmışdı. Ölkənin maliyyə sistemi də ağır vəziyyətdə idi. Milli Bank

kreditləri təminatsız və olduqca aşağı faizlə verirdi. 1993-cü ilin ortalarında respublikanın yalnız 8 müəssisəsi xarici banklara 100 milyon dollar qoymuşdu.

Heydər Əliyev yenidən rəhbərliyə gəldikdən sonra tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitliyin yaranmasına nail oldu və baş vermiş iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Bazar iqtisadiyyatının formalaşmasına münasib şərait yaratmaq məqsədilə qanun, fərman və qərarlar qəbul edildi. Prezident Heydər Əliyev 1994-cü il 5 aprel tarixində xarici ticarəti sərbəstləşdirmək haqqında fərman verdi. Həm fiziki, həm də hüquqi şəxslərə azad surətdə xarici ticarət hüququ verildi.

Heydər Əliyev bu gün həm də müstəqil respublikamızın yeni neft strategiyasının müəllifi kimi böyük ehtiramla yad edilir. Əsrlər boyu zəngin təbii sərvətləri ilə bütün dünyada tanınan, bununla böyük dövlətlərin iqtisadi maraqlarına səbəb olan Azərbaycan məhz Heydər Əliyevin müəyyən etdiyi konsepsiya əsasında təbii sərvətlərinə sahiblik hüququnu təsdiqləmişdir. Ümumilli lider Azərbaycanın güclü dövlətə çevrilməsi üçün ölkənin malik olduğu zəngin ehtiyatlarından səmərəli istifadə etməklə yeni neft strategiyasının işlənib hazırlanmasını, bu istiqamətdə görülən işlərin uğurla həyata keçirilməsi məqsədilə əzmlə çalışmışdır.

1994-cü il sentyabr ayının 20-də Bakıda "Əsrin Müqviləsi" adlı qlobal neft müqaviləsinin təntənəli imzalanma mərasimi keçirildi. Ümumi dəyəri 7,4 milyard dollar olan "Əsrin müqaviləsi"ndə dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) iştirak etmişdir. Onlar qısa müddətdə işçi strukturlar - Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) və Məsləhət Şurası yaratdılar. Həmin strukturlar 1994-cü il dekabr ayının 2-də Azərbaycan Prezidenti xüsusi fərman imzaladıqdan sonra fəaliyyətə başladılar. 1994-cü il dekabr ayının 12-də Milli Məclis "Əsrin müqaviləsi"ni ratifikasiya etdi. İlkin hesablamalara görə "Azəri", "Çıraq" yataqlarının və "Günəşli"

yatağının dərinlikdə yerləşən hissəsində əldə edilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən neft ehtiyatı 1.072 milyard ton həcmində müəyyən edildi. "Əsrin müqaviləsi"ndən sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanmışdır. Bu müqavilənin imzalanması təkcə Azərbaycan üçün deyil, o cümlədən Cənubi Qafqaz və Orta Asiya dövlətləri üçün strateji əhəmiyyət daşımışdır.

Bu neft yataqları blokunun istismarı üç mərhələdə nəzərdə tutulmuşdu. 1997-ci il noyabr ayının 7-də "Çıraq" platformasından ilk neft hasil edildi və növbəti mərhələlər də uyğun olaraq uğurla həyata keçirildi. 1997-ci ilin sonlarından etibarən hasil edilən neft Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlandı. 1999-cu ildə Qara dənizin digər bir limanı olan Supsaya Bakıdan neft kəməri çəkilib istifadəyə verildi. 1999-cu ilin dekabr ayında Azərbaycan nefti ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı (8, s.377). Bütün bu layihələr regionda vəziyyəti Azərbaycanın xeyrinə dəyişdi. İndiyədək neft-qaz hasilatına təqribən 5 milyard dollar sərmayə qoyulmuşdur. Bakı-Ceyhan neft kəmərinin və Bakı-Ərzurum qaz kəmərinin inşasına külli məbləğdə-müvafiq surətdə təxminən 2,5 milyard dollar və 1,5 milyard dollara qədər vəsait sərf edilməsi nəzərdə tutulmuşdur (2).

Azərbaycanın son illər əldə etdiyi uğurlar öz əsasını məhz bu müqavilənin gətirdiyi iqtisadi göstəricilərdən götürür. Neftdən gələn gəlirlər hesabına regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılması istiqamətində düşünülmüş strategiyanı həyata keçirən Azərbaycan hökuməti bu sahədə mühüm göstəricilərə nail olmuşdur. Bu da təsadüfi deyildir ki, sosial-iqtisadi inkişafda keyfiyyətcə yeni mərhələ kimi dəyərləndirilən son 10 il həm də sahibkarlar ordusunun milli iqtisadiyyatın aparıcı təbəqəsi kimi önə çıxması ilə səciyyəvidir.

30 aprel 2001-ci il tarixli fərmanla İqtisadi İnkişaf Nazirliyinin yaradılması ilə özəl bölmənin inkişafına dövlət yardımı və onun dövlət tənzimləməsi tədbirlərinin vahid qurumda birləşdirilməsinin, habelə idarə edilməsinin əsası qoyulmuş oldu. Bununla da sahibkarlığın

inkişafı ümumi iqtisadi inkişafın tərkib hissəsinə çevrildi. Sahibkarlığın inkişafı sahəsində qəbul olunmuş dövlət proqramları, qanunvericilik aktları və digər mühüm tədbirlərin özəl bölmənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət tədbirlərini Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevirdi.

Prezident Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər mövcud iqtisadi böhranı aradan qaldırmağa, iqtisadi sabitlik yaratmağa və tərəqqiyə yol açmağa imkan verdi. Ölkədə bir çox yeni sənaye müəssisəsi, istehsalat, sex, qurğu işə salındı. 1993-cü ildə Bakıda çoxsaylı lövhələr istehsal edən "Peyk" zavodu, parket, plastik pəncərə fabrikləri işə düşdü. 1994-1995-ci illərdə neftayırma zavodlarında qurğular müasirləşdirildi. Qaz emalı zavodu yenidən quruldu.

Ölkənin iqtisadiyyatında struktur dəyişiklikləri getdikcə dərinləşirdi. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət yardımı Proqramı (1997-2000-ci illər)" hazırlandı və qəbul olundu. 2002-ci ilin yayında "Azərbaycan Respublikasında kiçik orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" təsdiq edildi (8, s.382).

Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi 1995-ci ildə başladı və 1997-ci ilin martında başa çatdı. Nəticədə 10174 kiçik dövlət müəssisəsi özəlləşdirildi. Ümumiyyətlə, kiçik müəssisələrin özəl mülkiyyətə çevrilməsi əsasən əmək kollektivləri üzrə, iri və orta müəssisələrin özəlləşdirilməsi isə səhmdar cəmiyyətlərin yaradılması yolu ilə həyata keçirilirdi. 2000-ci ilin avqustun 10-da qəbul edilən özəlləşdirmə üzrə ikinci Dövlət Proqramının həyata keçirilməsi nəticəsində daha çox orta və iri müəssisələr özəlləşdirilərək 1275 səhmdar cəmiyyəti yaradıldı.

Heydər Əliyevin xarici iqtisadi əlaqələr sahəsində gördüyü işlərin nəticəsi olaraq, Azərbaycan həmçinin türk dünyasında təcrid olunmuş vəziyyətdən çıxmış oldu. Azərbaycanla eyni vaxtda müstəqil olmuş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla münasibətlər bərpa edildi. Hazırda Azərbaycan Respublikası türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvüdür. Bu xidmətlərinə görə,

Heydər Əliyev bütün türk dünyasının müdrik yolgöstərəni, zəmanəmizin Atatürkü adını qazanmışdır (2, s.401).

Heydər Əliyev Böyük İpək Yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda "Gülüstan" sarayında keçirilmiş beynəlxalq konfrans müstəqillik dövründə Azərbaycanın xarici siyasət tarixinin ən böyük hadisələrindən biri oldu. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanda deyil, bütün türk dünyasının dirçəlişində mühüm rol oynayacağı ehtimal olunurdu (8, s.375).

Azərbaycan, həmçinin Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında mühüm rol oynayır, terrorizmə qarşı beynəlxalq mübarizədə fəal və ardıcıl surətdə inkişaf edir. Yenicə müstəqil olmuş kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti nəticəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdir. Heydər Əliyev qeyd edirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə etməyi bacaran, sosial-siyasi və iqtisadi problemlərin bütün mürəkkəbliyini, çətinliyini nəzərə alan, qəbul edilən qərarların mümkün nəticələrini əvvəlcədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir (6).

Heydər Əliyev kommunikasiya texnologiyalarının da perspektivini görür və bu sahədə inkişafa nasil olmaq üçün daim səy göstərirdi. 1995-ci ildə Azərbaycanda ilk beynəlxalq Telefon Stansiyasının birinci növbəsinin açılışı olmuşdur. Radio-televiziya yayımının dünya standartlarına uyğun təşkilində uğurlar qazanılması da məhz Heydər Əliyevin adı ilə bağlıdır. 1996-cı ildə Az.TV1 milli televiziya proqramı "TÜRKSAT" süni peyk vasitəsilə yayımlanmağa başlanılmış, Avropa və Yaxın Şərq dövlətləri ilə yanaşı blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının əhalisi də milli televiziya proqramlarını seyr etmək imkanı qazanmışdır (10, s.7).

Ümumilikdə, 1993-cü ildən etibarən iqtisadi sahələri tənzimləyən 70-dən çox qanun qəbul edilmiş, 100-dən çox sərəncam və fərman imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir. Bu

qanun və normativ-hüquqi aktlar dövlətin iqtisadi əsaslarının möhkəmləndirilməsinə, iqtisadi sistemin liberallaşdırılmasına, dövlət idarəçiliyində şəffaflığın, vətəndaşların sosial və iqtisadi hüquqlarının daha dolğun təmin edilməsinə yönəlmişdi. Yeridilən bu uğurlu siyasət nəticəsində Azərbaycan hal-hazırda Sovet İttifaqının dağılması ilə müstəqillik əldə edən respublikalar arasında ən çox xarici investisiyaları cəlb edən ölkələr sırasındadır. Sovet İttifaqının dağılma müddətində və müstəqilliyin ilk illərində sürətlə geriləyən Azərbaycan iqtisadiyyatı 1997-ci ildən etibarən inkişaf etməkdədir.

Respublikada onlarla yeni sənaye müəssisəsi, istehsalat, sex, qurğu işə salınnış, Bakıda çoxsaylı lövhələr istehsal edən "Peyk" zavodu, parket, plastik pəncərə fabrikləri işə düşmüşdür. 1995-1996-cı illərdə Neft Daşlarında yanacaq qazının tutulub sahilə ötürülməsi üçün kompressor stansiyası qurulub istifadəyə verilmişdir. Sonralar bu stansiya modernləşdirilib, gücü iki dəfə artırılıb. Təkcə Balaxanı-Sabunçu-Romana yatağında 380 köhnə quyu təmir olunub istismara qaytarılıb (11, s.234).

Heydər Əliyev rəqabət və vergi siyasətinə də xüsusi önəm verir, Azərbaycan iqtisadiyyatının yüksəlişi üçün şirkətlərə üstünlüklü şərtlər təklif edirdi. Məsələn, Azərbaycanda vergi yükü bütün keçmiş Sovet İttifaqı ölkələri də daxil olmaqla dünyanın 19 ölkəsi ilə müqayisədə ən aşağı səviyyədədir. Son 8 ildə xarici vergi ödəyəcilərinin sayı 3 dəfədən çox artmışdır (6).

Heydər Əliyevin yeritdiyi siyasətdə xalqın sosial rifahının yüksəldilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması həmişə önəmli yerə malik olmuşdur. Bu məsələ dövlət büdcəsindən sosial məsələlərin həlli üçün ayrılan vəsaitin ildən-ilə artırılmasında öz əksini tapmışdır. Digər tərəfdən, əhalinin gəlirləri də yüksələn xətlə çoxalmışdır. Əgər 1993-cü ildə hər nəfərə düşən pul gəlirləri 18,4 min manat olmuşdusa, 2002-ci ildə bu rəqəm 2629,2 min manata qədər artmışdır. Əmək haqqı, pensiya təminatı artırılmışdır. Qaçqınların və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə 1998-ci il sentyabr ayının 17-də xüsusi Dövlət Proqramı qəbul edilmişdir.

Bu dövr ərzində sənayenin digər sahələri də, xüsusilə qabaqcıl texnika və texnologiyaya əsaslanan sahələrin inkişafı diqqət mərkəzində olmuşdur. Heydər Əliyevin göstərdiyi səylər nəticəsində Azərbaycanda vətəndaş cəmiyyəti qurulması sahəsində uğurlu addımlar atılmışdır. Bunun üçün sənayenin əsas göstəricilərinə və sahələr üzrə sənaye məhsullarının həcminə dair məlumatlara nəzər salmaq kifayətdir. Heydər Əliyev 1993-cü ildə yenidən rəhbərliyə gələrkən Azərbaycan Respublikasında olan sənaye müəssisələrinin sayı 2306 idisə, 2002-ci ildə bu göstərici 5202, yaxud 2896 (55,67%) müəssisə çox idi. Sənaye sahələri üzrə məhsulun həcmində də irəliləyişlər çox idi. Mədənçıxarma sənayesi üzrə bu göstərici 1993-cü ildəki 9,4 milyard manatdan artaraq 9.569,4 milyard manata çatmışdı. Emal sənayesində bu göstərici müvafiq olaraq 99,2 və 8.292 milyard manat olmuşdu (7).

Bundan başqa kənd təsərrüfatının ümumi məhsulunda da ciddi artım müşahidə edilmişdi. Əgər 1993-cü ildə kənd təsərrüfatında ümumi məhsul istehsalı 52,3 milyard manat idisə, 2002-ci ildə bu rəqəm 6.355,7 milyard manata yüksəlmişdi.

Ümumilli lider hər bir sahəyə qayğı ilə yanaşdığı kimi, gənclərin gələcəyi naminə onlara xüsusi diqqət göstərirdi. O, hesab edirdi ki, Azərbaycanın parlaq gələcəyi yalnız savadlı, bilikli, intellektual səviyyəsi yüksək olan gənclərdən asılıdır. 1996-cı il fevralın 2-də Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Forumda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev şəxsən iştirak edirdi. Eyni zamanda o, gənclərin, birinci növbədə, Azərbaycanın müstəqilliyi prinsiplərinə sadiqlik ruhunda tərbiyə edilməsi Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətini təşkil edirdi. O, vurğulayırdı: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir".

Qeyd etdiyimiz kimi, 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatı tənəzzül və böhran vəziyyətindən xilas olaraq, iqtisadi yüksəliş yoluna qədəm qoymuşdur. Bu uzaqgörən iqtisadi siyasətin nəticəsidir ki, Azərbaycan bu gün dünyanın inkişaf etmiş dövlətləri ilə bir

sırada yer almaqdadır, bu gün Cənubi Qafqazda bütün iqtisadiyyat Azərbaycandan asılıdır, regionda gerçəkləşən bütün layihələrin başında Azərbaycan durmaqdadır (6).

XX əsr Azərbaycan tarixinin ən parlaq siması olan Heydər Əliyevin siyasi obrazı Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış, bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. O, Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizi bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, gələcək inkişaf strategiyasını müəyyən etmiş və həyata keçirilməsi üçün mühüm addımlar atmışdır.

ƏDƏBİYYAT:

1. İsmayıl Hacıyev. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan, "Əcəmi" NPB, 2013, 296 s.
2. Yaqub Mahmudov. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, Təhsil, 2011, 547 s.
3. Azərbaycan Respublikasının prezidenti Heydər Əlirza oğlu Əliyevin Andiçmə mərasimində nitqi, 18 oktyabr 1998-ci il "Neydər Əliyev İris" Beynəlxalq Elektron Kitabxana. Mənbə: https://lib.aliyevheritage.org/az/7958721.html [Baxılıb: 4 aprel 2019].
4. Böyük liderin 90 anı. Bakı, Heydər Əliyev irsini araşdırma mərkəzi, 2013, 272 s.
5. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I kitab: iyun, 1993 – may, 1994. Bakı, Azərnəşr, 1997, 612 s.
6. Şahin İsgəndərov, Halil Öncel. Haydar Aliyev ve Azerbaycanda yeni devlet kuruculuğu. İstanbul, 2008.
7. Mehriban Alışanova. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir. Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, 214 s.
8. Azərbaycan tarixi 7 cilddə. VII cild (1941-2002-ci illər). Bakı, "Elm", 2008, 608 s.
9. Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. Bakı, Nurol, 2001, 491 s.

10. Heydər Əliyevin informasiya və kommunikasiya texnologiyaları siyasəti. Bakı, 2007.
11. Tahir Qaffarov. Azərbaycan Respublikası: 1991-2001. Bakı, Tural-Ə NPM, 2001, 328 s.

**Нигяр АББАСОВА**
***Студентка 1 курса по специальности Кавказоведение Бакинского Государственного Университета***

# РОЛЬ ГЕЙДАР АЛИЕВА В СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОМ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА В 1993-2003 ГОДАХ

Национальный лидер Азербайджана Гейдар Алиев правил Азербайджаном дважды: сначала в 1969-1982 годах как лидер партии, затем в 1993-2003 годах как президент независимого государства. Он сыграл выдающуюся роль во всех сферах общественно-политической, культурной и экономической жизни Азербайджана. В июне 1993 Г.Алиев принял на себя политическую власть, после чего обеспечил экономическую стабильность в короткий период времени и положил начало новой эре в экономическом развитии Азербайджана. В результате этой политики 20 сентября 1994 года был подписан "Контракт века" с крупнейшими нефтяными компаниями, в результате чего произошли важные изменения во всех сферах жизни республики. В статье рассказывается о социально-экономических реформах, проведенных в 1993-2003 годах в Азербайджане и о роли Гейдара Алиева в процессе подготовки и проведение этих реформ.

**Nigar ABBASOVA**
***First year student in Caucasus Studies of Baku State University***

# THE ROLE OF HAYDAR ALIYEV İN SOCIO-ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN IN 1993-2003

Haydar Aliyev, the National leader of Azerbaijan, ruled Azerbaijan twice: first in 1969-1982 as a party leader, then between 1993-

